ISSN: 2706-6185
e-ISSN: 2709-4197

HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR ADLI IV TEZİSLƏR TOPLUSU

Qədim Diyar
Beynəlxalq Elmi Jurnalının
XÜSUSİ BURAXILIŞI

COLLECTION OF THESES ON HUMANITARIAN AND SOCIAL SCIENCES

SPECIAL ISSUE OF THE
Ancient Land
International Scientific Journal

Bakı, Azərbaycan
22 noyabr 2026

HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR ADLI
IV TEZİSLƏR TOPLUSU
Qədim Diyar
Beynəlxalq Elmi Jurnalının
XÜSUSI BURAXILIŞI

DOI: https://doi.org/10.36719/2706-6185/IV/HİETT/2026

COLLECTION OF IV THESES ON
HUMANITARIAN AND SOCIAL SCIENCES
SPECIAL ISSUE OF THE
Ancient Land
International Scientific Journal

22 noyabr 2026

Beynəlxalq indekslər /
International Indexing



















© Jurnalda çap olunan materiallardan istifadə edərkən istinad mütləqdir.
© It isnecessaryto usereference whileusingthe journal materials.
© tezis.elm@gmail.com
© info@aem.az

TƏŞKİLAT KOMİTƏSİ

Sədr

Prof. Dr. Vaqif SULTANLI, Bakı Dövlət Universiteti / Azərbaycan

Sədr müavinləri

Assoc. Prof. Dr. Yeganə QƏHRƏMANOVA, Azərbaycan Dövlət Pedaqoji Universiteti
Assoc.Prof.Dr. Elvira HEYDƏROVA, Bakı Dövlət Universiteti /Azərbaycan
Assoc. Prof. Dr. Elçin İSMAYILOV, AMEA Nəsimi adına Dilçilik İnstitutu / Azərbaycan

Məsul katib

Prof. Dr. Kərim ŞÜKÜROV, AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu / Azərbaycan

Üzvlər

Prof. Dr. Rafail ƏHMƏDLİ, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
Prof. Dr. Himmet KARADAL, Bolu Abant İzzet Baysal Universiteti / Türkiyə
Prof. Dr. Ziyabek KABULDİNOV, Ç. Vəlixanov adına Tarix və Etnologiya İnstitutunun baş direktoru / Qazaxıstan
Prof. Dr. Mansur MUSAYEV, Sorbon Universiteti / Özbəkistan
Prof. Dr. Siham Abdulmejeed ZENGİ, Bağdad Universiteti / İraq
Prof. Dr. Əziz SANCAR, Çapel-Hill Şimali Karolina Universiteti / ABŞ
Prof. Dr. Şovkat ŞARİPOV, Cizzak Pedaqoji Universiteti / Özbəkistan
Prof. Dr. Elmira KHURİBAYEVA, K.Ş. Toktomamatov adına Beynəlxalq Universitet / Qırğızıstan
Prof. Dr. Georgi DUKA, Moldova Elmlər Akademiyası / Moldova
Prof. Dr. Nigar GÖZƏLOVA, AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu / Azərbaycan
Prof. Dr. Arzu SƏRDARLI, Kanada Birinci Millətlər Universiteti / Kanada
Prof. Dr. İlya ZUMBULADZE, Kutaisi Dövlət Universiteti / Gürcüstan
Prof. Dr. Yeganə İSMAYILOVA, Bakı Dövlət Universiteti / Azərbaycan
Assoc. Prof. Dr. Zaur ƏLİYEV, AMEA Fəlsəfə və Sosiologiya İnstitutu / Azərbaycan
Assoc. Prof. Dr. Sevinc RUİNTƏN, Bakı Dövlət Universiteti / Azərbaycan

Assoc. Prof. Dr. Qüdsiyyə QƏMBƏROVA, AMEA Nəsimi adına Dilçilik İnstitutu / Azərbaycan
Assoc. Prof. Dr. Səkinə BAYRAMOVA, AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu / Azərbaycan
Assoc. Prof. Dr. Farizat KURAMAYEVA, Cusup Balasaqun Universiteti, Qırğızıstan
Assoc. Prof. Dr. Təranə NAĞIYEVA, Azəbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
Assoc. Prof. Dr. Vəfa ABDULLAYEVA – NƏBİYEVA, AMEA Nəsimi adına Dilçilik İnstitutu / Azərbaycan

ORGANIZING COMMITTEE

Chair

Prof. Dr. Vagif SULTANLI, Baku State University / Azerbaijan

Vice-Chairs

Assoc. Prof. Dr. Yegana GAHRAMANOVA, Azerbaijan State Pedagogical University
Assoc. Prof. Dr. Elvira HEYDAROVA, Baku State University / Azerbaijan
Assoc. Prof. Dr. Elchin ISMAYILOV, Nasimi Institute of Linguistics, ANAS / Azerbaijan

Executive Secretary

Prof. Dr. Karim SHUKUROV, A.A. Bakikhanov Institute of History and Ethnology, ANAS / Azerbaijan

Members

Prof. Dr. Rafail AHMADLI, Azerbaijan State Pedagogical University / Azerbaijan
Prof. Dr. Himmet KARADAL, Bolu Abant Izzet Baysal University / Türkiye
Prof. Dr. Ziyabek KABULDINOV, Director General, Ch. Valikhanov Institute of History and Ethnology / Kazakhstan
Prof. Dr. Mansur MUSAYEV, Sorbonne University / Uzbekistan
Prof. Dr. Siham Abdulmejeed ZENGİ, University of Baghdad / Iraq
Prof. Dr. Aziz SANCAR, University of North Carolina at Chapel Hill / USA
Prof. Dr. Shovkat SHARIPOV, Jizzakh Pedagogical University / Uzbekistan
Prof. Dr. Elmira KHURIBAYEVA, K.Sh. Toktomamatov International University / Kyrgyzstan
Prof. Dr. Georgi DUKA, Academy of Sciences of Moldova / Moldova
Prof. Dr. Nigar GOZALOVA, A.A. Bakikhanov Institute of History and Ethnology, ANAS / Azerbaijan
Prof. Dr. Arzu SARDARLI, First Nations University of Canada / Canada
Prof. Dr. Ilya ZUMBULADZE, Kutaisi State University / Georgia
Prof. Dr. Yegana ISMAYILOVA, Baku State University / Azerbaijan
Assoc. Prof. Dr. Zaur ALIYEV, Institute of Philosophy and Sociology, ANAS / Azerbaijan
Assoc. Prof. Dr. Sevinc RUINTAN, Baku State University / Azerbaijan
Assoc. Prof. Dr. Qudsiyya GAMBAROVA, Nasimi Institute of Linguistics, ANAS / Azerbaijan
Assoc. Prof. Dr. Sakina BAYRAMOVA, Nizami Ganjavi Institute of Literature, ANAS / Azerbaijan
Assoc. Prof. Dr. Farizat KURAMAYEVA, Jusup Balasagun University / Kyrgyzstan
Assoc. Prof. Dr. Tarana NAGHIYEVA, Azerbaijan State Pedagogical University / Azerbaijan
Assoc. Prof. Dr. Vafa ABDULLAYEVA-NABIYEVA, Nasimi Institute of Linguistics, ANAS / Azerbaijan

Humanitar və İctimai Elmlər adlı Tezislər Toplusu / 22 Noyabr 2026 / 5-9
Collection of Theses on Humanitarian and Social Sciences / 22 November 2026 / 5-9
DOI: https://doi.org/10.36719/2706-6185/IV/HİETT/2026

Rəqəmsal inkişafın Azərbaycan dilinə təsiri

Elnarə Məmmədova[1*], İradə İmanova[2]

Açar sözlər: *Azərbaycan dili, rəqəmsal dövr, rəqəmsal texnologiyalar, akademik ünsiyyət, rəqəmsal mühit*
Keyword: *Azerbaijani language, digital era, digital technologies, academic communication, digital environment*

XXI əsr rəqəmsal texnologiyaların cəmiyyətin bütün sahələrinə nüfuz etdiyi dövrdür. İnternetin geniş yayılması, mobil rabitənin, sosial şəbəkələrin, elektron xidmətlərin və onlayn təhsil platformalarının inkişafı insanların məlumat əldə etmə və ünsiyyət qurma üsullarını əsaslı şəkildə dəyişmişdir. Bu dəyişikliklər dilin həm yazılı, həm də şifahi formalarına birbaşa təsir göstərir. Dil cəmiyyətin inkişafını əks etdirən canlı sistemdir. Rəqəmsal dövr Azərbaycan dilinə yeni söz və terminlər gətirmiş, ünsiyyət üslublarını dəyişmiş və dilin istifadə mühitini genişləndirmişdir. Eyni zamanda yazıda orfoqrafiya və durğu qaydalarının pozulması, xarici sözlərin yersiz işlədilməsi kimi problemlər də ortaya çıxmışdır. Bu işin məqsədi rəqəmsal inkişafın Azərbaycan dilinə müsbət və mənfi təsirlərini araşdırmaq, mövcud problemləri müəyyənləşdirmək və onların həlli yollarını göstərməkdir.

[1]Azərbaycan Tibb Universiteti, Filologiya üzrə fəlsəfə doktoru, Bakı, Azərbaycan
[2]Azərbaycan Tibb Universiteti, Bakı, Azərbaycan
[*]Corresponding author. E-mail: ememmedova69@mail.ru

1. Rəqəmsal inkişaf anlayışı və onun dillə əlaqəsi

Rəqəmsal inkişaf informasiyanın rəqəmsal texnologiyalar vasitəsilə yaradılması, saxlanılması, ötürülməsi və emalı prosesidir. Bu proses internet, mobil rabitə, elektron xidmətlər, sosial media və süni intellekt kimi istiqamətləri əhatə edir. Dil ilə rəqəmsal texnologiyalar arasındakı əlaqə qarşılıqlıdır. Texnologiyalar dilin istifadə sahələrini və ünsiyyət formalarını dəyişir, texnologiyaların özü isə dil vasitəsilə fəaliyyət göstərir. Buna görə dilin rəqəmsal mühitdə təmsil olunma səviyyəsi onun gələcək inkişafına təsir edən əsas amildir.

2. Azərbaycanda rəqəmsal mühitin formalaşması və dövlət siyasəti

Azərbaycan son illərdə rəqəmsal transformasiya sahəsində mühüm addımlar atmışdır. İnformasiya cəmiyyətinin inkişafına dair Milli Strategiya (2014–2020-ci illər) və "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədlərində informasiya-kommunikasiya texnologiyalarının və elektron xidmətlərin inkişafı əsas istiqamətlər kimi göstərilmişdir. "ASAN xidmət", elektron imza və elektron sənəd dövriyyəsi rəsmi dilin rəqəmsal formada istifadəsini artırmışdır. Elektron xidmət portalları, mobil tətbiqlər və rəsmi saytlar vətəndaşla dövlət arasında ünsiyyəti məhz dil vasitəsilə qurur. Bu mətnlərin sadə, aydın və ədəbi dil normalarına uyğun yazılması xidmətin keyfiyyətinə və dilin nüfuzuna təsir edir. Konstitusiyanın 21-ci maddəsinə əsasən Azərbaycan dili dövlət dilidir.

3. Sosial şəbəkələr və mesajlaşma: yazılı nitqin yeni formaları

Sosial şəbəkələr və anlıq mesajlaşma proqramları müasir ünsiyyətin əsas vasitəsinə çevrilmişdir. Bu ünsiyyət şifahi nitqə yaxın, sürətli və qeyri-rəsmi xarakter daşıyır: cümlələr qısadır, durğu işarələri az işlədilir, emoji və stikerlər sözləri əvəz edir. Müsbət tərəfi odur ki, insanlar ana dilində daha çox yazır,

bloqlar və video platformalar vasitəsilə elmi və maarifləndirici məzmun geniş auditoriyaya çatır. Lakin sürətli yazı üslubu dil qaydalarının pozulmasına gətirib çıxarır. Sözlər qısaldılır ("salam" əvəzinə "slm"), saitlər buraxılır, ə, ş, ç, ğ hərflərinin yerinə e, sh, ch, g yazılır. Bu vərdiş rəsmi yazıda da səhvlərə səbəb ola bilər. Gənclərin nitqində Azərbaycan, rus və ingilis sözlərinin bir cümlədə işlədilməsi də geniş yayılmışdır və rəsmi, akademik mühitdə ana dilinin dəqiq ifadə imkanlarını məhdudlaşdırır.

4. Rəqəmsal mühitdə yeni söz və terminlərin yaranması

Rəqəmsal texnologiyalar dilin lüğət tərkibinə kompüter, proqram, internet, elektron poçt, sayt, bloq, smartfon, onlayn kimi yeni söz və terminlər gətirmişdir. Bunların bir hissəsi xarici dillərdən alınmış, bir hissəsi isə Azərbaycan dilinin imkanları hesabına yaradılmışdır. Yeni terminlər dilə üç əsas yolla daxil olur: xarici sözün dilin qaydalarına uyğunlaşdırılaraq alınması, kalka (məsələn, "elektron poçt") və mövcud sözün yeni mənada işlədilməsi ("siçan", "pəncərə", "qovluq"). Şəkilçilər vasitəsilə "yükləmək", "paylaşmaq", "izləyici" kimi sözlər də yaranır. Əsas problem eyni anlayış üçün bir neçə variantın işlədilməsidir. Buna görə terminlərin elmi əsaslarla müəyyənləşdirilməsi və lüğətlərdə vahid formada verilməsi vacibdir.

5. Rəqəmsal resurslar: elektron lüğətlər, korpuslar və tərcümə proqramları

Elektron lüğətlər və onlayn orfoqrafiya vasitələri istifadəçilərə sözün mənasını və düzgün yazılışını tez öyrənməyə imkan verir. Dil korpusları, yəni kompüterdə emal olunan böyük mətn toplusu, sözlərin işlənmə tezliyini və mənalarının dəyişməsini öyrənmək üçün əsas bazadır (Qəhrəmanova, 2026a; Qəhrəmanova, 2026b). Avtomatik tərcümə, orfoqrafik yoxlama və səsli axtarış sistemləri dilin rəqəmsal imkanlarını

genişləndirir. Lakin dilimiz şəkilçilərlə zəngin olduğundan maşın tərcüməsində şəkilçi seçimi və məna dəqiqliyi ilə bağlı səhvlər qalır, ona görə nəticə həmişə yoxlanılmalıdır.

6. Rəqəmsal inkişafın təhsildə və peşəkar ünsiyyətdə dilə təsiri
2020-ci ildə pandemiya dövründə distant təhsilə keçid onlayn platformaları və rəqəmsal tədris materiallarını gündəlik təcrübəyə daxil etdi. Elektron məktub, onlayn müzakirə və rəqəmsal təqdimat akademik nitqin tərkib hissəsinə çevrildi. Gənc mütəxəssis sosial şəbəkələrdəki sərbəst üslubu rəsmi yazışmalara keçirməməlidir. Səhiyyədə elektron xidmətlər, onlayn məsləhətləşmələr və maarifləndirici materiallar ana dilində aydın və dəqiq hazırlanmalıdır. İctimai səhiyyə mütəxəssisləri üçün tibbi terminlərin düzgün işlədilməsi əhalinin məlumatlandırılması baxımından xüsusilə əhəmiyyətlidir.

7. Rəqəmsal inkişafın mənfi təsirləri və mövcud problemlər
Rəqəmsal mühitin mənfi təsirləri bir neçə istiqamətdə görünür. Qısa mesajlaşma vərdişi uzun mətn yazma və oxuma bacarığını zəiflədir. Avtomatik düzəliş funksiyaları Azərbaycan dilinin qaydalarını bilmədikdə düzgün sözü səhv variantla əvəz edə bilir. İnternetdə ingilis dilli məzmunun üstünlüyü və ana dilində keyfiyyətli elmi məzmunun azlığı dilin elmi və texniki üslubunun inkişafına mane olur. Savadsız yazılmış mətnlər geniş yayıldıqda səhv yazılış norma kimi qəbul oluna bilər.

8. Problemlərin həlli yolları və inkişaf perspektivləri
Rəqəmsal inkişafın təsirini müsbət istiqamətə yönəltmək üçün bir neçə tədbir vacibdir. Birincisi, məktəblərdə və universitetlərdə yazı və nitq mədəniyyəti ilə yanaşı rəqəmsal ünsiyyət etikası da tədris edilməlidir. İkincisi, elmi məqalələrin, dərsliklərin, rəqəmsal kitabxanaların və onlayn kursların

Azərbaycan dilində hazırlanması dəstəklənməlidir. Üçüncüsü, elektron lüğətlərin, terminoloji bazaların və dil korpuslarının genişləndirilməsi, dilçilərlə proqramçıların əməkdaşlığı orfoqrafik yoxlama və tərcümə proqramlarının keyfiyyətini yüksəldə bilər. Dördüncüsü, yeni terminlər elmi əsaslarla müəyyənləşdirilməli və mediada vahid formada işlədilməlidir. Hər bir istifadəçi isə rəqəmsal mühitdə yazdığı mətnə görə məsuliyyət daşıdığını dərk etməlidir.

Rəqəmsal inkişaf Azərbaycan dilinə həm yeni imkanlar, həm də yeni sınaqlar gətirmişdir. Bir tərəfdən, rəqəmsal texnologiyalar dilin istifadə sahələrini genişləndirmiş, lüğət tərkibini zənginləşdirmiş və informasiyaya çıxışı asanlaşdırmışdır. Digər tərəfdən, yazı qaydalarının pozulması, xarici sözlərin yersiz işlədilməsi və terminoloji qeyri-sabitlik ciddi problem olaraq qalır. Bu təsirlərin müsbət nəticə verməsi dil siyasətindən, təhsil sistemindən və hər bir insanın ana dilinə münasibətindən asılıdır. Dilin qorunması texnologiyalardan imtina etməklə deyil, onlardan ana dilinin xeyrinə səmərəli istifadə etməklə mümkündür.

Ədəbiyyat

Qəhrəmanova, Y. (2026a). Rəqəmsallaşma şəraitində azresurslu dillərin böyük dil modelləri üçün sintaktik və semantik korpusunun qurulması prinsipləri. *Elmi Tədqiqat*, *6*(8), 21–28. https://doi.org/10.36719/2789-6919/62/21-28

Qəhrəmanova, Y. (2026b). Rəqəmsallaşmanın dilə təsiri: Süni intellektin dildə semantik bütövlüyü və sintaktik adekvatlığı "qavrama" səviyyəsi. *Qədim diyar, 8*(7), 114–120. https://doi.org/10.36719/2706-6185/62/114-120

Humanitar və İctimai Elmlər adlı Tezislər Toplusu / 22 Noyabr 2026 / 10-15
Collection of Theses on Humanitarian and Social Sciences / 22 November 2026 / 10-15
DOI: https://doi.org/10.36719/2706-6185/IV/HİETT/2026

Savad təlimi dövründə şagirdlərin oxu prosesində müşahidə olunan qüsurlar

Maya Qasımova

Açar sözlər: *savad təlimi, oxu qüsurları, səs-hərf əlaqəsi, fonematik qavrayış, ibtidai təhsil, metodik çalışmalar*
Keywords: *initial literacy instruction, reading difficulties, phonemic awareness, grapheme-phoneme correspondence, syllable blending, primary education, teaching methodology*

İbtidai təhsil mərhələsində şagirdlərin oxu bacarıqlarına yiyələnməsi onların sonrakı təlim fəaliyyətində uğurun, müstəqil öyrənmə qabiliyyətinin və idraki inkişafının əsas şərtlərindən biridir. Oxu yalnız yazılı işarələrin səsləndirilməsi deyil, eyni zamanda dil vahidlərinin tanınması, onların mənalandırılması, mətnin məzmununun anlaşılması və əldə edilən informasiyanın şagirdin əvvəlki bilikləri ilə əlaqələndirilməsi prosesidir. Bu baxımdan ilkin oxu bacarıqlarının formalaşması həm texniki, həm də idraki fəaliyyət kimi qiymətləndirilməlidir.

Problemin aktuallığı ondan ibarətdir ki, oxu prosesində müşahidə edilən səhvlər hər zaman eyni səbəbdən yaranmır. Bəzi şagirdlər hərfləri tanımaqda, digərləri səsləri birləşdirməkdə, bir qismi isə oxuduğunu anlamaqda çətinlik çəkə bilər.

Azərbaycan Dövlət Pedaqoji Universiteti, Pedaqogika üzrə fəlsəfə doktoru, Bakı, Azərbaycan
E-poçt: maya0866@gmail.com

Bu fərqlərin nəzərə alınmaması bütün şagirdlərə eyni tipli çalışmaların verilməsi ilə nəticələnə və fərdi inkişaf ehtiyaclarının qarşılanmasını çətinləşdirə bilər. Milli təhsil kontekstində problemin araşdırılması Azərbaycan dilinin fonetik və qrafik xüsusiyyətlərinin, savad təliminin məzmununun və ibtidai sinif şagirdlərinin yaş xüsusiyyətlərinin nəzərə alınmasını tələb edir.

Oxu bacarığının formalaşması bir neçə qarşılıqlı əlaqəli komponentdən asılıdır:

- Fonematik qavrayış: nitq səslərini eşitmək və fərqləndirmək bacarığı.
- Qrafem-fonem əlaqəsi: hərflərlə onların ifadə etdiyi səslər arasında əlaqə yaratmaq.
- Dekodlaşdırma: yazılı sözün səs quruluşunu müəyyənləşdirərək onu oxumaq.
- Oxu səlisliyi: sözləri dəqiq, uyğun sürətlə və ifadəli oxumaq.
- Oxuduğunu anlama**:** söz, cümlə və mətnin mənasını qavramaq.

Beləliklə, oxu təlimi yalnız hərflərin tanıdılması və sözlərin səsləndirilməsi ilə məhdudlaşmamalıdır. Təlim prosesi səs təhlili, səs-hərf əlaqəsi, heca və sözlərin oxusu, mətnin anlaşılması və şifahi nitqin inkişafı arasında ardıcıl əlaqə əsasında qurulmalıdır.

Savad təlimi dövründə müşahidə olunan oxu səhvlərini təsnif etmək müəllimə şagirdin hansı sahədə çətinlik çəkdiyini müəyyənləşdirməyə kömək edir. Bununla belə, eyni səhv müxtəlif səbəblərlə bağlı ola bilər. Buna görə də təsnifat diaqnoz deyil, pedaqoji müşahidə və əlavə dəyərləndirmə üçün başlanğıc vasitə kimi qəbul edilməlidir.

Savad təlimi dövründə şagirdlərin oxu prosesində yol verdikləri qüsurlar, adətən, onların psixoloji inkişafı, fonematik eşitmə qabiliyyəti və mexaniki vərdişlərin hələ tam formalaşmaması ilə bağlıdır.

I. Hərf və heca səviyyəsində olan qüsurlar:
*1. Hərflərin tanınmasında və fərqləndirilməsində çətinlik***.** Bəzi şagirdlər öyrəndikləri hərfləri müstəqil şəkildə tanımaqda və ya oxşar qrafik xüsusiyyətlərə malik hərfləri fərqləndirməkdə çətinlik çəkirlər. Belə çətinliklər fonematik eşitmənin zəifliyi, hərf formaları ilə bağlı təsəvvürlərin kifayət qədər möhkəmlənməməsi, hərf-səs əlaqəsinin tam mənimsənilməməsi və ya diqqətin qeyri-sabitliyi ilə əlaqəli ola bilər. Fonematik qavrayış kifyət qədər inkişaf etmədikdə şagird tələffüzcə yaxın olan səsləri (məsələn: *c-ç, z-s, v-f*) eşitmə yolu ilə zəif ayırd etdiyi üçün oxuyarkən də onları bir-biri ilə əvəzləyir. Bu səbəbdən müəllim öncə şagirdlərin fonematik qavrayışının inkişaf etdirilməsi qeydinə qalmalı, hərfi keçərkən də onu yalnız vizual obraz kimi deyil, ifadə etdiyi səs, söz daxilindəki mövqeyi və leksik mənalı nümunələrlə birlikdə öyrətməlidir.

2. Səsləri birləşdirməkdə çətinlik. Şagird ayrı-ayrı hərfləri tanısa da, onların ifadə etdiyi səsləri ardıcıl birləşdirərək sözü oxumaqda çətinlik çəkə bilər. Buna səbəb şagirdlərdə "hərf-hərf" oxuma kimi yanlış vərdişin formalaşdırılmasıdır. Bu zaman şagird sözdəki hərfləri ardıcıl olaraq səsləndirir, lakin bütöv sözün oxunmasına və tanınmasına gec nail olur (və ya heç nail olmur). Belə şagirdlərlə əvvəlcə sadə səs tərkibli hecalar, daha sonra isə qısa və fonetik baxımdan uyğun sözlər üzərində işləmək məqsədəuyğundur. Çalışmaq lazımdır ki, oxu zamanı şagirdin görmə sahəsi "bir hərfə deyil, ən azı bir hecaya" bərabər olsun.

3. Səs və ya heca buraxma, sözlərin sonunu "udmaq"**.** Oxu zamanı sözün müəyyən hissəsinin buraxılması sözün quruluşunun tam izlənilməməsi, səs ardıcıllığının mənimsənilməməsi və ya oxu prosesində diqqətin yayınması ilə əlaqəli ola bilər. Bu zaman şagird sözü natamam oxuyur və ya onun tərkibindəki hecalardan birini nəzərə almır. Belə səhvlərin aradan qaldırılması üçün sözün səs və heca tərkibinin təhlili, hecadakı hərflərin ardıcıllığının izlənilməsi və oxunan sözün nümunə ilə müqayisəsi üzrə çalışmalar tətbiq edilə bilər.

4. Hərf və ya səs əvəzetmələri. Şagird sözün tərkibindəki bir səsi və ya hərfi başqa səslə və ya hərflə əvəz edə bilər. Bu səhvlər səsi düzgün tələffüz edə bilməməkdən, səs fərqləndirmə bacarığının kifayət qədər inkişaf etməməsindən, hərf-səs uyğunluğunun mənimsənilməməsindən və sözün tərkibinə lazımınca diqqət yetirilməməsindən qaynaqlana bilər. Müəllim əvəzetmənin hansı sözlərdə, hansı səbəbdən və hansı şəraitdə baş verdiyini müşahidə etməli, yalnız səhv cavabı düzəltməklə kifayətlənməməli, müvafiq səs və hərf üzərində məqsədyönlü iş təşkil etməlidir. Səbəb səslərin düzgün tələffüz edilməməsidirsə və bu, nitq orqanlarının qeyri-mütəhərrikliyindən, hərəkətsizliyindən qaynaqlanırsa, artikulyasiya gimnastikasına yer verilməli, **s**əslərin düzgün tələffüzü üçün dil və dodaq hərəkətləri etdirilməlidir.

II. Oxu texnikası ilə bağlı qüsurlar:
1. Təxminə əsaslanan oxu. Bu halda şagird sözü bütövlükdə oxumaq əvəzinə ilk hərflərə və ya cümlənin ümumi məzmununa əsasən təxmin edərək oxuyur. Təxmin bəzən düzgün nəticə versə də, sözün dəqiq dekodlaşdırılması bacarığının inkişafına mane ola bilər. Problemin aradan qaldırılması üçün şagirdin diqqəti sözün bütün hərflərinə yönəldilməli, oxunan sözlə yazılı

nümunə tutuşdurulmalı və məna ilə yanaşı, hərf-səs uyğunluğunun da yoxlanılması tələb edilməlidir.

2. Təkrar oxu (reqressiya) və uzun fasilələr. Şagird gözü ilə növbəti sözə keçmək əvəzinə, qeyri-ixtiyari olaraq yenidən əvvəl oxuduğu sözə qayıdır. Bu, oxu sürətini kəskin azaldır. Şagird eyni heca və ya sözü bir neçə dəfə təkrarlaya, sözün ortasında dayanıb yenidən başlaya bilər. Oxunun ləng və fasiləli olması hərf-səs əlaqələrinin avtomatlaşmaması, sözün tanınmasına sərf olunan vaxt və ya mətnin çətinliyi ilə bağlı ola bilər. Bu vəziyyətdə, ilk növbədə, dəqiqlik, düzgün dekodlaşdırma və sözün mənasının anlaşılması təmin olunmalı, səlislik, sürət tədricən inkişaf etdirilməlidir. Reqressiyanın (geri qayıtmanın) qarşısını almaq üçün vizual izolyasiyadan istifadə etmək, yəni şagird oxuduqca altından xətkeş və ya içi kəsik karton vərəq tutmaq olar.

3. Oxuduğunu anlamaqda çətinlik (mexaniki (tutuquşu sayağı) oxu). Şagird sözləri texniki baxımdan düzgün oxusa da, cümlənin və ya mətnin mənasını izah edə bilməyə bilər. Bu çətinlik lüğət ehtiyatının məhdudluğu, cümlə əlaqələrinin anlaşılmaması, diqqətin yalnız hərfbirləşmələrini səsləndirməyə yönəlməsi və ya mətnin məzmun baxımından mürəkkəb olması ilə bağlı ola bilər. Belə hallarda hər oxunan sözdən və ya cümlədən sonra *"Burada nə deyilir?", "Söhbət kimdən gedir?"* kimi suallarla şüurlu oxu stimullaşdırılmalıdır.

Bəzən oxu qüsurları *psixofizioloji və loqopedik* səbəblərdən qaynaqlanır. Məsələn, bəzi şagirdlərdə dileksiya əlamətləri müşahidə edilir. Həmin şagirdlər neyrobioloji səbəblərdən yazılı dili qəbul etməkdə, hərfləri tanımaqda və səsləndirməkdə çətinlik çəkirlər. Nəticə etibarilə, oxu qüsurlarının təsnifatı müəllimə səhvlərin zahiri formasından onların mümkün

səbəblərinə keçmək imkanı verir. Bunun üçün şagirdin yalnız bir dəfə oxuması deyil, müxtəlif söz və mətnlərdə nümayiş etdirdiyi bacarıqlar müşahidə olunmalıdır.

Oxuda müşahidə edilən qüsurların aradan qaldırılması sistemli, ardıcıl və şagirdin fərdi ehtiyaclarına uyğun təşkil olunmalıdır. Müəllim hər bir səhvin səbəbini dəqiq müəyyənləşdirmədən eyni çalışmanı bütün şagirdlərə tətbiq etməməlidir.

Humanitar və İctimai Elmlər adlı Tezislər Toplusu / 22 Noyabr 2026 / 16-20
Collection of Theses on Humanitarian and Social Sciences / 22 November 2026 / 16-20
DOI: https://doi.org/10.36719/2706-6185/IV/HİETT/2026

Süni intellekt və Azərbaycan dili: generativ AI-nin dil norması və müasir kommunikasiya proseslərinə təsiri

Yeganə Qəhrəmanova

Açar sözlər: *süni intellekt, generativ AI, dil norması, rəqəmsal kommunikasiya, təbii dilin emalı*
Keywords: *artificial intelligence, generative AI, language norm, digital communication, natural language processing*

Son illərdə süni intellektin inkişafı yalnız texnologiya sahəsində deyil, dil və kommunikasiya sistemlərində də mühüm dəyişikliklər yaratmışdır. Generativ süni intellekt mətn yaratmaq, redaktə etmək, ümumiləşdirmək və müxtəlif üslublarda yazılı nitq formalaşdırmaq imkanına malikdir. Bu texnologiyaların geniş yayılması nəticəsində dil artıq yalnız insan və insan arasındakı kommunikasiya vasitəsi kimi deyil, *insan–maşın qarşılıqlı əlaqəsinin əsas komponentlərindən biri* kimi də nəzərdən keçirilir. UNESCO generativ AI-nin təhsil və tədqiqat sahələrində yaratdığı imkanlarla yanaşı, insanın agentliyinin, mədəni və linqvistik müxtəlifliyin qorunmasının vacibliyini xüsusi vurğulayır. Azərbaycan dili baxımından məsələ daha xüsusi əhəmiyyət daşıyır. Azərbaycan dili geniş istifadə dairəsinə malik olsa da, qlobal süni intellekt infrastrukturlarında ingilis dili kimi yüksək resurslu dillərlə müqayisədə daha məhdud rəqəmsal resurslara malikdir.

Azərbaycan Dövlət Pedaqoji Universiteti, Filologiya üzrə fəlsəfə doktoru, Bakı, Azərbaycan
E-poçt: yegane.qehremanova.1976@mail.ru

Son tədqiqatlarda Azərbaycan dili üçün geniş milli korpusların, annotasiya olunmuş verilənlər bazalarının, tezlik lüğətlərinin və ixtisaslaşmış dil modellərinin məhdudluğu əsas problemlərdən biri kimi göstərilir. Dil norması müəyyən bir dilin ədəbi və ictimai kommunikasiya baxımından qəbul edilmiş fonetik, leksik, qrammatik, orfoqrafik və üslubi qaydalar sistemidir. Generativ süni intellektin yaratdığı mətnlərin bu normalara uyğunluğu isə hazırda ayrıca tədqiqat istiqaməti kimi əhəmiyyət qazanır.

Azərbaycan dilində AI tərəfindən yaradılan mətnlər ümumilikdə məna baxımından anlaşıqlı və qrammatik cəhətdən düzgün ola bilər. Lakin bu, onların həmişə *ədəbi dil normasına tam uyğun olması* demək deyil. Xüsusilə termin seçimi, sözlərin üslubi çaları, frazeoloji birləşmələrin işlədilməsi, milli-mədəni kontekst və bəzi sintaktik konstruksiyalar baxımından müəyyən uyğunsuzluqlar yarana bilər. Bunun səbəblərindən biri Azərbaycan dili üzrə rəqəmsal məlumatların miqdarının və keyfiyyətinin digər böyük dillərlə müqayisədə məhdud olmasıdır.

Burada mühüm bir məqam ortaya çıxır: *AI-nin dil haqqında "bilməsi" ilə dilin normativ sistemini həqiqətən mənimsəməsi eyni anlayış deyil.* Model böyük həcmdə mətn nümunələrindən qanunauyğunluqlar öyrənir. Əgər həmin məlumat bazasında normadan kənar, köhnəlmiş, tərcümə xarakterli və ya üslub baxımından qeyri-münasib nümunələr çoxdursa, onların müəyyən xüsusiyyətləri yaradılan mətnlərdə də əks oluna bilər. Bu baxımdan generativ AI-nin Azərbaycan dili üçün istifadəsi yalnız texniki məsələ deyil, həm də *normativ dilçilik məsələsidir.* Dilçi üçün əsas suallardan biri "AI Azərbaycan dilində mətn yarada bilirmi?" yox, "AI tərəfindən yaradılan mətn hansı dil normasını əks etdirir?" sualı olmalıdır.

Azərbaycan dili üçün elektron korpusların, terminoloji bazaların, lüğətlərin, nitq məlumat bazalarının və annotasiya edilmiş mətn kolleksiyalarının yaradılması AI sistemlərinin keyfiyyətini yüksəldə bilər. Bu istiqamətdə Azərbaycan dili üzrə təbii dilin emalı sahəsində fəaliyyət göstərən tədqiqat qrupları müxtəlif dil modelləri, mətn korpusları və embedding sistemləri üzərində işləyirlər. Məsələn, Bakıda fəaliyyət göstərən aLLMA Lab Azərbaycan dili üçün təbii dilin emalı metodları, veb-miqyaslı mətn korpusları və dil modellərinin hazırlanmasını tədqiqat istiqamətlərindən biri kimi göstərir. Deməli, əsas məqsədlərdən biri *Azərbaycan dilinin texnoloji ekosistemdə özünəməxsus və keyfiyyətli şəkildə təmsil olunmasını təmin etməkdir.* Bunun üçün dilçiliklə kompüter elmlərinin əməkdaşlığı xüsusi əhəmiyyət daşıyır.

Generativ AI-nin kommunikasiya prosesinə müsbət təsirlərindən biri mətn yaratma və redaktə prosesini sürətləndirməsidir (Yin & Chapelle, 2025). İstifadəçi mürəkkəb fikri daha aydın formada ifadə etmək, müxtəlif üslublarda mətn hazırlamaq və yazılı nitqdə müəyyən qüsurları müəyyənləşdirmək üçün AI-dən yardımçı vasitə kimi istifadə edə bilər. Lakin burada dil *yaradıcılığı ilə dilin avtomatlaşdırılması* arasındakı sərhəd də diqqətdən kənarda qalmamalıdır. Əgər insan öz fikrini tamamilə hazır AI mətnləri ilə əvəz edirsə, kommunikasiya prosesində fərdi üslubun və müəllif mövqeyinin zəifləməsi mümkündür. Bu səbəbdən generativ AI-nin dil sahəsində əsas funksiyası insanın dil fəaliyyətini əvəz etməkdən çox, onu dəstəkləyən vasitə kimi nəzərdən keçirilməlidir (Jafarov, 2026).

Azərbaycan dili ilə bağlı əsas problemlərdən biri *rəqəmsal dil resurslarının yetərliliyi* məsələsidir. Azərbaycan dilinin aqqlütinativ quruluşu, zəngin şəkilçi sistemi və morfoloji

xüsusiyyətləri onun kompüter tərəfindən işlənməsini xüsusi yanaşma tələb edən istiqamətlərdən birinə çevirir. Bu baxımdan Azərbaycan dili üçün yalnız böyük həcmli mətn toplamaq kifayət etmir; həmin mətnlərin keyfiyyətli şəkildə təsnifləndirilməsi və linqvistik annotasiyası da vacibdir (Qəhrəmanova, 2026b; Qəhrəmanova, 2026b; Qəhrəmanova, 2026c). İkinci məsələ *dil norması üçün etibarlı rəqəmsal bazanın* yaradılmasıdır. Orfoqrafik lüğətlər, izahlı lüğətlər, terminoloji lüğətlər, milli korpuslar və müxtəlif üslublara aid nümunələr AI sistemlərinin Azərbaycan dilində daha keyfiyyətli nəticələr verməsinə kömək edə bilər (Aliashrafova et al., 2026).

Üçüncü məsələ isə *milli-mədəni kontekstin qorunmasıdır.* Dil yalnız söz və qrammatik qaydalar toplusu deyil. Atalar sözləri, frazeologizmlər, tarixi və mədəni anlayışlar, üslubi çalarlar və milli düşüncə tərzi dilin semantik sisteminin mühüm hissəsidir. UNESCO da generativ AI ilə bağlı yanaşmada linqvistik və mədəni müxtəlifliyin qorunmasını mühüm prinsiplərdən biri kimi qeyd edir (UNESCO, 2023). Bu baxımdan gələcək tədqiqatların əsas istiqamətlərindən biri *AI tərəfindən yaradılan Azərbaycandilli mətnlərin milli ədəbi dil normaları ilə sistemli şəkildə müqayisəsi* ola bilər. Bunun üçün leksik, morfoloji, sintaktik, semantik və üslubi meyarlar əsasında xüsusi qiymətləndirmə modeli hazırlamaq mümkündür. Bu yanaşma həm Azərbaycan dilçiliyinin müasir texnologiyalarla əlaqəsini gücləndirər, həm də Azərbaycan dilinin süni intellekt sistemlərində daha dəqiq və adekvat təmsil olunmasına xidmət edər.

Beləliklə, süni intellekt Azərbaycan dilinin qarşısında yalnız "texnoloji çağırış" kimi deyil, *dilin rəqəmsal gələcəyini formalaşdırmaq üçün yeni elmi imkan* kimi də qiymətləndirilə bilər. Əsas məsələ texnologiyanın Azərbaycan dilinə

uyğunlaşdırılması ilə yanaşı, Azərbaycan dilinin özünün də yeni texnoloji mühitə fəal şəkildə daxil edilməsidir.

Ədəbiyyat

Aliashrafova, R., Abdurahmanov, N., Aghammadova, G., & Atayeva, V. (2026). Problems of artificial intelligence for the Azerbaijani language: The impact of limited language corpus. *International Journal of Innovative Science and Research Technology, 11*(7).

Jafarov, Y. M. (2026). The Azerbaijani language in artificial intelligence: Challenges, opportunities and strategic implications. *International Journal of Social Science Humanity & Management Research, 5*(7), 1849–1855.https://doi.org/10.5281/zenodo.21188986

Qəhrəmanova, Y. (2026a). Rəqəmsallaşmanın dilə təsiri: Süni intellektin dildə semantik bütövlüyü və sintaktik adekvatlığı "qavrama" səviyyəsi. *Qədim diyar, 8*(7), 114–120. https://doi.org/10.36719/2706-6185/62/114-120

Qəhrəmanova, Y. (2026b). Rəqəmsallaşma şəraitində azresurslu dillərin böyük dil modelləri üçün sintaktik və semantik korpusunun qurulması prinsipləri. *Elmi Tədqiqat*, *6*(8), 21–28. https://doi.org/10.36719/2789-6919/62/21-28

Qəhrəmanova. Y. (2026c). Siyasi diskursda kontseptual metaforlar: rəqəmsal media nitqində təfəkkürün və ictimai rəyin formalaşdırılması mexanizmləri. *Qədim diyar, 8*(6), 143-149. https://doi.org/10.36719/2706-6185/61/143-149

UNESCO. (2023). *Guidance for generative AI in education and research*. UNESCO.

Yin, S., & Chapelle, C. A. (2025). A systematic examination of generative artificial intelligence (GenAI) use guidelines in applied linguistics journals. *Research Methods in Applied Linguistics, 4*(3), 100227.

Humanitar və İctimai Elmlər adlı Tezislər Toplusu / 22 Noyabr 2026 / 21-24
Collection of Theses on Humanitarian and Social Sciences / 22 November 2026 / 21-24
DOI: https://doi.org/10.36719/2706-6185/IV/HİETT/2026

İngilis dilinin tədrisində əyanilik prinsipinin pedaqoji əhəmiyyəti

Günel Allahverdiyeva

Açar sözlər: *əyanilik, təlimdə əyanilik, əyanilik prinsipi, ingilis dili dərsləri, əyaniliyin tətbiqi*
Keywords: *visual aids, use of visual aids in instruction, principle of visual aids, English language lessons, application of visual aids*

Müəllimlər təlim prosesinin səmərəliliyinin yüksəldilməsi, şagirdlərin (tələbələrin) tədris materialını lazımi səviyyədə mənimsəmələri üçün bir sıra prinsiplərdən faydalanırlar. Diqqət yetirək: təlimin əməklə, həyatla əlaqələndirilməsi prinsipi, təlimin elmilik prinsipi, təlimin sistematiklik prinsipi, təlimin şüurluluq və fəallıq prinsipi, təlimin tərbiyəedici və inkişafetdirici prinsipi, təlimin əyanilik prinsipi, müvafiqlik prinsipi və s. Bunların arasında əyanilik prinsipi özünəməxsus rol oynayır. Əyanilik prinsipinin qədim tarixi vardır. XVII əsrdə çex pedaqoqu Komenski əyaniliyin əhəmiyyətinə diqqəti yönəldərək, əyaniliyi təlimin səmərəliliyində başlıca məsələ kimi dəyərləndirirdi. "Əyanilik" anlayışı "düşünmək" anlayışı ilə sıx surətdə bağlıdır. Xarici dili, o cümlədən ingilis dilini mənimsəyərkən qarşıda mühüm vəzifə dayanır – obyektiv dünyanı ikinci dil formalarında əks etdirmək üçün bir sistem yaratmaq.

Azərbaycan Dövlət Pedaqoji Universiteti, Filologiya üzrə fəlsəfə doktoru, Bakı, Azərbaycan
E-poçt: babayeva2009@hotmail.com

İngilis dilinin öyrənilməsi zamanı əyanilik heç də yalnız mühüm vasitə sayılmır, eyni zamanda nitqin situasiya şərtiliyini mənimsəmək vasitəsi kimi özünü göstərir. Əyaniliyin vasitəsi ilə şifahi ünsiyyətin tətbiq olunduğu təhsil vəziyyətləri yaradılır, nəticədə obyektiv reallığa və həyat vəziyyətlərinə nitq reaksiyası mənimsənilir.

İngilis dilinin tədrisində əyaniliyə yer verilməsi situasiyalı əyanilik şəklində təzahür edir. Dillərin tədrisi zamanı əyanilik hissi qavrayışdan ötrü imkan və şərait yaradır. Əyanilik öyrənmənin səmərəliliyini artırır, şagirdin dilə daha həvəslə və böyük maraqla yiyələnməsinə kömək göstərir.

Əyanilik prinsipi məktəblilərin zehni fəaliyyətini səfərbər etməyə, dil dərslərinə marağın meydana gəlməsinə, tədris materialının həcminin genişləndirilməsinə, şagirdlərin yorğunluğunun azaldılmasına, yaradıcı təxəyyülünün məşq etdirilməsinə, iradənin səfərbər olunmasına və öyrənmənin asanlaşdırılmasına öz töhfəsini verir.

Yeni pedaqoji təfəkkür şəraitində ümumtəhsil məktəblərində ingilis dilinin tədrisinin əsas məqsədi öyrənilən xarici dildə mədəniyyətlərarası ünsiyyətdə iştirak etməyə qadir, yazılı və şifahi nitqə malik şagird şəxsiyyətinin inkişaf etdirilməsidir. Məktəblilər üçün səciyyəvi sayılan vizualobrazlı təfəkkür onların inkişafından ötrü vacibdir. Təlimin səmərəliliyi şagirdin hiss orqanlarının qavramada fəal iştirakının dərəcəsindən xeyli dərəcədə asılıdır. Daha yaxşı yadda qalan nəzəriyyə əyani vəsaitlərin köməyi ilə təqdim edilir. Əyanilik müsbət motivasiyanın formalaşdırılmasının təsirli vasitələrindən sayılır. Fəqət əyanilik təkcə bu və ya digər mövzunun sadə nümayişi kimi qəbul edilməməlidir. İngilis dilinin tədrisində vizuallaşdırmanın ayrı-ayrı növləri iki əsasa malikdir:

I. Linqvistik əyanilik.
II. Qeyri-linqvistik əyanilik.

Linqvistik əyaniliyə aiddir:
1. Kommunikativ-nitq görmə qabiliyyəti, nitqdə dil hadisəsinin kommunikativ-semantik funksiyasının əyani nümayişi.
2. Dil hadisələrinin təcrid olunmuş formada (fonemlər, morfemlər, sözlər, cümlələr və s.) şifahi və ya yazılı formada nümayişi.
3. Linqvistik və qrammatik, diaqrammatik əyanilik (diaqramlar, cədvəllər və s.)

Qeyri-linqvistik əyaniliyə gəldikdə, vizuallaşdırma ətrafdakı reallığın ekstralinqvistik amillərini təqdim etməyin bütün yollarını əhatə edir. Buraya daxildir: təbii, vizual vizuallaşdırma (şəkillər, lentlər, filmlər).

Vizual tədris metodlarından faydalanarkən bəzi şərtlər gözlənilməlidir: 1) əyanilik şagirdlərin yaşına uyğun gəlməlidir; 2) əşya və obyektlər nümayiş etdirilərkən izahatlar aydın olmalıdır; 3) müşahidə elə təşkil olunmalıdır ki, məktəblilər nümayiş etdirilən obyekti aydın görə bilsinlər; 4) əyanilik tədris materialının məzmununa tam uyğun gəlməlidir; 5) əyaniliyə dərsin yalnız uyğun anında müraciət edilməlidir; 6) lazımi məlumatı əyani vəsaitdə və ya nümayiş cihazında tapmağa şagirdlərin özləri cəlb olunmalıdır və s. Bəzən eyni məsələlərlə tanışlıq zamanı müxtəlif növ əyani vəsaitlərdən faydalanmaq lazım gəlir. Digər fənlərin tədrisində olduğu kimi, ingilis dili dərslərində də yerli-yersiz əyaniliyə müraciət etmək yolverilməzdir. Əyani vəsaitlərdən məqsədyönlü istifadə etmək çox vacibdir, çünki bütün bunlar şagirdlərin diqqətini

cəmləşdirməyi və onların ən vacib məsələlər üzərində düşünməyini çətinləşdirir.

Tədrisdə əyanilik ona görə əhəmiyyətlidir ki, ətraf aləmin cisim və proseslərinin qavranılması nəticəsində şagirdlərdə obyektiv reallığı düzgün əks etdirən ideyalar formalaşır, həmçinin mənimsənilən hadisələr təhsil vəzifələri ilə bağlı olaraq təhlil edilir və ümumiləşdirilir. Əyani vəsaitlərdən faydalanmaq şagirdlər arasında yalnız obrazlı təsvirlər yaratmaq üçün deyil, həm də anlayışlar formalaşdırmaq, mücərrəd əlaqə və asılılıqları anlamaq üçün gərəkdir. Əyani vəsaitlərdən istifadə hökmən müəllimin sözü ilə həmahəng olmalıdır. Sözlərin və əyani vasitələrin birləşmə formalarını, onların variantlarını və müqayisəli səmərəliliyini başa düşmək müəllimə didaktik tapşırığa, proqram materialının xüsusiyyətlərinə və konkret təlim şəraitinə uyğun olaraq əyani vasitələrdən yaradıcı şəkildə faydalanmağa öz köməyini göstərir. Əyanilik şagirdləri fəallaşdırır, onların şüurluluğunu artırır. Pedaqoji ədəbiyyatda əyanilik prinsipinin səmərəli tətbiqini stimullaşdıran bir sıra qaydalar göstərilir.

Gəldiyimiz nəticə bundan ibarətdir ki, əyanilik, doğrudan da, ingilis dilinin öyrədilməsi, həmçinin kommunikativ nitqin formalaşmasından ötrü son dərəcə vacibdir.

Humanitar və İctimai Elmlər adlı Tezislər Toplusu / 22 Noyabr 2026 / 25-29
Collection of Theses on Humanitarian and Social Sciences / 22 November 2026 / 25-29
DOI: https://doi.org/10.36719/2706-6185/IV/HİETT/2026

Forming Motivation Towards Physical Education Classes Among Primary School-aged Children

Elnara Mamedova[1], Mehdi Rizazada[2*]

Keywords: *physical education, motivation, physical activity, game-based technologies, pedagogical approach*
Açar sözlər: *fiziki tərbiyə, motivasiya, fiziki fəaliyyət, oyun əsaslı texnologiyalar, pedaqoji yanaşma*

Physical education is an important pedagogical process that ensures the comprehensive development of children and contributes to the improvement of their health, the development of motor abilities, the formation of volitional qualities, and the enrichment of their social relationships. In the modern education system, the significance of physical education is not limited solely to improving children's levels of physical fitness. This process is also of considerable importance in establishing the foundations of a healthy lifestyle, developing self-confidence, facilitating adaptation to collective activities, and promoting the socialisation of the individual. In particular, primary school age is considered a sensitive developmental stage in the formation of a child's personality, the development of behavioural habits, and the establishment of attitudes towards various fields of activity.

[1]Azerbaijan Sports Academy, PhD in Pedagogy, Baku, Azerbaijan
[2]Azerbaijan Sports Academy, Master's student, Baku, Azerbaijan
[*]Corresponding author. E-mail: mehdi.rizazada2025@sport.edu.az

In pedagogical and psychological literature, motivation is generally defined as the combination of internal and external factors that encourage an individual to engage in a particular activity, determine the direction of their behaviour, and ensure the continuity of that activity. In the context of physical education, motivation encompasses a child's willingness to participate in motor activities, efforts to complete assigned tasks, desire to develop personal abilities, and attitudes towards the results achieved. From this perspective, motivation is not merely the desire to participate in a lesson; rather, it also involves the process through which physical activity is understood, accepted, and transformed into a matter of personal interest by the child (Məmmədzadə, 2026).

One of the principal factors influencing the development of motivation among primary school-aged children is their age-related characteristics. Since the attention span, emotional responses, volitional persistence, and motor coordination of children aged 6–9 are still developing, engaging them in the same type of activity for extended periods may present certain difficulties. For this reason, it is advisable to alternate movements, vary the forms of activity, incorporate game-based elements, and gradually increase the level of complexity of tasks during physical education classes. Tasks that are excessively difficult or inconsistent with children's psychological characteristics may undermine their self-confidence, create a fear of failure, and weaken their interest in physical activity. Accordingly, learning tasks should be selected in accordance with children's existing levels of preparedness while taking their developmental potential into consideration.

While extrinsic factors—such as praise, rewards, and peer support—help engage children in the short term, the

development of intrinsic motivation driven by personal enjoyment and progress is crucial for building sustainable, long-term habits of physical activity.

In this regard, the pedagogical stimulation techniques employed by teachers are of particular importance. Recognising even minor achievements, acknowledging children's efforts, and providing positive support for their individual development contribute to strengthening motivation. In this process, attention should be directed not only towards the final outcome but also towards the effort made to achieve it (UNESCO, 2015, p. 48). For example, acknowledging a child's ability to perform a particular movement more accurately than in previous lessons can enhance their self-confidence. At the same time, evaluating children's individual progress, rather than comparing the performance of pupils with different physical abilities, represents a more appropriate pedagogical approach. Such an attitude helps prevent artificial competition and psychological tension among children.

The application of the game-based method is one of the most effective means of enhancing motivation among children aged 6–9. Beyond serving as a natural activity that fosters cognitive, emotional, and physical development, play transforms physical exercises into engaging experiences through relay races and active games. Furthermore, games are highly adaptable to diverse pedagogical objectives—such as developing agility, coordination, and cooperation—provided that teachers adapt rules, task difficulties, and assessment criteria to ensure inclusive participation for all pupils, preventing the exclusion of less physically capable children.

Another important factor influencing the development of motivation in physical education classes is the nature of teacher–student relationships. The teacher's communication style, attention to children, methods of explaining tasks, and individual approach determine the psychological atmosphere of the lesson. Respecting children's opinions, responding patiently to their questions, and presenting their mistakes not in a humiliating manner but as opportunities for improvement contribute to establishing positive relationships. In physical education classes, teachers should not limit themselves to supervisory and instructional responsibilities; they should also encourage children, support their initiatives, and expand opportunities for independent activity.

In this regard, the application of an individualised pedagogical approach is essential. Even children studying in the same class may differ in their levels of physical development, motor experience, interests, self-confidence, and willingness to participate in activities. Some children may actively engage in team games, whereas others may prefer individual tasks. Certain pupils acquire new movements quickly, while others require more time and repetition to achieve the same results. Taking these differences into account, teachers should develop alternative tasks and create activity-based conditions that correspond to children's individual abilities. Such an approach not only ensures the accessibility of physical education classes for all pupils but also creates favourable conditions for their voluntary and active participation in the learning process (World Health Organization, 2020).

Although supplementary digital tools—such as instructional videos and activity diaries—can enhance children's interest, they should serve exclusively as supportive resources that

complement, rather than replace, actual physical movement while properly limiting screen time.

The development of motivation towards physical education is not limited to pedagogical activities carried out within the school environment. The family environment also plays an important role in shaping children's attitudes towards physical activity. Parents' attitudes towards sports and an active lifestyle, as well as their participation in walks, outdoor games, and other physical activities with their children, provide a positive behavioural example. When physical activity is accepted as a natural component of everyday life within the family, children find it easier to adopt these behavioural patterns. Conversely, in environments where insufficient attention is paid to physical activity and leisure time is spent predominantly on sedentary activities, the development of children's interest in physical movement may be accompanied by certain difficulties.

References

Məmmədzadə, M. (2026). Ali hərbi təhsilin təkmilləşdirilməsi üzrə konseptual yanaşmaların elmi-nəzəri əsaslandırılması. *Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə*, 1(93), 177–192. https://www.dia.edu.az/storage/files/pages/2f/2f252a9ae8fe4502_1-93-2026-yekun_layout_1_7_compressed.pdf

UNESCO. (2015). *Quality physical education (QPE): Guidelines for policy-makers*. UNESCO Publishing. https://unesdoc.unesco.org/ark:/48223/pf0000231101

World Health Organization. (2020). *WHO guidelines on physical activity and sedentary behaviour*. World Health Organization. https://www.who.int/publications/i/item/9789240015128

Humanitar və İctimai Elmlər adlı Tezislər Toplusu / 22 Noyabr 2026 / 30-33
Collection of Theses on Humanitarian and Social Sciences / 22 November 2026 / 30-33
DOI: https://doi.org/10.36719/2706-6185/IV/HİETT/2026

İnklüziv təhsildə təlimin təşkili formaları və metodları

Nazilə Rəsulova

Açar sözlər: *inklüziv təhsil, sağlamlıq imkanları məhdud (SİM), təlim metodları, inklüziv sinif, diskriminasiya*
Keywords*: inclusive education, limited health opportunities (LHO), training methods, inclusive class, discrimination*

Ümumi təhsilin hamı üçün əlçatan olması və bütün uşaqların müxtəlif ehtiyaclarına uyğunlaşdırılmasından ibarət inkişaf prosesi dedikdə inklüziv təhsil başa düşülür. İnklüziv təhsilin əsas məqsədləri sırasında, həmçinin sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlb olunması da yer alır.

İnklüziv təhsilə dair beynəlxalq təcrübəyə əsasən, bir sinifdə təhsil alan xüsusi qayğıya möhtac şagirdlərin sayı 5-10% təşkil etməlidir. Məktəbəqədər, orta, peşə və ali təhsil mərhələlərini özündə cəmləyən inklüziv təhsil sağlamlıq imkanları məhdud (SİM) şəxslərin davamlı təhsilinin və inkişafının təmin olunmasına xidmət göstərir (Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının Azərbaycan nümayəndəliyi, 2013).

Müəllimin xüsusi bacarıqlara malik olması, valideynlərlə birgə əməkdaşlıq etməsi və məsləhətləşməsi inklüziv sinfin təşkilinin vacib faktorlarından biridir.

Bakı, Azərbaycan
E-poçt: nazilarasulforphd@gmail.com

Şagirdlər üçün sinifdə emosional və təhlükəsiz mühitin yaradılması, şagirdlərin dərs prosesinə cəlb olunması məqsədi ilə müxtəlif metodlardan istifadə edilməsi, qarşılıqlı hörmət və anlaşmanın təmin edilməsi, idman dəqiqələri, SİM olan şagirdlərin dərs prosesinə hazırlanması inklüziv sinfin təşkili zamanı müəllimin əsas vəzifələrini təşkil edir (Azərbaycan Respublikası Təhsil Nazirliyi, 2011).

İnklüziv sinifdə dərsin təşkili zamanı təlimin 3 əsas məqsədi nəzərə alınmalıdır:

- şagirdlərə biliklərin mənimsədilməsi, vərdiş və bacarıqların formalaşdırılması üçün öyrədici məqsəd;
- davranış modeli və ünsiyyət bacarıqlarının formalaşdırılması üçün tərbiyəedici məqsəd;
- SİM şagirdlərin xüsusi pedaqoji-psixoloji metodlar vasitəsilə nailiyyətlərə yönəldilməsi üçün inkişafetdirici məqsəd (Təhsil İşçilərinin Peşəkar İnkişafı İnstitutu, 2018).

Yeni materialın mərhələli izahı, şagird tərəfindən tapşırıq təlimatının təkrarlanması, təlimin audio-vizual təminatı, təlim nailiyyətinin qiymətləndirilməsi üçün xüsusi vasitələr inklüziv sinifdə dərsin gedişatını təşkil edir.

İnklüziv təlim prosesində bir sıra metod və üsullardan da istifadə olunur ki, bunlara, ilk növbədə, vizual və praktik metodlar, şifahi metodlar və layihə metodu aiddir.

İnklüziv sinifdə dərsin ilkin mərhələsində istifadə edilən vizual metodların tətbiqi zamanı şagirdlər sinifdə, ilk öncə, məktəb lövhəsini görürlər. Məktəb lövhəsi səmərəli istifadə olunmalı və vizual dayağı təmin etməlidir. İnformasiyanın detallı təsviri düzgün verilməklə, tapşırıq, şəkil, sxem, cədvəl, predmet və təcrübələrin nümayişləri lövhədə təqdim edilir. Bu cür təqdimat

materialın möhkəm mənimsənilməsinə şərait yaradır (Təhsil İşçilərinin Peşəkar İnkişafı İnstitutu, 2018).

Öyrənmə prosesində şagirdlərdə planlaşdırılmış elementlərin öyrənilməsinə, bilik və bacarıqların formalaşmasına yardımçı funksiyanı məhz praktik metodlar həyata keçirir. Praktik metodun yazılı və şifahi tapşırıq, sxem, rəsmçəkmə, applikasiya, qurma kimi bir neçə vasitəsi mövcuddur.

Şifahi metodların tətbiqi idrak fəaliyyətinin aktivləşdirilməsinə, düşüncənin formalaşdırılmasına və yaranmış çətinliyə tez bir zamanda reaksiya verilməsinə şərait yaradır. Şifahi metod şeir, nağıl, hekayə kimi nağıletmə vasitəsi və tamaşaların göstərilməsi vasitəsini özündə ehtiva edir.

Öyrənmə prosesinin ayrılmaz bir hissəsi olan layihə metodu interaktiv metodlardan biridir. Layihə metodunun tətbiqi təcrübəsi göstərir ki, birlikdə öyrənmək həm asan və maraqlı, həm də daha səmərəlidir.

İnklüziv təhsil dedikdə, ilk növbədə, müəyyən səbəblərdən fiziki və əqli inkişafında çətinlikləri olan şəxslər daxil olmaqla, bütün vətəndaşların ictimai həyatda aktiv iştiraka qatılması nəzərdə tutulur. Günümüzdə, inklüziv təhsil yalnız toplum üçün təhsil sisteminin möhkəmləndirilməsi prosesi kimi deyil, eyni zamanda sağlamlıq imkanları məhdud şəxslərin diskriminasiyasına yol verilməməsinin effektiv vasitəsi kimi qəbul edilir.

Ədəbiyyat

Azərbaycan Respublikası Təhsil Nazirliyi. (2011). *İnklüziv təhsil: Təcrübə və qarşıda duran vəzifələr: V elmi-praktiki konfransın məqalələr toplusu*. Şərq-Qərb.

Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının Azərbaycan nümayəndəliyi. (2013). *İnsan inkişafı*. BMTİP. https://www.az.undp.org

Təhsil İşçilərinin Peşəkar İnkişafı İnstitutu. (2018). *İnklüziv siniflərdə təlimin təşkili: Oxu materialı*. TİPİİ. https://www.tipii.edu.az

Humanitar və İctimai Elmlər adlı Tezislər Toplusu / 22 Noyabr 2026 / 34-37
Collection of Theses on Humanitarian and Social Sciences / 22 November 2026 / 34-37
DOI: https://doi.org/10.36719/2706-6185/IV/HİETT/2026

Qiymətləndirmə prosesinin planlaşdırılması meyarları

Nabat Əhmədova

Açar sözlər: *qiymətləndirmə prosesi, planlaşdırma, qiymətləndirmə meyarları, obyektivlik, etibarlılıq, şəffaflıq, ədalətlilik, nəticələrin təhlili, keyfiyyətin yüksəldilməsi*
Keywords: *evaluation process,planning, evaluation criteria, objectivity, reliability, transparency, fairness, analysis of results, quality improvement*

Qiymətləndirmə prosesi təhsil, idarəetmə və digər fəaliyyət sahələrində əldə olunan nəticələrin müəyyən edilmiş məqsəd və meyarlar əsasında ölçülməsi və təhlil edilməsidir. Qiymətləndirmə prosesinin düzgün planlaşdırılması onun obyektiv, şəffaf və səmərəli həyata keçirilməsində mühüm rol oynayır. Bu proses zamanı qiymətləndirmənin məqsədi, istifadə ediləcək üsullar, meyarlar, vaxt bölgüsü və nəticələrin təhlili əvvəlcədən müəyyənləşdirilir. Əsas qiymətləndirmə meyarlarına obyektivlik, etibarlılıq, şəffaflıq, uyğunluq, dəqiqlik və ədalətlilik daxildir. Bu meyarların nəzərə alınması qiymətləndirmə nəticələrinin düzgün şərh edilməsinə, mövcud çatışmazlıqların aşkar olunmasına və gələcək fəaliyyətin təkmilləşdirilməsinə imkan yaradır.

Azərbaycan Dövlət Pedaqoji Universiteti, Dissertant, Bakı, Azərbaycan
E-poçt: nabatahmedova1985@gmail.com

Beləliklə, qiymətləndirmə prosesinin məqsədyönlü planlaşdırılması keyfiyyətin yüksəldilməsinə və daha səmərəli qərarların qəbul edilməsinə şərait yaradır.

Müasir dövrdə müxtəlif fəaliyyət sahələrində əldə olunan nəticələrin müəyyən edilməsi və onların keyfiyyətinin qiymətləndirilməsi mühüm əhəmiyyət kəsb edir. Qiymətləndirmə prosesi qarşıya qoyulmuş məqsədlərə nə dərəcədə nail olunduğunu müəyyənləşdirməyə, fəaliyyətin güclü və zəif tərəflərini aşkar etməyə, həmçinin gələcək inkişaf istiqamətlərini müəyyən etməyə imkan verir. Bu baxımdan qiymətləndirmənin düzgün təşkili və planlaşdırılması xüsusi əhəmiyyət daşıyır.

Qiymətləndirmə prosesinin planlaşdırılması qiymətləndirmənin məqsədinin, vəzifələrinin, meyarlarının, üsullarının və mərhələlərinin əvvəlcədən müəyyən edilməsini əhatə edir. Planlaşdırma zamanı qiymətləndiriləcək fəaliyyətin xüsusiyyətləri, əldə olunması gözlənilən nəticələr və mövcud imkanlar nəzərə alınmalıdır. Düzgün hazırlanmış plan qiymətləndirmənin sistemli şəkildə həyata keçirilməsinə və nəticələrin daha dəqiq əldə olunmasına şərait yaradır.

Qeyd etdik ki, qiymətləndirmə öncədən müəyyənləşdirilmiş meyar əsasında aparılır. Bəs qiymətləndirmə meyarı nədir? Bu suala cavab vermək üçün sadə bir nümunəyə nəzər salaq. Azərbaycan dili dərsində müəllim şagirdlərin obrazları səciyyələndirmək bacarıqlarını inkişaf etdirmək istəyir. Həmin dərs üçün müəyyən edilmiş təlim nəticəsinə və meyarlara nəzər salaq.

Şagirdlərin obrazları səciyyələndirmək bacarıqları

Nəzərdə tutulan təlim nəticəsi:	Şagirdlər obrazı səciyyələndirir.
Qiymətləndirmə meyarı:	1. Xüsusiyyətin müəyyənləşdirilməsi (məs: qəddar, tədbirli, mənfəətpərəst və s.) 2. Əsaslandırma (məs: obrazın nitqinə, yaxud gördüyü işlərə, mətndəki məlumatlara istinad)
Tapşırıq:	Oxuduğunuz mətndən bir obraz seçin. Həmin obrazın xarakteri haqqında düşünün. Onun 2 xüsusiyyətini müəyyənləşdirin. Fikrinizin doğruluğunu əsaslandırın

Verilən nümunədən aydın olur ki, qiymətləndirmə meyarı şagirdin nəyi necə icra etməsini göstərir. Hazır məhsulun hansı tələblərə cavab verəcəyini öncədən müəyyən edir. Bu da şagirdə öyrənmə fəaliyyəti zamanı hədəfini düzgün müəyyənləşdirməyə və həmin hədəfə çatmağa kömək edir. Beləliklə, qiymətləndirmə meyarı təlim nəticəsinin necəliyini təsvir edir. Başqa sözlə, qiymətləndirmə meyarı təlim nəticəsinin (yəni məqsədin) ölçü etalonudur. Qiymətləndirmə meyarları yalnız hesabat aləti deyil, strateji kompasdır; təşkilat bütün resursları ilə hansı istiqamətə irəlilədiyini bu kompasdan oxuyur. Qiymətləndirmə meyarı bütöv sistemin niyə, nəyi və necə ölçdüyünü izah edən semafor rolunu oynayır. Qiymətləndirmə meyarları yalnız hesabat aləti deyil, strateji kompasdır; təşkilat bütün resursları ilə hansı istiqamətə irəlilədiyini bu kompasdan oxuyur. Qiymətləndirmə meyarı bütöv sistemin niyə, nəyi və necə ölçdüyünü izah edən semafor rolunu oynayır.

Məktəbdaxili qiymətləndirmənin təşkili zamanı istifadə olunan üsul və vasitələrdən biri də rubriklərdir. Rubrik qiymətləndirmə aləti bir fəaliyyətin müxtəlif səviyyələrdə necə yerinə yetirildiyini təfsilatlı cədvəllə təsvir edir. Ən azı üç sütun olur: meyar, səviyyə başlıqları (məsələn, Əla, Yaxşı, Qənaətbəxş, Zəif) və hər səviyyə üçün deskriptor. Rubrikin üstünlüyü qiymətləndirənin subyektivliyini minimuma salmasıdır; çünki nəyi necə axtarmalı olduğu əvvəlcədən yazılıb. Məsələn, təqdimat bacarığının "Vizual materialdan istifadə" meyarı üçün "Əla" səviyyəsində "slaydlar minimal mətn, yüksək kontrastlı qrafika ilə mesajı dəstəkləyir", "Zəif" səviyyəsində "slaydlarda çoxlu oxunmaz mətn və nizamsız şəkillər var" kimi deskriptorlar verilir. Beləliklə, eyni rubrikadan istifadə edən beş münsif nəticədə yüksək korelyasiya ilə eyni bal intervalına gəlir. Rubrik qiymətləndirmə cədvəli şagird nailiyyətini, fəaliyyətini və bacarığını meyarlara əsaslanaraq ölçmədə istifadə olunur.

Qiymətləndirmə prosesinin əsasını təşkil edən meyarlar isə nəticələrin hansı göstəricilər əsasında ölçüləcəyini müəyyən edir. Obyektivlik, etibarlılıq, şəffaflıq, uyğunluq və ədalətlilik kimi prinsiplər qiymətləndirmənin keyfiyyətini təmin edən mühüm meyarlardır. Bu meyarların müəyyənləşdirilməsi qiymətləndirmə zamanı subyektiv yanaşmaların azalmasına, nəticələrin müqayisə edilməsinə və əsaslandırılmış qərarların qəbuluna kömək edir. Beləliklə, qiymətləndirmə prosesinin planlaşdırılması meyarlarının öyrənilməsi qiymətləndirmənin mahiyyətini daha dərindən anlamaq, onun səmərəliliyini artırmaq və əldə edilən nəticələrin keyfiyyətini yüksəltmək baxımından aktualdır. Bu mövzunun araşdırılması qiymətləndirmənin əsas prinsiplərinin, planlaşdırma mərhələlərinin və meyarlarının tətbiqi xüsusiyyətlərinin müəyyən edilməsinə xidmət edir.

Humanitar və İctimai Elmlər adlı Tezislər Toplusu / 22 Noyabr 2026 / 38-42
Collection of Theses on Humanitarian and Social Sciences / 22 November 2026 / 38-42
DOI: https://doi.org/10.36719/2706-6185/IV/HİETT/2026

Azərbaycan natiqlik sənəti

Zərifə Zeynalova

Açar sözlər: *natiqlik sənəti, nitq, dil, natiqlik məktəbi, mədəniyyət, bəlağətli*
Keyword: *art of oratory, speech, language, school of oratory, culture, eloquence*

Natiqlik sənəti bəşər mədəniyyətinin ən fundamental sahələrindən biri hesab olunur. Qədim tarixə malik olan natiqlik sənəti Qədim Yunanıstan və Romada formalaşmış və inkişaf etmişdir. Onun təkmilləşməsi və elmi bir sistem halına gəlməsi bilavasitə antik dövrün – Qədim Yunanıstan və Romanın adı ilə bağlıdır. Natiqlik məharətinin nəzəri əsaslarını tədqiq edən sahə ritorika adlanır. Etimoloji cəhətdən yunan mənşəli olan bu termin bədii söz gücünə malik, səlis danışıq bacarığını ifadə edir.

Natiqlik məharətinin inkişaf edib formalaşmasında Yunanıstan sofistlərinin böyük əməyi olmuşdur. Yunan sofistləri sözün qüdrətinə yüksək qiymət verir, sözün sonsuz imkanlara malik olduğunu və istənilən üstünlüyü aşmağa qadir olduğunu, natiqlik sənətinin təməlində sözün həlledici gücünün olduğunu müdafiə edirdilər. Antik Yunanıstan natiqlik məktəbinin zirvəsində Sokrat, Platon, Aristotel və Demosfen kimi dahi mütəfəkkirlər dayanır. Onlar bu sahənin həm nəzəriyyəçiləri, həm də ustad müəllimləri kimi tanınır.

Bakı Slavyan Universiteti, Bakı, Azərbaycan
E-poçt: zerifeilgar@mail.ru

Onların fəaliyyəti nəticəsində natiqlik sənəti bir elm, sistem halına gəlmiş, tədris edilmiş, canlı ünsiyyətdə geniş tətbiq olunmuşdur. Roma natiqlik sənətinin nümayəndələri Katon, Mark Avreli, Siseron, M. F. Kvintilian kimi dünya şöhrətli, görkəmli natiqlərin adlarını çəkmək olar. Bu natiqlərin içərisində M. F. Kvintilianı xüsusi vurğulamaq lazımdır. Kvintilian Roma ritorika elminin banisi və ən nüfuzlu nəzəriyyəçisi kimi qəbul edilir. O, natiqliyin həm də praktik prinsiplərini sistemli şəkildə hazırlamışdır. "Kvintilianın fikrincə, yaxşı natiq olmaq üçün tək dilə hakim olmaq kifayət deyil, həm də yüksək əxlaqi keyfiyyətlərə malik olmaq mütləqdir".

Natiqliyin mükəmməlliyinə səy göstərərkən bunu da demək lazımdır ki, Siseron natiqin xarici görkəmi haqqında öz tövsiyyələrini verərək deyirdi: natiqin xarici görkəmi dinləyicilər üçün xoş olmalıdır. Natiq öz baxışlarını idarə etməlidir, çünki insanın sifəti onun ruhunun əksidirsə, gözlər onun ifadsidir. Qamət düz, natiq sakit olmalıdır, nadir hallarda gəzişmək olar, lakin son dərəcə sərbəstlik yaranmaz, artıq hərəkətlərə yol verilməməli, əllər yellədilməlidir (Şiriyev, 2020, s. 166).

Bundan əlavə olaraq, "Natiq öz fikrini bəlağətli, inandırıcı, konkret şəkildə deməlidir" fikrini sübuta yetirmək üçün yenə də Sisseronun natiqlik haqqında fikirlərini vurğulayarkən onun "Əsl natiq odur ki, hər hansı məsələni səriştəli, işini bilərək, düzgün quruluşda, icra vaxtı ləyaqətini saxlayaraq izah etsin" ideyasını göstərə bilərik (Babayev, 2011, s. 137).

Rusiyada natiqlik sənətinin elmi əsaslarla təşəkkül tapması bilavasitə dahi alim və söz ustadı M. V. Lomonosovun adı ilə bağlıdır. Lomonosovun qənaətinə görə, natiq dinləyicinin

emosional dünyasına təsir etməyi bacarmalı və bunun üçün dilin bütün zəngin ifadə vasitələrindən məharətlə istifadə etməlidir. Natiqlik sənətinə maraq təkcə Qərbdə deyil, qədim mədəniyyət beşiyi olan Şərqdə də yüksək olmuşdur. Şərq ritorikasında natiqlik insanın mənəvi ucalığı kimi qiymətləndirilirdi. Azərbaycan ədəbiyyatı tarixində nitqin, danışığın gözəlliyinə yüksək qiymət verən çox olmuşdur. Ədəbi-tarixi mənbələrə görə, F. Şirvani, S.Ə. Şirvani, N. Tusi, M. Beyləqani, Ə. Xaqani, N. Gəncəvi, İ. Nəsimi, M. Füzuli, S.Təbrizi, M. P. Vaqif, Q. Təbrizi, Ş. İ. Xətai və başqa böyük natiqlər olmuşlar (Abdullayev, 2013, s. 22).

XIX əsrdə Azərbaycanda M. Ş. Vazeh, M. F. Axundov, A. A. Bakıxanov, Q. Zakir kimi natiqlər, bu sahənin nəzəriyyəçiləri yetişmişdir. XX əsrdə də Azərbaycan öz natiqlərini yetişdirmişdir. Bu natiqlərdən M.Ə.Rəsulzadə, N.Nərimanov, B.Çobanzadə, S.Vurğun, İ.Şıxlı, X.R.Ulutürk kimi bir sıra görkəmli şəxsiyyətlərin, dövlət xadimlərinin adını çəkmək olar (Abdullayev, 2013, s. 22).

Azərbaycan natiqlik məktəbinin tərəqqisində N.Nərimanovun müstəsna xidmətləri olmuşdur, natiqlik mədəniyyətinin və ictimai-siyasi fikir tarixinin ən parlaq siması N. Nərimanovdur. Nərimanova görə natiqlik təkcə gözəl danışmaq sənəti deyil, həm də xalqın azadlığına, rifahına xidmət edən mübarizə vasitəsi idi. O, çıxışlarında dinləyicini maraqlandırmağa, maarifləndirməyə, əsaslı sürətdə ideyaya inandırmağa nail olurdu. O, kütlənin nəbzini tutmağı bacaran söz ustası idi.

“Dil xalqın böyük sərvətidir. Ədəbi dilin tərəqqisi olmadan mənəvi mədəniyyətin tərəqqisi mümkün deyildir”- deyən dunya miqyaslı siyasətçi Ulu Öndərimiz Heydər Əliyev Azərbaycan natiqliyinin zirvələrində yer tutmuş şəxsiyyətlərdən biridir.

Heydər Əliyevin natiqliyi təkcə Azərbaycanın deyil, dünya siyasi ritorikasının ən yüksək zirvələrindən biridir. Heydər Əliyevin natiqliyinin üslubu dəmir məntiqə, səlis, aydın, zəngin danışıq bacarığına söykənirdi. Onun nitqi sadəcə bir informasiya ötürücüsü deyildi, dinləyicini inandırmaq və səfərbər etmək gücünə malik mənəvi-siyasi, eyni zamanda dinləyicisini düşündürməyə sövq edən, təsirli natiq silahı idi. Heydər Əliyevin nitqi eyni zamanda natiqliyin kamil nümunəsidir. Onun nitqində etik normalar hər vaxt pozulmurdu, dinləyici yorulmadan saatlarla ona qulaq asardı, auditoriyadakı məsafəni aradan qaldıraraq ünsiyyəti canlı dialoqa çevirirdi.

O iti yaddaşa, güclü hafizəyə, dərin məntiqə malik idi. Öz səfərbəredici nitqi, danışıq tempi, manerası, jest və mimikaları ilə auditoriyanı ələ almağı bacarırdı. Dinləyicilər onun nitqinin gözəlliyinə, zənginliyinə, axıcılığına, məntiqiliyinə, səlisliyinə heyran qalırdılar. Hətta onu dinləməkdən yorulmurdular. Ulu Öndər cümlələrinin quruluşu, sözlərinin ifadəliliyi və orjinallığı ilə hər kəsi öz nitqinə heyran qoyurdu.

Onun hər çıxışında ana dili sevgisi, bariz şəkildə bilinirdi. Onun nitqindəki Azərbaycan dili sevgisi təkcə hissiyyat deyildi, Azərbaycan natiqlik məktəbinin "qızıl fondu"nda milli varlığı qorumaq üçün elmi-siyasi strategiya idi. Hər çıxışında kamil nitqi ilə "Mən hər zaman fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam" kəlamı sadəcə bir cümlə deyil, Azərbaycan xalqının mənəvi ruhunu dincəldən və ona yeni bir nəfəs verən ideoloji sütundur.

Müstəqil Azərbaycan Respublikasının qurucusu, ümummilli lideri dahi şəxsiyyət Heydər Əliyev, şübhəsiz ki, öz dövrünün ən böyük natiqi idi.

Ədəbiyyat

Abdullayev, N. (2013). *Nitq mədəniyyətinin əsasları*. Bakı Universiteti Nəşriyyatı.

Babayev, A. (2011). *Azərbaycan dili və nitq mədəniyyəti*. Təhsil.

Şiriyev, F. (2020). *Azərbaycan dilinin nitq mədəniyyəti və kommunikasiya*. Elm və təhsil.

Humanitar və İctimai Elmlər adlı Tezislər Toplusu / 22 Noyabr 2026 / 43-46
Collection of Theses on Humanitarian and Social Sciences / 22 November 2026 / 43-46
DOI: https://doi.org/10.36719/2706-6185/IV/HİETT/2026

Müasir təhsil sistemində distant təhsilin rolu və imkanları

Sevda Ağayeva

Açar sözlər: *distant təhsil, kiber məkan, didaktik məkan, onlayn təhsil, videoteka, mediateka, virtual*
Keywords: *distance education, cyberspace, didactic space, online education, video library, media library, virtual*

Elmi-texnoloji və sosial inkişafın tərkib hissəsi kimi təqdim edilən distant təhsil, fasiləsiz təhsil sisteminin bir forması olaraq insanın təhsil və informasiya almaq hüququnun reallaşdırılmasına, öz peşə fəaliyyətindən ayrılmadan əsas və ya əlavə təhsil ala bilməsinə xidmət edir. Ənənəvi təhsil formalarından fərqli olaraq, distant təhsildə təhsil alan biliyə doğru deyil, bilik təhsil alana doğru istiqamətləndirilir. Distant təhsilin hətta əlçatmaz göründüyü ölkələrdə belə, müvafiq dil təminatına malik öyrəncinin dünyanın istənilən universitetində onlayn təhsil almaq imkanları yaranır.

Texnoloji inkişaf etmiş bir sıra ölkələrdə distant təhsil milli prioritet elan edilmişdir. Amerikada çox saylı distant təhsil xidmətləri fəaliyyət göstərir. Avropa İttifaqında distant təhsil sisteminin fəaliyyəti müvafiq qanunvericiliklə tənzimlənir və dövlət fondları tərəfindən maliyyələşdirilir.

Azərbaycan Dövlət Pedaqoji Universiteti, Bakı, Azərbaycan
E-poçt: seva.ava.175@mail.ru

Distant təhsil proqramlarına malik universitetlər Distant Təhsil Universitetlərinin Avropa Assiosiasiyasının (European Association of Distance Teaching Universities, EADTU) tərkibinə daxildir. Fransa, Almaniya, İspaniya, İtaliya kimi dövlətlər özlərinin onlayn platformalarına malikdirlər.

Təhsil haqqında Azərbaycanın Respublikasının Qanununda distant təhsil forması nəzərdə tutulsa da, bu günə qədər onun hüquqi-normativ bazası formalaşmamışdır. Bizim universitetlərdə distant təhsilin ayrı-ayrı elementləri pilot layihələr kimi TEMPUS, Erasmus plus proqramları çərçivəsində onlayn təhsil xidmətləri kimi tətbiq tapmışdır.

Distant təhsilin hansı dildə aparılacağı bu gün ən mübahisəli məsələlərdən biridir. Bu baxımdan mühazirələrin ingilis dilində aparılması beynəlxalq tələbə kontingenti üçün daha əlverişli sayılır. Bu baxımdan, magistraturada oxuyan tələbə daha dərin biliklər almaq istəyirsə, o əlbəttə ki, beynəlxalq elmi ünsiyyət dili olan ingilis dilinə üstünlük verəcəkdir.

Distant təhsil platformasında təhsil mühiti (LMS – Learning Management System), video və audio mühazirələrdən, elektron dərsliklərdən, interaktiv testlərdən, forumdan, tələbə-tədris materialları – müəllim arasında qarşılıqlı fəaliyyəti təmin edə bilən texnologiyalardan bəhrələnir. Adətən, bu mühit özündə dörd təhsil məkanını birləşdirir: videoteka, mediateka, virtual laboratoriya və onlayn repetitorluq. Videotekada rəqəmsal video dərslər, elektron təqdimatlar və elektron təhsil kontentlərinin informasiya daşıyıcıları saxlanılır. Rəqəmsal video dərslərdən istifadə etməklə klassik təhsil ənənələrinə uyğun olaraq simvolik-rekonstruktiv təlim prosesi təmin edilir.

Videotekadan istifadə öyrənmə prosesinin səmərəliliyini yüksəldir, təlim üsullarını fərdiləşdirilməklə müasir təhsil texnologiyaları ilə zənginləşdirir və gücləndirir. Hər bir videodərs mövzuların indeksləşdirilməsi ilə həyata keçirilir və hipermətnli olur. Hiper istinadlar videodərslərin məzmununu elektron kitabxanada olan didaktik materiallarla: elektron dərsliklər, məqalələr, multimedya materialları, biblioqrafiyalar, saytoqrafiyalar, interaktiv çalışmalar, virtual laboratoriyalarla əlaqələndirir. İnteraktiv dərslər vasitəsilə materialların kontekstual dərinləşməsi, praktiki tətbiq vasitələrindən istifadə etməklə isə nəzəri biliklərin daha səmərəli mənimsənilməsi təmin edilir. Medioteka videostudiya, səsyazma studiyası, kompüter təqdimatlarının yaradılması və baxışı üçün vacib olan texniki vasitələrlə: kompüter, videokamera, maqnitofon, videomaqnitofon, proyektor və s. ilə təchiz edilmiş qurumdur. Burada elektron təhsil kontentlərinin hazırlanması üçün vacib olan multiagentli texnologiyalar, hipermətn və multimediya texnologiyalarının proqram (Sofhtware) və aparat (Hardware) vasitələri və onlardan istifadə metodikaları saxlanılır.

Virtual kitabxana intellektual biblioqrafik sistemin tərkib hissəsi olaraq mövcud video dərslərlə bağlı tədris materiallarına: filmlər, şəkil və eskizlər, diaqramlar, animasiyalar və vebsaytlara keçid linklərini biblioqrafik arayışlar şəklində arxivləşdirir və müvafiq naviqasiya vasitələri ilə təmin edir. Virtual kitabxananın tərkib hissəsi olan bu növ obyektlər videodərslərin məzmununu daha dərindən əks etdirir, müəyyən bir mövzunu, bir fəsli, videodərsi, videodərslər komplektini və hətta bütöv bir kursun tədrisini zənginləşdirir. Elektron kitabxanada tələbə videodərslərlə əlaqəli tədris materiallarına və hipermətn istinadlarına müraciət edə bilər. Tədris filminin məzmununa adətən, tədris proqramının bir və ya bir neçə mövzusu daxil olur. Filmin interaktiv xüsusiyyətləri: video

təqdimat üçün seçilmiş bir və ya bir neçə sual və yaradıcı tapşırığı, axtarılan mövzuya və ya bölməyə keçid linkini, məşğələdən əvvəl, məşğələ vaxtı və məşğələdən sonra yerinə yetirilməli olan tapşırıqları əhatə edir. Tədris filmlərindən istifadə təcrübəsi göstərir ki, audiovizual tədris vasitələrinin köməyi ilə tələbə zaman vahidi ərzində ənənəvi üsullardan daha çox informasiya mənimsəmək imkanlarına malik olur. Filmdən istifadə təhsil alanda motivasiya və öyrəndiyi fənnin ictimai mahiyyətini dərketmə xüsusiyyətlərini formalaşdırır. Tədris filmlərinin motivasiya, illüstrasiya, səslə müşayiətolunma, reallıq və s. kimi danılmaz üstünlükləri ilə bərabər, bir-sıra çatışmazlıqları da mövcuddur, məsələn, filmə baxarkən tələbənin passivliyi, bəzi informasiyaların onun səviyyəsinə uyğun gəlməməsi, interaktiv fəaliyyətin olmaması və s..

Distant təhsil üzrə dünyanın aparıcı universitetlərinin təcrübələrinin təhlilindən göründüyü kimi, Azərbaycan təhsil sisteminin qarşısında yüksək peşəkarlıq tələb edən, mütərəqqi təhsil və İT texnologiyalarına söykənən sistemli və məqsədyönlü fəaliyyət durur. Belə bir fəaliyyətin baza prinsipləri, o cümlədən də təhsil sistemində ictimai-dövlət idarəçilik modellərinin tətbiqi, təhsil sisteminin açıqlığının, sadəliyinin və investisiya cazibədarlığının təmini, təhsil və əlavə təhsil proqramlarının saylarının artırılması, ali təhsil sisteminin bütün dünya üçün açıq olması, ali təhsil müəssisələrinin ərazi baxımından nizamla paylanması, ali təhsilin inkişafında marağı olan bütün tərəfdaşların koordinasiya prosesində iştirakı və s. Təhsilin inkişafı üzrə Dövlət Strategiyasında artıq öz əksini tapmış və reallaşdırılma mexanizmlərini müəyyənləşdirmişdir.

Humanitar və İctimai Elmlər adlı Tezislər Toplusu / 22 Noyabr 2026 / 47-51
Collection of Theses on Humanitarian and Social Sciences / 22 November 2026 / 47-51
DOI: https://doi.org/10.36719/2706-6185/IV/HİETT/2026

The Role of Adaptive Physical Education in Physical Development and Health Preservation

Rufat Gadimov[1*], Khanlar Gojayev[1]

Keywords: *adaptive physical education, physical development, health preservation, physical activity, inclusion*
Açar sözlər: *adaptiv fiziki tərbiyə, fiziki inkişaf, sağlamlığın qorunması, fiziki fəallıq, inklüzivlik*

The preservation of human health, physical development, and quality of life are major social priorities, with physical education playing a vital role. However, because traditional programs cannot address every individual's needs, individualization has driven the rise of adaptive physical education as an independent pedagogical field. Emphasizing regular activity for all age groups, the World Health Organization notes its positive impact on health and disease prevention, showing that adaptive physical education functions beyond mere rehabilitation as a continuous health-preservation activity (World Health Organization, 2020). Its relevance stems from addressing diverse physical and functional abilities. Adapting exercises for individuals with mobility, sensory impairments, or post-illness recovery needs enables active participation, provided sessions rely on medical recommendations, functional assessments, and professional cooperation.

[1]Azerbaijan Sports Academy, Bakı, Azərbaycan
[*]Corresponding author. E-mail: rufat.gadimov@sport.edu.az

The UNESCO International Charter establishes physical education and sport as a fundamental right, emphasizing equal, non-discriminatory access for people with diverse needs and highlighting the role of adaptive physical education in fostering inclusivity (UNESCO, 2015).

Regarding physical development, adaptive programs primarily improve the musculoskeletal system. Individually tailored strength and movement exercises stimulate muscle activity, preserve joint mobility, and enhance motor coordination, helping individuals with mobility limitations develop essential daily living skills like sitting, standing, independent movement, and balance.

Endurance—the ability to sustain physical activity over time—is another key component developed through adapted activities such as walking, swimming, stationary cycling, and seated aerobics. While these exercises strengthen cardiovascular and respiratory capacity, their intensity and duration must always be guided by individual assessment.

The importance of adaptive physical education in terms of physical development is also particularly significant for children and adolescents. Ensuring physical activity during developmental stages creates favourable conditions for the formation of motor skills, the acquisition of proper movement patterns, and the development of the body's physical capabilities. For this age group, organising sessions through games, relay activities, basic coordination tasks, and adapted sporting activities is particularly appropriate. The primary focus should be placed not on comparing performance outcomes but on assessing each child's individual developmental progress.

Health preservation is one of the fundamental functional objectives of adaptive physical education. Limited physical activity, prolonged sedentary behaviour, and reduced mobility may increase the risk of various health problems. In particular, low levels of daily physical activity among individuals with physical disabilities may contribute to muscle weakness, reduced functional endurance, and excessive weight gain. In this regard, adaptive physical education is regarded as an important preventive measure aimed at reducing health-related risks.

The psychological effects of adaptive physical education in promoting health should also be taken into consideration. Physical activity can contribute to increased self-confidence, reduced emotional tension, and more active participation in everyday life. Communication, cooperation, and mutual support developed during group exercise sessions can have a positive impact on reducing social isolation (Məmmədzadə, 2022). Thus, adaptive physical education represents an area of activity that considers human health not merely in terms of physiological indicators but also encompasses physical, psychological, and social well-being.

During the organisation of adaptive physical education sessions, it is advisable to consider the following methodological principles:

- The principle of individualisation – designing exercise programmes in accordance with participants' health conditions and physical capabilities.
- The principle of accessibility – adapting the exercise environment, equipment, and physical tasks to ensure that they are suitable for every participant.

- The principle of gradual progression – increasing physical workloads in stages, taking into account the body's capacity for adaptation.
- The principle of continuity – ensuring the regular organisation of physical exercise sessions and maintaining the results achieved.
- The principle of safety – conducting exercises in accordance with medical recommendations, functional capabilities, and potential risks.
- The principle of comprehensiveness – considering psychological and social development alongside physical development.

The application of digital technologies in modern adaptive physical education also creates new opportunities. Activity trackers, heart rate monitors, motion sensors, and mobile applications can facilitate the monitoring of physical activity, the recording of exercise performance indicators, and the adjustment of individual programmes. Nevertheless, technological tools should not replace professional supervision; rather, they should be used as supplementary instruments to improve the effectiveness of the exercise process.

The conducted scientific and theoretical analysis demonstrates that adaptive physical education significantly promotes physical development, health preservation, and social participation for individuals with diverse functional abilities. By tailoring physical activity to individual needs, it develops existing potential, improves strength, endurance, coordination, and balance, and integrates exercise into daily life.

The findings indicate that its effectiveness relies on individualized planning, safety compliance, specialist

competence, and proper infrastructure. Consequently, expanding inclusive approaches, introducing adapted sports equipment, utilizing digital monitoring technologies, and establishing assessment mechanisms based on individual development indicators are essential.

Thus, adaptive physical education is not merely an area of activity aimed at reducing the impact of physical limitations; rather, it constitutes a comprehensive scientific and pedagogical system that supports human health, physical independence, psychological resilience, and social participation. Its further development can make a significant contribution to ensuring access to physical activity for every individual, regardless of their health condition or functional abilities, and to fostering an inclusive lifestyle within society.

References

Məmmədzadə, M. (2022). İdman menecmentində media anlayışı. *Bədən Tərbiyəsi və İdman Akademiyasının Elmi Xəbərləri*, 4(3), 173–176.

UNESCO. (2015). *International charter of physical education, physical activity and sport*. UNESCO Publishing. https://unesdoc.unesco.org/ark:/48223/pf0000235409

World Health Organization. (2020). *WHO guidelines on physical activity and sedentary behaviour*. World Health Organization. https://www.who.int/publications/i/item/9789240015128

Humanitar və İctimai Elmlər adlı Tezislər Toplusu / 22 Noyabr 2026 / 52-56
Collection of Theses on Humanitarian and Social Sciences / 22 November 2026 / 52-56
DOI: https://doi.org/10.36719/2706-6185/IV/HİETT/2026

İnteraktiv üsullarla ana dili dərslərində mənəvi tərbiyənin qurulması

Nəzrin Hacıyeva

Açar sözlər: *ana dili, dərs, şagird, mənəvi tərbiyə*
Keywords: *native language, lesson, student, moral education*

Ana dili millətin irsini davam etdirən vasitədir. Hər millətin öz ana dili vardır. Məktəblərdə üstünlük verilən fənn isə öz ana dilləridir. Hər kəs ana dilinin yaxşı mənimsənilməsinə çalışır. ana dili dərslərində yalnız dil qaydaları öyrədilmir. Eyni zamanda mənəvi-əxlaqi inkişafına da kömək edir. Mənəvi tərbiyə şagirdin vətənpərvərlik və qayğıkeşlik hisslərini formalaşdıran amildir. Təhsil sistemində interaktiv üsullardan istifadə mənəvi tərbiyənin qurulmasına imkan açır. Yalnız ana dili dərslərində yox, digər dərslərdə də interaktiv üsullarla keçirilən dərslər daha səmərəli hesab edilir. İnteraktiv üsulların köməyi şagird dərsi əzbərləmir, onu müxtəlif üsullarla öyrənir. Bildiyimiz kimi, müasir təlimdə şagird passiv dinləyicidən fəal dinləyiciyə keçmişdir. Beləliklə, şagird dərsi əzbərləməklə yox, anlamaqla öyrənmiş olur. Ana dili dərslərində digər dərslərə nisbətən daha çox interaktiv üsullardan istifadə etmək olar. Bu üsullardan istifadə etmək şagirddə həm intelektual biliyini, həm də mənəvi tərbiyəsini artırmağa kömək edir.

Bakı Slavyan Universiteti, Bakı, Azərbaycan
E-poçt: zeynallinezrin51@gmail.com

Ana dili dərslərində müzakirə və debat üsulu vasitəsilə şagirdlər bir-birlərinə hörmətlə yanaşmaq, dinləmək mədəniyyətini öyrənirlər. Öz fikrini deyə bilən şagird ətrafındakıların da fikirlərini rahatlıqla anlayır. Şagird öz şəxsi mövqeyini əsaslandıra bilir. Əsasən aşağı siniflərdə sadə interaktiv üsullardan istifadə olunur. Bu da şagirddə dərsə qarşı maraq oyadır. "Akvarium" üsulu isə mənəvi-əxlaqi mövzuları kollektiv şəkildə öyrənməyə kömək edir. Digər bir üsul olan ədəbi qəhrəmana məktub yazmaq üsulu ilə şagird daxili hisslərini və görmək istədiyi mühiti qarşı tərəfə ötürür.

"Rollu oyunlar" zamanı şagird istər mənfi, istərsə də müsbət obrazı canlandırır. Bu zaman şagird obrazın daxili aləmini dərindən hiss edir. Onun hisslərini anlayır, empatiya qurur, vicdan, ədalət, dürüstlük kimi anlayışları təhlil edir. "İkihissəli gündəlik" vasitəsilə mətndə olan hissələri şəxsi təcrübəsi ilə əlaqələndirir. "Klaster" üsulundan istifadə edərək mətndəki obrazların xüsusiyyətlərini aydınlaşdırır. Bu zaman şagird hansı xüsusiyyətin yaxşı və ya pis olduğunu dərk edir. Bu da onun mənəvi inkişafına təsir edir. Dərsdə daha çox "Beyin həmləsi" üsulundan istifadə edilir. Bu zaman şagirdlərin dəyərlərə baxış bucağı dəyişir, dilin zəngin leksik xəzinəsindən istifadə edərək mənəvi çalarları dərindən dərk edirlər.

Mənəvi tərbiyənin əsas tərkib hissəsi vətənpərvərlik tərbiyəsidir. Ana dili dərslikləri şagirddə öz vətəninə, millətinə hörmət hissini artırır. Şagirdlər təqdimatlar, layihələr hazırlayaraq milli-mənəvi irsin qorunmasında öz rolunu anlayır. Başa düşür ki, öz vətənini sevmək, qorumaq hər kəsin vəzifəsidir.

Dərslərdə daha çox qruplarla iş zamanı şagirddə ünsiyyət, qarşılıqlı hörmət, bir-birini anlama, fikrinə hörmət etmə kimi hallar artır. Bu zaman fərdiliyin qarşısı alınır, sağlam münasibət

qurulur. Bu zaman müəllim də yönəltmə funksiyasını yerinə yetirir. Qrupları qurmaq, əsasən, onun üzərinə düşür. Müəllim dərs zamanı yönəldici suallar verməklə şagirdi düşünməyə sövq edir. Bu da şagirdin düşünmə qabiliyyətini artırır. Dərsin motivasiya hissəsi dərsin 50 %-i təşkil etdiyinə görə müəllim aforizmlər, hikmətli sözlər verməklə mənəvi problemin qoyuluşunu təmin edir.

Şagird hər mətn oxuduğu zaman özünə "Bu mətn mənə nə verdi?", "Bu mətndə hansı mənəvi tərbiyədən söz gedir?" kimi suallar verir. Belə özünütəhlillər şagirdin mənəvi tərbiyəsini zənginləşdirir. Müxtəlif yazı işləri zamanı müəllim mənəvi tərbiyə xarakterli nümunələrdən istifadə edir. Bu zaman şagird həm yazı işini yazır, həm də yazaraq mənəvi bilik əldə edir. Xalq nağılları, təmsillər də fədakarlıq, dostluq, yoldaşlıq mənbəyidir. Yazı işləri zamanı bu nümunələrdən istifadə etmək daha əlverişlidir.

Şagirdlərin mənəvi inkişafını təmin etmək üçün onların yalnız bilik səviyyəsinə görə yox, həm də özünüaparma qaydasına görə də qiymətləndirmə aparılmalıdır. Şagirdin sinifdə yoldaşlarına, müəllimlərinə qarşı davranışı düzgün qiymətləndirilməlidir. Şagird yeri gəldiyi zaman özünü və yoldaşını qiymətləndirməyi bacarmalıdır. Bu zaman şagirddə obyektivlik və özünə qarşı tələbkarlıq hissi artır. Beləliklə, şagird çatışmazlıqları görüb təhlillər aparır. Təlim zamanı düzgün inteqrasiya olunan interaktiv üsullar dərsin səmərəliliyini artırır.

"Ziqzaq" üsulu ilə mətn hissələrə bölünür. Birinci hissə, ikinci hissə və üçüncü hissə müxtəlif ekspert qrupları tərəfindən öyrənilib digər yoldaşlara izah edilir. Beləliklə, mövzu yaxşı öyrənilir, eyni zamanda şagirddə əməkdaşlıq, bir-birini dinləmə, paylaşmaq hissi formalaşdırılır. Şagird mətni sadəcə dil

informasiyası kimi oxumur, hər cümlədən özü üçün mənəvi meyar çıxarır.

Bildiyimiz kimi, bugünkü dövr rəqəmsal texnologiya dövrüdür. Biz məlumatları internet vasitəsi ilə əldə edə bilərik. Dərs mühitində də mənəvi tərbiyənin artırılmasına texnologiya kömək edir. Ana dili dərslərində interaktiv multimedia vasitələri mənəvi mövzuların mənimsənilməsinə yaxşı təsir göstərir. Dərs zamanı şagirdin tənqidi və yaradıcı təfəkkürünün artırılması üçün verilən tapşırıqlar onu mənəvi baxımdan yetkinləşdirir.

Şagird mənəvi cəhətdən zəngin bir mühitdə elm öyrəndiyi zaman onun özünəinamı artır. Beləliklə, şagird öz fikrini sərbəst, aydın, çəkinmədən deyir. Şagird dərsdə passiv vəziyyətdə yox, fəal vəziyyətdə çalışır. Bu da dərsin aktivliyini artırır. Belə bir mühitdə dərslər əlverişli şəkildə yekunlaşır.

Dərsin hər mərhələsində şagirdlərin bir-biri ilə nəzakətli davranması, ədəbi dilin normalarına uyğun danışmasının təmin edilməsi etik tərbiyənin əsasını qoyur. Mətnlərdəki mənfi obrazı birdən pisləmək əvəzinə, şagir bunu anlayıb, başa düşməyə istiqamətləndirilməlidir. Şagird onu özü dərk edərək mənfi obrazı qiymətləndirməlidir.

Elektron resurslar da mənəvi tərbiyənin təsir gücünü artırır. Məlumatın bol olduğu mühitdə şagirdin intellektual səviyyəsi yüksək olur. Şagird həm dili öyrənir, həm də mənəvi baxımdan yetkinləşir.

Mənəvi tərbiyənin qurulmasına şərait yaradan əsas şəxslərdən biri də müəllimdir. Müəllim hər bir şagirdə fərdi münasibət bəsləməli, mərhəmətli olmalıdır. Bu, şagirdin inkişafına müsbət təsir göstərir. Şagirdə hörmətlə yanaşmaq, ona etibar etmək,

onun cavablarını yaxşı və ya pis qiymətləndirməkdən imtina etmək, onda həm özünəinam, həm də müəllimə hörmət və etibar hissini daha da artırır.

Pedaqoji təcrübənin təhlili göstərir ki, ana dili və ədəbiyyat dərslərinin müasir interaktiv təlim texnologiyaları əsasında qurulması şagirdlərin analitik və sintetik təfəkkür əməliyyatlarını inkişaf etdirir. Müxtəlif zehni və koqnitiv tapşırıqlar arasında çevik keçidlərin tematik təmin olunması şagirdlərin mental plastikliyini və diqqət konsentrasiyasını artırır, onları məntiqi, tənqidi və kreativ düşüncə mədəniyyətinə yiyələndirir.

Beləliklə, interaktiv üsullarla zənginləşdirilmiş ana dili dərsləri gələcəyin mənəviyyatlı və kamil insanının yetişməsində əsas təməl daşına çevrilir.

Humanitar və İctimai Elmlər adlı Tezislər Toplusu / 22 Noyabr 2026 / 57-60
Collection of Theses on Humanitarian and Social Sciences / 22 November 2026 / 57-60
DOI: https://doi.org/10.36719/2706-6185/IV/HİETT/2026

Pedaqoji fəaliyyətdə ünsiyyətin rolu və psixoloji çətinliklərin aradan qaldırılması

Fatma Əliyeva

Açar sözlər: *psixi proseslər, dinamika, informasiya mübadiləsi, pedaqoji ünsiyyət, təşəbbüskarlıq, qeyri-verbal kommunikasiya, fərdi xüsusiyyətlər*
Keywords: *mental processes, dynamics, information exchange, pedagogical communication, initiative, non-verbal communication, individual characteristics*

İnsanın hər cür fəaliyyətində ünsiyyət ən zəruri şərt hesab olunur. Ünsiyyət olmadan insanların birgə fəaliyyətinin həyata keçirilməsi mümkün deyildir.

Pedaqoji ünsiyyətin yerinə yetirdiyi vəzifələrə görə onun informasiya mübadiləsi, başqa adamın davranışını tənzim etmək, şəxsiyyətlərarası anlama kimi növləri ayırd edilir. Tərəf müqabilliyinin xarakterinə və müəllimin ünsiyyətdəki mövqeyinə görə də pedaqoji ünsiyyətin növlərini müəyyənləşdirmək mümkündür. Pedaqoji ünsiyyət öz məzmununa və müəllimin şagirdə müraciət tərzinə görə təşkiledici, qiymətləndirici, intizam yaradan pedaqoji ünsiyyət növlərinə aid edilir. Müəllimlə şagirdlərin qarşılıqlı ünsiyyəti nə qədər səmərəli olarsa, kollektivin idarə olunması, onun üzvlərinin tərbiyə işinin təşkili də bir o qədər səmərəli olacaqdır.

Azərbaycan Dövlət Pedaqoji Universiteti, Bakı, Azərbaycan
E-poçt: fatma.aliyevaa@mail.ru

Pedaqoji ünsiyyət zamanı müəllimin tutduğu mövqe onun ünsiyyətinə əsaslı təsir göstərir. Müxtəlif üsluba malik olan kommunikativ qarşılıqlı təsir müəllimin dərsdə şagirdlərlə ünsiyyətində bir sıra davranış modelinin meydana gəlməsinə səbəb olur. L.D. Stolyarenko şərti olaraq bu modellərə aşağıdakıları aid edir:

1. Diktator modeli ("Monblan"). Nəticədə psixoloji təmas olmur, buradan da şagirddə passivlik yaranır.
2. Təmassız model ("Çin səddi"). Nəticədə müəllimin şagirdlərlə zəif qarşılıqlı təsiri, şagirdlərin müəllimə qarşı laqeyd münasibəti özünü göstərir.
3. Fərqləndirici diqqət modeli ("Lokator"). Nəticədə müəllim-şagird (müəllim – tələbə) kollektivi sistemində qarşılıqlı təsir aktı pozulur.
4. Hiporefleks modeli ("Tetra quşu"). Nəticədə öyrədən və öyrənənlər arasında qarşılıqlı təsir praktik olaraq mövcud olmur.
5. Hiperrefleks modeli ("Hamlet"). Nəticədə müəllimin sosial-psixoloji həssaslığı güclənir, kəskinləşir, sinfin replikasına və hərəkətinə qeyri-adekvat reaksiya verir.
6. Dəyişməyən reaksiya modeli ("Robot"). Nəticədə pedaqoji qarşılıqlı təsirin səmərəsi aşağı olur.
7. Avtoritar model ("Mən özüm"). Nəticədə təlimin yaradıcı xarakteri itir.
8. Fəal qarşılıqlı təsir modeli ("İttifaq"). Nəticədə qarşıya çıxan tədris, təşkilati, etik problemlər birlikdə, hamının gücü ilə yaradıcı şəkildə həll olunur, daha məhsuldar hesab olunur.

Pedaqoji fəaliyyətə təzəcə başlayan gənc müəllimlər bəzən şagirdlərlə ünsiyyət yaratmaqda bir sıra çətinliklərlə qarşılaşırlar. Bu zaman gənc müəllim ruhdan düşür və özünə inamı zəifləyir.

Bu sahədə aparılmış tədqiqatlara və məktəb təcrübəsinə istinad etməklə həmin çətinlikləri təxmini olaraq bu cür qruplaşdırmaq mümkündür:

1. Şagirdlərlə təmas yarada bilməməklə bağlı çətinliklər.
2. Şagirdin daxili psixoloji mövqeyini başa düşə bilməməklə bağlı çətinliklər.
3. Dərsdə ünsiyyəti idarə etməyin mürəkkəbliyi ilə bağlı çətinliklər.
4. Qarşılıqlı münasibət yaratmağı və pedaqoji məqsəddən asılı olaraq onu dəyişdirməyi bacarmamaqla bağlı çətinliklər.
5. Nitq ünsiyyətindəki və özünün emosional münasibətlərini materiala köçürə bilməməklə bağlı çətinliklər.

Müəllimin pedaqoji fəaliyyəti yerinə yetirərkən qarşılaşdığı çətinlikləri müxtəlif göstəricilərə əsasən tiplərə ayırmaq mümkündür. Buraya çətinliyi doğuran səbəbin obyektiv və ya subyektiv olmasını, çətinliyin dərkolunma dərəcəsini, pedaqoji təsirin təşkili xüsusiyyəti, özünənəzarət, özünütənzim və s. aid etmək olar. Təcrübə göstərir ki, müəllim, xüsusilə təzəcə fəaliyyətə başlayan müəllim bəzən qarşıya qoyduğu məqsəd sistemində ünsiyyəti düzgün qura bilmir, şagirdlərin şəxsiyyətini öyrənməyi bacarmır, stereotip qiymətləndirmədən istifadə edir və buna müvafiq olaraq bütün siniflərdə yaş fərqindən asılı olmayaraq, monoton ünsiyyətə gətirib çıxaran eyni cür qarşılıqlı təsir vasitəsindən istifadə edir. Adətən, ayrı-ayrı şagirdlərlə ünsiyyətdəki çətinliyi təsəvvür edə bilmir, sinfi ələ almaqda çətinlik çəkir, şagirdin sinifdə və ailədə nə kimi qeyri-formal rolu yerinə yetirdiyini bilmir, düzgün olmayan, mövcud şəraitlə uyğun gəlməyən pedaqoji rəhbərlik üslubunu tətbiq edir və s. Ümumiyyətlə, müəllimin öz fəaliyyətində qarşılaşdığı prinsipial psixoloji çətinlikləri ümumiləşdirmiş olsaq, onların aşağıdakılardan ibarət olduğunu söyləyə bilərik:

– müəllim şagirdi bütövlükdə öz inkişaf perspektivində qavraya bilmir;
– öz əməyini pedaqoji fəaliyyət, pedaqoji ünsiyyət və şəxsiyyətlə vəhdətdə olan bir tam kimi görə bilmir;
– onları "müəllim-şagird" sistemi çərçivəsinə keçirə və qiymətləndirə bilmir.

Müəllim üçün daha geniş yayılmış və xarakterik çətinlik şagirdlərin psixi vəziyyətini və özünün pedaqoji fəaliyyət və ünsiyyət səviyyəsinin diaqnostikasını verə bilməməkdən ibarətdir.

Ümumiyyətlə, müəllimin psixoloji çətinlikləri onun müəyyən pedaqoji şəraitdə həyata keçirdiyi fəaliyyət zamanı təzahür edən gərginlik vəziyyəti ilə müəyyən edilir. Bu cəhəti nəzərə alaraq çətinliyin yaranma səbəbinin xarakteri ilə bağlı üç ümumi tip müəyyənləşdirilir:

1. Xarici səbəblərdən irəli gələn psixoloji çətinlik.
2. Daxili səbəblərdən irəli gələn psixoloji çətinlik.
3. Daxili səbəblərdən törəmiş xarici səbəblərlə şərtlənən psixoloji çətinliklər.

Qeyd olunan psixoloji çətinliklərin hər biri digərindən fərqləndiyi kimi, onların aradan qaldırması və təsir formalarının seçilməsi də müxtəlif olmalıdır. Məsələn: xarici səbəblərdən irəli gələn psixoloji çətinlik baş verdikdə təlim və ya özünütəlimdən istifadə olunmalıdır. Daxili səbəblərdən irəli gələn psixoloji çətinlik baş verdikdə müəllimlə psixoloji iş aparılmalıdır. Daxili səbəblərdən törəmiş xarici səbəblərlə şərtlənən psixoloji çətinlik baş verdikdə əməyin səmərəliliyini yüksəltmək məqsədilə yaranmış problemlə əlaqədar məktəb müəllimlərinin birgə işi həyata keçirilməlidir.

Humanitar və İctimai Elmlər adlı Tezislər Toplusu / 22 Noyabr 2026 / 61-65
Collection of Theses on Humanitarian and Social Sciences / 22 November 2026 / 61-65
DOI: https://doi.org/10.36719/2706-6185/IV/HİETT/2026

Global Trends in the Development of Modern Sports Facilities

Balish Mirzayeva

Keywords: *sports facilities, training apparatus, global trends, digitalization, athletic infrastructure*
Açar sözlər: *idman qurğuları, məşq avadanlıqları, qlobal tendensiyalar, rəqəmsallaşma, idman infrastrukturu*

In the modern era, the promotion of physical education, sports, and a healthy lifestyle has become an integral component of the socio-economic, cultural, and intellectual development of society. Rapid technological, scientific, and economic advances taking place globally have brought about fundamental changes across all sectors of activity, including the sports industry. At the centre of these transformations lies the reconstruction and optimisation of sports infrastructure, particularly modern sports facilities, complexes, and fitness equipment systems, in accordance with international standards. Sports facilities are no longer merely spaces for physical exercise or passive indoor halls; rather, they have evolved into sophisticated digital ecosystems that regulate athletes' functional fitness, biometric safety, psychological recovery, and long-term development. The modernisation of sports facilities directly influences the effectiveness of training processes and the scientifically grounded optimisation of individual athletic performance (Məmmədzadə, 2026).

Azerbaijan Sports Academy, Baku, Azerbaijan
E-mail: balish.mirzayeva@gmail.com

Historically, the development of sports infrastructure has evolved from simple outdoor playgrounds and basic halls into twenty-first-century smart complexes, modular facilities, and specialized equipment based on biomechanics, ergonomics, medical safety, and environmental standards, enabling a more scientific and empirical approach to athletic training.

Comprehensive analyses demonstrate that timely infrastructure modernization and strategic geographical, economic, and functional planning are decisive for improving training quality, elevating regional management, and ensuring the sustainable development of both mass and elite sport while eliminating interregional disparities (Abaslı, 2026).

Among contemporary global trends, the integration of digital technologies—such as IoT, AI analytical systems, cloud computing, and real-time sensors—has transformed conventional fitness equipment into intelligent systems that monitor physiological parameters, automatically adjust training loads, identify fatigue thresholds, and minimize injury risks.

These technological innovations minimise dependence on subjective factors and human intervention in the training process, facilitate the early prediction of potential injuries, and create favourable conditions for maximising athletes' inherent physical potential. At the same time, since the construction and management of modern sports facilities require substantial financial investment, particular attention must be paid to their economic efficiency and self-financing mechanisms. International experience demonstrates that designing sports complexes not for a single purpose but as multifunctional facilities significantly increases their commercial potential and reduces their dependence on state budget allocations. The

involvement of the private sector through Public-Private Partnership (PPP) mechanisms not only accelerates infrastructure modernisation but also creates favourable conditions for improving the quality of sports services through market competition (Məmmədzadə, 2026).

The architectural and engineering solutions applied in the construction of sports facilities have undergone fundamental changes in recent years against the backdrop of increasingly stringent global environmental standards and growing ergonomic requirements. Innovative retractable roof structures, intelligent natural lighting systems, highly efficient thermal insulation, and advanced aerodynamic ventilation technologies ensure optimal, comfortable, and healthy microclimatic conditions for athletes training both indoors and outdoors. At the same time, these engineering innovations reduce the energy consumption of facilities, thereby generating long-term economic benefits. Such environmental and functional approaches are now being successfully implemented not only in large-scale Olympic arenas at the international level but also in local neighbourhood sports grounds and regional complexes, significantly contributing to the development of mass participation in sports.

Nevertheless, the global development of sports facilities and modern training equipment continues to face objective challenges and regional disparities, as facilities in districts and remote rural settlements lag behind major urban centers in technical infrastructure, modern equipment, internet connectivity, and qualified personnel; addressing these gaps requires expanding public-private partnerships, innovative management models, and targeted regional investments.

As the technical capabilities of modern fitness equipment and digital monitoring systems become increasingly sophisticated, the professional qualifications and digital literacy of coaching and teaching personnel must also be continuously enhanced to analyze biometric indicators effectively. Beyond achieving elite sporting results, the qualitative development of regional sports infrastructure serves as a vital state policy direction to prevent harmful habits among youth, promote healthy lifestyles and mass sports participation, and protect the physical and moral well-being of future generations.

The findings of the research and broader global analyses indicate that the future development of sports facilities should be based primarily on digital transformation, adaptive training technologies, artificial intelligence-based predictive analytics, and the principles of inclusivity. The transition of modern fitness equipment from conventional mechanical structures to intelligent performance ecosystems represents one of the most pressing challenges facing contemporary sports science. In the future, the deeper integration of Virtual Reality (VR), Augmented Reality (AR), and Mixed Reality (MR) technologies into sports facilities will enable athletes to train in simulated environments under diverse geographical conditions, without being constrained by physical boundaries. This development is expected to substantially enhance the effectiveness and quality of training processes.

In conclusion, global trends in the development of modern sports facilities require the rapid integration of technological innovations, strict compliance with environmental and ergonomic standards, and the provision of geographical accessibility to sports services. Comprehensive state measures implemented in this direction contribute to the development of

mass sports, the formation of a healthy younger generation, and the further strengthening of the country's reputation in the international sporting arena. The continuous improvement of sports infrastructure remains one of the priority areas of state policy in the modern era, while the application of scientifically grounded approaches in this field has become an indispensable necessity.

References

Abaslı, T. (2026). Regional idman idarəçiliyində informasiya sistemlərinin rolu. *"Rəqəmsallaşma dövründə regional universitet modeli" mövzusunda Beynəlxalq Elmi-Praktiki Konfransın materialları* (s. 890–895). UNEC Zaqatala filialı.

Məmmədzadə, M. (2026, 13 may). The role of military sports games organized in urban environments in the patriotic education of youth. *"Şəhər mühitində idman: Fiziki fəallıq və idman imkanlarının inkişafı" adlı Beynəlxalq elmi simpoziumun materialları* (s.174–178). Azərbaycan İdman Akademiyası.

Humanitar və İctimai Elmlər adlı Tezislər Toplusu / 22 Noyabr 2026 / 66-71
Collection of Theses on Humanitarian and Social Sciences / 22 November 2026 / 66-71
DOI: https://doi.org/10.36719/2706-6185/IV/HİETT/2026

Riyazi dilçiliyin əsas istiqamətləri

Nigar Qasımova

Açar sözlər: *riyazi dilçlik, statistik dilçilik, korpus dilçiliyi, kompüter dilçiliyi, riyazi-statistik modelləşdirmə*
Key words: *mathematical linguistics, statistical linguistics, corpus linguistics, mathematical and statistical modelling,*

Riyazi dilçilik dilin quruluşunu və fəaliyyət qanunlarını riyazi üsullar, məntiqi modellər və formal sistemlər vasitəsilə öyrənən dilçilik sahəsidir. Riyazi dilçiliyin əsas məqsədlərindən biri təbii dilin formal modelini yaratmaqdır. Məsələn, insan üçün "Mən kitab oxuyuram" cümləsinin quruluşunu intuitiv şəkildə başa düşmək asandır. Kompüter üçün isə bu cümlənin sözlərdən, söz birləşmələrindən və sintaktik əlaqələrdən necə təşkil olunduğunu formal qaydalarla göstərmək lazımdır. Riyazi dilçilik xüsusilə XX əsrin ortalarından etibarən sürətlə inkişaf etmişdir. Bunun əsas səbəblərindən biri kompüterlərin yaranması və dilin avtomatik emalına ehtiyacın meydana çıxması idi.

Riyazi dilçilik bir neçə istiqamətlə əlaqəlidir:

1. Formal dil nəzəriyyəsi: Dilin müəyyən qaydalar əsasında qurulan formal sistem kimi təsvir edilməsidir. Burada dilin elementləri və onların birləşmə qaydaları riyazi şəkildə müəyyənləşdirilir.

Azərbaycan Dövlət Pedaqoji Universiteti, Bakı, Azərbaycan
E-poçt: gasimovanigar90@gmail.com

2. Statistik dilçilik: Dildə sözlərin, səslərin və digər vahidlərin işlənmə tezliyini statistik üsullarla araşdırır. Məsələn, hansı sözün hansı sözdən sonra gəlmə ehtimalının daha yüksək olduğunu hesablamaq mümkündür.
3. Korpus dilçiliyi: Böyük həcmli mətn bazalarından istifadə etməklə dil hadisələrinin statistik və riyazi təhlilini həyata keçirir.
4. Hesablayıcı və ya kompüter dilçiliyi: Dil məlumatlarının kompüter vasitəsilə avtomatik işlənməsi ilə məşğul olur. Maşın tərcüməsi, avtomatik nitq tanıma, mətnin avtomatik təhlili, orfoqrafik yoxlama və s. bu sahə ilə bağlıdır.
5. Riyazi-statistik modelləşdirmə: Dil hadisələrinin ehtimal və statistik modellər vasitəsilə təsvir edilməsini nəzərdə tutur.

Riyazi dilçiliyin inkişafının mühüm nəticələrindən biri hesablayıcı dil modellərinin meydana gəlməsi olmuşdur. Hesablayıcı model dilin müəyyən xüsusiyyətlərini kompüterin emal edə biləcəyi formal şəkildə təsvir edən modeldir.

Burada əsas məsələ budur: insanın dili necə bildiyini və istifadə etdiyini kompüterə necə "öyrətmək" olar? Bunun üçün dilin müxtəlif səviyyələri modelləşdirilməyə başlanmışdır. Məsələn: sözlərin tanınması; sözlərin morfoloji quruluşunun müəyyənləşdirilməsi; cümlənin sintaktik quruluşunun təhlili; sözlərin mənasının müəyyənləşdirilməsi; sözlər arasında əlaqələrin müəyyənləşdirilməsi; nitqin tanınması və yaradılması; mətnlərin başqa dilə tərcüməsi. Beləliklə, dilçilik, riyaziyyat, informatika qarşılıqlı əlaqəyə girmiş və müasir hesablama dilçiliyinin, yəni kompüter dilçiliyinin əsası qoyulmuşdur.

Bu sahənin inkişafında Noam Çomskinin formal qrammatika nəzəriyyəsi xüsusi əhəmiyyət daşıyır. Çomski 1950-ci illərdən

başlayaraq təbii dillərin formal qaydalar sistemi kimi təsvir edilməsinə böyük töhfə vermişdir. Çomskinin yanaşmasına görə, dil sonsuz sayda cümlə yaratmağa imkan verən müəyyən qaydalar sisteminə malikdir. Məsələn, məhdud sayda söz və qrammatik qaydalar vasitəsilə nəzəri olaraq sonsuz sayda cümlə yaratmaq mümkündür. Bu fikir kompüter dilçiliyi üçün çox əhəmiyyətli idi. Çünki dilin qaydalarını formal şəkildə təsvir etmək onları alqoritmə çevirməyə imkan verirdi. Çomskinin formal qrammatikalar və generativ qrammatika haqqında ideyaları sonralar sintaktik analiz sistemlərinin inkişafına ciddi təsir göstərmişdir (Qəhrəmanova, 2026a).

Hesablayıcı dilçiliyin inkişafında Andrey Markovun ehtimal nəzəriyyəsinə əsaslanan modelləri də mühüm rol oynamışdır. Dil haqqında belə bir fikir irəli sürmək mümkündür: müəyyən sözün meydana gəlmə ehtimalı ondan əvvəl gələn sözlərdən asılıdır. Məsələn: “Mən ...” ifadəsindən sonra “kitab”, “məktəbə”, “səni” və s. kimi sözlərin gəlmə ehtimalları eyni deyil. Bu prinsip əsasında Markov modelləri və daha sonra n-qram modelləri yaradıldı. Məsələn, bigram modelində sözün ehtimalı əvvəlki bir sözlə əlaqələndirilir: “qırmızı alma” ifadəsində “alma” sözünün “qırmızı” sözündən sonra gəlmə ehtimalı hesablanır. Trigram modelində isə əvvəlki iki söz nəzərə alınır: “Mən kitab oxuyuram” kimi ardıcıllıqların ehtimalları statistik olaraq hesablanır. Bu modellər sonralar avtomatik nitq tanıma, maşın tərcüməsi və mətn proqnozlaşdırılması kimi sistemlərdə istifadə edilmişdir.

Süni intellekt (SI) insanın düşünmə, öyrənmə, qərarvermə, dil anlama və problem həll etmə kimi intellektual fəaliyyətlərini kompüter sistemlərində modelləşdirməyə çalışan informatika istiqamətidir. Dil süni intellekt üçün ən mürəkkəb sahələrdən biridir. Çünki təbii dil: çoxmənalıdır; kontekstdən asılıdır;

sinonim və antonimlərə malikdir; məcazi mənalar yaradır; qrammatik cəhətdən mürəkkəbdir; insanın dünyaya dair bilikləri ilə əlaqəlidir. Bu səbəbdən kompüterə sadəcə qrammatik qaydaları öyrətmək kifayət etmir. Kompüter həmçinin böyük həcmdə dil məlumatından qanunauyğunluqları öyrənməlidir.

Hesablayıcı modellərin inkişafı bir neçə mərhələdən keçmişdir. Bu mərhələləri sadələşdirilmiş şəkildə belə göstərmək olar: 1. Qayda əsaslı sistemlər: İlk sistemlərdə dilin xüsusiyyətləri insan tərəfindən əvvəlcədən müəyyən edilmiş qaydalarla kompüterə verilirdi. Məsələn: Əgər sözün sonuna müəyyən şəkilçi gəlirsə, onun müəyyən qrammatik forması yaranır. Bu yanaşmada sistemin davranışı əvvəlcədən yazılmış qaydalardan asılı idi. Bu yanaşmanın üstünlüyü bundan ibarət idi ki, qaydalar aydın və izaholunandır, çatışmazlığı isə budur ki, təbii dilin bütün mürəkkəbliyini qaydalarla əhatə etmək çox çətindir. 2. Statistik modellər: Sonralar böyük mətn kolleksiyalarından istifadə edilməyə başlandı. Kompüter dil vahidlərinin işlənmə tezliyini və bir-biri ilə əlaqəsini statistik olaraq öyrənirdi. Beləliklə, sistem: "Bu söz bu kontekstdə hansı ehtimalla işlənir?" kimi suallara cavab verə bilirdi. 3. Maşın öyrənməsi: Növbəti mərhələdə maşın öyrənməsi meydana çıxdı. Burada proqramçı bütün qaydaları ayrıca yazmır. Sistem verilmiş nümunələrdən müəyyən qanunauyğunluqları özü öyrənir. Məsələn, kompüterə çoxlu sayda etiketlənmiş cümlə verilərsə, o, yeni cümlədə sözlərin nitq hissələrini müəyyənləşdirməyi öyrənə bilər.

4. Neyron şəbəkələri: Daha sonra dil emalında süni neyron şəbəkələrindən geniş istifadə edilməyə başlandı. Neyron şəbəkələri insan beyninin neyronlar arasındakı əlaqələrindən müəyyən dərəcədə ilhamlanan hesablama modelləridir. Bu mərhələdə sözlər yalnız ayrıca vahidlər kimi deyil, vektorlarla, yəni çoxölçülü riyazi təsvirlərlə təqdim edilməyə başladı.

Məsələn, “kitab”, “roman”, “jurnal” sözlərinin vektorları semantik yaxınlıqlarını müəyyən dərəcədə əks etdirə bilər (Qəhrəmanova, 2026b).

XXI əsrdə dərin öyrənmə üsullarının inkişafı təbii dilin kompüterlə emalında böyük dəyişiklik yaratdı. Neyron şəbəkələrinin daha mürəkkəb arxitekturaları meydana gəldi. Xüsusilə Transformer arxitekturası müasir dil modellərinin inkişafında mühüm mərhələ oldu. Transformer mətn daxilində sözlərin bir-biri ilə əlaqəsini diqqət mexanizmi vasitəsilə hesablamağa imkan verir. Bunun nəticəsində böyük həcmli mətnlər üzərində öyrədilmiş dil modelləri: mətn yarada; suallara cavab verə; mətnləri ümumiləşdirə; tərcümə edə; mətnin strukturunu təhlil edə; müxtəlif üslublarda mətn yaza; müəyyən kontekstə uyğun söz və ifadələri proqnozlaşdıra bilir.

Müasir böyük dil modelləri riyazi-statistik hesablamalar, maşın öyrənməsi, neyron şəbəkələri və böyük həcmli dil məlumatlarının sintezinə əsaslanır. Riyazi dilçilik təbii dili formal və hesablana bilən obyektə çevirərək kompüter dilçiliyi və təbii dilin emalı (NLP) kimi tətbiqi sahələrin formalaşmasına zəmin yaratmışdır; məsələn, maşın tərcüməsi qayda əsaslı və statistik mərhələlərdən keçərək müasir neyron modellərinə çatmışdır.

Dil hadisələrini formal qrammatika, ehtimal və neyron modelləri vasitəsilə təsvir edən riyazi dilçilik müasir süni intellekt və dil texnologiyalarının əsas nəzəri bazasını təşkil edir.

Ədəbiyyat

Qəhrəmanova, Y. (2026a). Rəqəmsallaşma şəraitində azresurslu dillərin böyük dil modelləri üçün sintaktik və semantik

korpusunun qurulması prinsipləri. *Elmi Tədqiqat*, *6*(8), 21–28. https://doi.org/10.36719/2789-6919/62/21-28

Qəhrəmanova, Y. (2026b). Rəqəmsallaşmanın dilə təsiri: Süni intellektin dildə semantik bütövlüyü və sintaktik adekvatlığı "qavrama" səviyyəsi. *Qədim diyar, 8*(7), 114–120. https://doi.org/10.36719/2706-6185/62/114-120

Humanitar və İctimai Elmlər adlı Tezislər Toplusu / 22 Noyabr 2026 / 72-77
Collection of Theses on Humanitarian and Social Sciences / 22 November 2026 / 72-77
DOI: https://doi.org/10.36719/2706-6185/IV/HİETT/2026

Şahmat təliminin ibtidai sinif şagirdlərinin intellektual inkişafında rolu

Turkan Həsənova

Açar sözlər: *şahmat təhsili, ibtidai məktəb, intellektual inkişaf, məntiqi təfəkkür, diqqət, yaddaş, koqnitiv bacarıqlar*
Keywords: *chess education, primary school, intellectual development, logical thinking, attention, memory, cognitive skills*

Müasir təhsil sistemində şagirdlərin müstəqil düşünmək, problemləri təhlil etmək və əsaslandırılmış qərarlar qəbul etmək bacarıqlarının inkişafı xüsusi əhəmiyyət daşıyır. Məhz ibtidai mərhələ uşağın idrak fəaliyyətinin və öyrənmə vərdişlərinin formalaşdığı həssas dövrdür (Məmmədzadə, 2024). Bu prosesdə tətbiq edilən fəal təlim vasitələri sırasında şahmat özünəməxsus yer tutur. Şahmat təlimi zamanı şagird lövhədəki vəziyyəti müşahidə edir, rəqibin ehtimal olunan gedişlərini nəzərə alır və strategiya qurur ki, bu da diqqət, yaddaş və məntiqi əlaqələrin inkişafına şərait yaradır. Bu proseslər diqqətin cəmləşdirilməsi, işçi yaddaşdan istifadə, məntiqi əlaqələrin müəyyən edilməsi və alternativ həll yollarının müqayisəsi ilə müşayiət olunur.

Bununla yanaşı, şahmatın əqli inkişafa təsiri qiymətləndirilərkən ailə, müəllim hazırlığı kimi xarici amillər nəzərə alınmalı və empirik tədqiqatlara istinad edilməlidir.

Azerbaijan Sports Academy, Baku, Azerbaijan
E-poçt: turkan.hasanova@sport.edu.az

İbtidai sinif yaşlarında uşaqların əyani təsvirlərə meyilli olması baxımından isə şahmat lövhəsi və oyun vəziyyətləri mücərrəd anlayışları konkret fəaliyyətlə əlaqələndirməyə əlverişli zəmin yaradır.

Şahmat təliminin nəzəri əsaslarından biri də metakoqnitiv bacarıqların, yəni insanın öz düşünmə prosesini izləmək və qiymətləndirmək qabiliyyətinin inkişafıdır. Şagird oyundan sonra etdiyi səhvləri araşdırdıqda, hansı məlumatı nəzərə almadığını müəyyənləşdirdikdə və növbəti dəfə hansı strategiyanı seçəcəyini planlaşdırdıqda öz fəaliyyətini təhlil etməyi öyrənir. Bu bacarıq yalnız şahmatda deyil, müxtəlif təlim tapşırıqlarının yerinə yetirilməsində də əhəmiyyətlidir.

Bununla belə, nəzəri baxımdan şahmatın müəyyən idrak proseslərini məşq etdirməsi həmin bacarıqların bütün təhsil sahələrində eyni dərəcədə inkişaf edəcəyini sübut etmir. Şahmat təliminin pedaqoji səmərəliliyi onun məqsədindən, məzmunundan, təşkilindən və digər öyrənmə fəaliyyətləri ilə əlaqələndirilməsindən asılıdır.

Məntiqi təfəkkür hadisələr arasında əlaqələrin müəyyənləşdirilməsi, məlumatların müqayisəsi, səbəb-nəticə münasibətlərinin aşkarlanması və nəticələrin əsaslandırılması ilə bağlıdır. Şahmat oyunu bu bacarıqların tətbiqi üçün əlverişli mühit yaradır. Oyunda hər bir gediş mövcud vəziyyəti dəyişir və növbəti qərarların xarakterinə təsir göstərir. Buna görə də şagird təkcə hazırkı vəziyyəti deyil, mümkün dəyişiklikləri də nəzərə almağa çalışır.

Şahmatda problem həlletmə prosesi bir neçə mərhələdən ibarətdir. İlk mərhələdə şagird lövhədəki vəziyyəti müşahidə edir və problemin mahiyyətini müəyyənləşdirir. Sonra mümkün

gedişləri seçir, onların üstünlüklərini və risklərini müqayisə edir, uyğun variantı tətbiq edir və nəticəni qiymətləndirir. Bu ardıcıllıq problem həlletmənin ümumi məntiqinə uyğundur.

İbtidai siniflərdə bu bacarıqların inkişafı üçün mürəkkəb şahmat kombinasiyalarından istifadə etmək zəruri deyil. Əksinə, sadə və yaşa uyğun tapşırıqlar daha məqsədəuyğundur. Məsələn, şagirdə şahmat taxtasında müəyyən fiqurun hərəkət edə biləcəyi xanaları tapmaq, fiquru təhlükədən qorumaq və ya bir gedişdə sadə taktiki həll müəyyənləşdirmək tapşırıla bilər. Belə fəaliyyətlər şagirdin diqqətlə müşahidə aparmasını, qaydaları tətbiq etməsini və nəticə çıxarmasını tələb edir.

Şahmat məşğələlərində alternativlərin müqayisəsi də mühüm əhəmiyyət daşıyır. Şagird eyni vəziyyətdə bir neçə mümkün gedişin olduğunu gördükdə, onların hər birinin nəticəsini düşünməyə çalışır. Bu, tələsik qərar vermək əvəzinə mövcud imkanları nəzərdən keçirmək vərdişini formalaşdıra bilər. Müəllim şagirdin seçdiyi gedişi əsaslandırmasını tələb etməklə onun müstəqil mühakimə yürütməsini dəstəkləyə bilər.

Şahmatın problem həlletmə bacarıqlarına təsiri ilə bağlı elmi tədqiqatlar müəyyən müsbət nəticələr göstərsə də, bu nəticələr bütün hallarda eyni səviyyədə təsdiqlənmir. Sala və Gobet tərəfindən aparılmış meta-analizdə şahmat təliminin akademik və idrak nəticələrinə təsiri araşdırılmış, bəzi müsbət nəticələr müəyyən edilsə də, tədqiqatların metodoloji məhdudiyyətləri və nəşr qərəzi ehtimalı da diqqətə çatdırılmışdır. Müəlliflər şahmat təliminin digər sahələrdəki uğurlara təsirini qiymətləndirərkən daha ciddi nəzarət qrupları və keyfiyyətli tədqiqat dizaynlarının vacibliyini vurğulamışlar.

Bu nəticələr göstərir ki, şahmatın məntiqi təfəkkürün inkişafında rolu onun birbaşa öyrətdiyi əməliyyatlar çərçivəsində daha əsaslı şəkildə izah oluna bilər. Şagird şahmat tapşırıqlarını həll edərkən analiz, müqayisə və nəticə çıxarma fəaliyyətlərini təcrübədən keçirir. Lakin həmin bacarıqların riyaziyyat və ya ana dili dərslərində avtomatik tətbiq olunması üçün müəllim onların fənlərarası əlaqəsini məqsədyönlü şəkildə qurmalıdır.

İbtidai sinif şagirdlərinin təlim uğuru diqqət və yaddaş bacarıqlarından asılıdır ki, şahmat bu proseslərin məşq etdirilməsi üçün əlverişli mühit yaradır. Şahmat oyununda fiqurların izlənilməsi və rəqibin gedişlərinin qiymətləndirilməsi uşaqlarda diqqətliliyi artırır. Eyni zamanda, qaydaların, terminlərin və taktiki nümunələrin yadda saxlanılması biliklərin qorunması və zəruri anda tətbiqi baxımından yaddaşı fəal şəkildə inkişaf etdirir.

Bununla yanaşı, şahmatda təcrübəli oyunçuların yaddaş üstünlüyünü yalnız ümumi yaddaş qabiliyyəti ilə izah etmək düzgün olmazdı. Tədqiqatçıların şahmat ustalarının düşünmə fəaliyyəti ilə bağlı araşdırmaları göstərmişdir ki, oyunçuların mövqeləri qavraması və qərar verməsi sahəyə aid biliklərdən, nümunələrin tanınmasından və təcrübədən əhəmiyyətli dərəcədə asılıdır (De Groot, 1978). Bu baxımdan şahmat təlimində yaddaşın inkişafı xüsusi biliklərin mənimsənilməsi ilə sıx bağlıdır.

Şahmat təliminin ibtidai sinif şagirdlərinin riyazi təfəkküründün inkişafına təsiri xüsusi tədqiqat marağı doğuran məsələlərdəndir. Şahmat lövhəsinin quruluşu, xanaların koordinatları, fiqurların hərəkət istiqamətləri və gedişlərin ardıcıllığı riyazi anlayışlarla əlaqələndirilə bilər. Bu xüsusiyyətlər şagirdlərə məkan münasibətlərini anlamaq,

istiqamətləri müəyyənləşdirmək, ardıcıllıqları izləmək və məntiqi nəticələr çıxarmaq üçün praktik imkanlar yaradır.

Bununla belə, şahmatın riyazi nailiyyətlərə təsirini yalnız məkan təfəkkürü və məntiqi əməliyyatlarla əlaqələndirmək kifayət deyil. Riyaziyyat dərslərində uğur qazanmaq üçün ədədi biliklər, hesablamalar, riyazi dilin mənimsənilməsi və müxtəlif tipli məsələlərin həlli də tələb olunur. Şahmat bu bacarıqların hamısını birbaşa formalaşdırmır. Buna görə də şahmat təliminin riyazi təhsilə töhfəsi müəllimin oyun tapşırıqlarını konkret təlim məqsədləri ilə necə əlaqələndirməsindən asılıdır.

Şahmatın şagirdlərin əqli inkişafına müsbət töhfə verməsi üçün təlim prosesi yaş xüsusiyyətlərinə, bilik səviyyəsinə və fərdi öyrənmə tempinə uyğun qurulmalıdır. İbtidai siniflərdə uşaqların diqqət müddəti, təcrübəsi və abstrakt düşünmə imkanları fərqləndiyinə görə bütün şagirdlərə eyni mürəkkəblikdə tapşırıqların verilməsi məqsədəuyğun deyil.

Şahmat təlimi ibtidai sinif şagirdlərinin əqli inkişafını dəstəkləmək üçün mühüm pedaqoji imkanlara malikdir. Oyunun mahiyyətindən irəli gələn müşahidə, müqayisə, təhlil, alternativlərin qiymətləndirilməsi və qərarvermə fəaliyyətləri uşaqların məntiqi təfəkkürünün və problem həlletmə bacarıqlarının inkişafına şərait yaradır. Eyni zamanda, şahmat qaydalarının mənimsənilməsi, oyun vəziyyətlərinin yadda saxlanılması və əvvəlki təcrübənin yeni şəraitdə tətbiqi diqqət və yaddaşın müəyyən komponentlərini məşq etdirməyə imkan verir.

Ədəbiyyat

De Groot, A. D. (1978). *Thought and choice in chess* (2nd ed.). Mouton Publishers.

Məmmədzadə, M. (2024). İbtidai siniflərdə yeni təlim texnologiyalarından istifadənin pedaqoji məsələləri. *Məktəbəqədər və ibtidai təhsil*, (1), 39–49. https://ppe-journal.edu.az/az/annotation/mujkan-memmedzade-1105

Humanitar və İctimai Elmlər adlı Tezislər Toplusu / 22 Noyabr 2026 / 78-82
Collection of Theses on Humanitarian and Social Sciences / 22 November 2026 / 78-82
DOI: https://doi.org/10.36719/2706-6185/IV/HİETT/2026

Uşaqların davranış problemlərində ailə və təhsil mühitinin rolu

Jalə Məmmədova

Açar sözlər: *uşaq psixologiyası, davranış problemləri, ailə münasibətləri, valideyn tərbiyəsi, təhsil mühiti, müəllim–şagird münasibətləri*
Keywords: *child psychology, behavioral problems, family relationships, parenting, educational environment, teacher–student relationships*

Uşaqlarda davranış problemləri onların emosional inkişafına, sosial münasibətlərinə və təlim fəaliyyətinə təsir göstərən mühüm psixoloji məsələlərdəndir. Bu problemlərin formalaşmasında uşağın fərdi xüsusiyyətləri ilə yanaşı, ailədaxili münasibətlər, valideynlərin tərbiyə yanaşmaları, müəllim-şagird münasibətləri və məktəbin sosial-psixoloji mühiti də əhəmiyyətli rol oynayır. Uşaqlıq dövrü şəxsiyyətin, emosional tənzimləmə bacarıqlarının və sosial davranış formalarının inkişaf etdiyi mühüm mərhələdir. Bu dövrdə uşaqlar öz hisslərini ifadə etməyi, başqaları ilə münasibət qurmağı, qaydalara əməl etməyi və qarşılaşdıqları çətinliklərin öhdəsindən gəlməyi öyrənirlər. Lakin inkişaf prosesində bəzi uşaqlarda aqressiv reaksiyalar, inadkarlıq, impulsivlik, diqqətin tənzimlənməsində çətinliklər, sosial münasibətlərdən uzaqlaşma və qaydalara əməl etməkdə problemlər müşahidə oluna bilər.

Azərbaycan Dövlət Pedaqoji Universiteti, Bakı, Azərbaycan
E-poçt: m_jale@rambler.ru

Belə davranışlar hər zaman psixoloji pozuntu əlaməti hesab edilməməlidir. Onların qiymətləndirilməsi zamanı uşağın yaşı, inkişaf səviyyəsi, davranışın davametmə müddəti, müxtəlif mühitlərdə müşahidə olunması və gündəlik fəaliyyətə təsiri nəzərə alınmalıdır. Bəzi davranışlar inkişaf mərhələsinin xüsusiyyətləri ilə bağlı olduğu halda, digərləri uşağın emosional gərginliyini, qarşılanmamış ehtiyaclarını və ya əlavə dəstəyə ehtiyacını göstərə bilər.

Uşağın davranışını anlamaq üçün onu yalnız fərdi xüsusiyyətləri əsasında qiymətləndirmək kifayət deyil. Ailə və təhsil mühiti uşağın gündəlik həyatının əsas hissəsini təşkil etdiyindən, bu mühitlərdəki münasibətlərin və tələblərin davranışa təsirinin araşdırılması xüsusi əhəmiyyət daşıyır.

Ailə uşağın ilk sosiallaşma mühitidir. Uşaq ilkin emosional təcrübələrini, ünsiyyət formalarını və münasibət qurma üsullarını əsasən ailə daxilində mənimsəyir. Valideynlərin uşağa münasibəti, ailədaxili ünsiyyətin xarakteri və tərbiyə üsulları onun davranışlarının formalaşmasına təsir göstərə bilər. Ailədə ardıcıl olmayan qaydalar, həddindən artıq sərt nəzarət, uşağın emosiyalarının nəzərə alınmaması və münaqişələrin gərgin şəkildə yaşanması bəzi uşaqlarda emosional və davranış çətinliklərinin səbəbi ola bilər. Digər tərəfdən, uşağa aydın sərhədlərin müəyyənləşdirilməsi, onun fikirlərinə hörmətlə yanaşılması, emosional dəstək göstərilməsi və müsbət davranışlarının təşviq edilməsi daha sağlam davranış vərdişlərinin inkişafını dəstəkləyə bilər.

Ailə daxilində uşağın davranışına yalnız cəza və qadağalar vasitəsilə təsir göstərməyə çalışmaq problemin səbəblərini anlamaq imkanlarını məhdudlaşdıra bilər. Məsələn, tez-tez əsəbiləşən uşağa yalnız “özünü düzgün apar” demək əvəzinə,

onun hansı situasiyalarda gərginləşdiyini, nəyi ifadə etməkdə çətinlik çəkdiyini və hansı dəstəyə ehtiyac duyduğunu araşdırmaq daha faydalıdır. Bununla yanaşı, davranış çətinliklərini yalnız valideyn tərbiyəsi ilə izah etmək düzgün olmazdı. Uşağın temperament xüsusiyyətləri, neyroinkişaf fərqlilikləri, yuxu rejimi, sağlamlıq vəziyyəti, sosial münasibətləri və həyatında baş verən dəyişikliklər də nəzərə alınmalıdır.

Ailə ilə yanaşı, məktəbin də uşaqların davranışlarının formalaşmasında rolu danılmazdır. Məktəb uşağın yalnız bilik əldə etdiyi deyil, həm də sosial münasibətlər qurduğu, özünü qiymətləndirməyi öyrəndiyi və davranışlarını tənzimlədiyi mühitdir. Müəllimin ünsiyyət tərzi, sinifdəki qaydalar, təlim tapşırıqlarının xüsusiyyətləri, həmyaşıdlarla münasibətlər və uşağın məktəbə aidlik hissi onun davranışına təsir göstərə bilər. Uşağın səhvlərinə qarşı alçaldıcı münasibət, davamlı müqayisə, qeyri-müəyyən gözləntilər və cəza yönümlü yanaşmalar bəzi hallarda narahatlığın, qarşıdurmanın və təlimdən yayınmanın artmasına gətirib çıxara bilər. Əksinə, aydın qaydalar, ədalətli münasibət, emosional təhlükəsizlik və uşağın səylərinin qiymətləndirilməsi müsbət davranışların formalaşmasına kömək edə bilər.

Uşağın davranışının müxtəlif mühitlərdə necə dəyişdiyini anlamaq üçün ailə və məktəb arasında əməkdaşlıq vacibdir. Uşaq evdə və məktəbdə fərqli tələblərlə, münasibətlərlə və emosional vəziyyətlərlə qarşılaşa bilər. Buna görə də davranış haqqında yalnız bir mənbədən əldə olunan məlumat əsasında nəticə çıxarmaq məhdud yanaşma olardı. Ailə və məktəb arasında müntəzəm, qarşılıqlı hörmətə əsaslanan ünsiyyət uşağın güclü tərəflərini və çətinliklərini daha dolğun anlamağa imkan verir.

Əməkdaşlıq zamanı valideyn və müəllimin əsas məqsədi bir-birini günahlandırmaq deyil, uşağın davranışını anlamaq və dəstək strategiyalarını uyğunlaşdırmaq olmalıdır. Məsələn, uşaq həm evdə, həm də məktəbdə tapşırıqları yerinə yetirməkdən yayınırsa, bu davranışın hansı hallarda baş verdiyi, hansı tapşırıqlarda artdığı və hansı dəstək üsullarının faydalı olduğu birlikdə araşdırıla bilər. Davranışın izlənməsi üçün qısa müşahidə qeydləri aparmaq məqsədəuyğundur. Bu qeydlərdə davranışdan əvvəl baş verən hadisə, davranışın özü və sonrakı nəticə göstərilə bilər. Belə yanaşma davranışın mümkün səbəblərini daha sistemli araşdırmağa və uyğun müdaxiləni planlaşdırmağa kömək edir.

Uşaqlarda davranış çətinliklərinin azaldılması üçün ailə və təhsil mühitində bir-birini tamamlayan tədbirlərin həyata keçirilməsi vacibdir.

- Uşaqla açıq, sakit və yaşına uyğun ünsiyyət qurulmalıdır.
- Ailədə və məktəbdə qaydalar aydın və ardıcıl olmalı, uşağa onların səbəbi izah edilməlidir.
- Müsbət davranışlar və göstərilən səylər konkret şəkildə qiymətləndirilməlidir.
- Uşağın emosiyalarını ifadə etməsinə imkan yaradılmalı, hissləri kiçildilmədən dinlənilməlidir.
- Tapşırıqlar uşağın inkişaf səviyyəsinə uyğunlaşdırılmalı, ehtiyac olduqda kiçik mərhələlərə bölünməlidir.
- Cəzalandırıcı və alçaldıcı ünsiyyətdən uzaq durulmalı, davranışın nəticələri sakit və aydın şəkildə izah edilməlidir.
- Həmyaşıdlar arasında sağlam münasibətlər dəstəklənməlidir.
- Valideyn və müəllim uşağın davranışı barədə konkret müşahidələri paylaşmalıdır.
- Uşaq üçün ümumi və real hədəflər müəyyənləşdirilməlidir.

- Davamlı, güclü və gündəlik fəaliyyətə mane olan çətinliklər zamanı məktəb psixoloquna və zərurət olduqda digər müvafiq mütəxəssislərə müraciət edilməlidir.

Bu kimi tədbirlərin məqsədi uşağın davranışını sadəcə nəzarətdə saxlamaq deyil, onun özünü tənzimləmə, emosiyalarını ifadə etmə, problem həll etmə və sosial münasibətlər qurma bacarıqlarını inkişaf etdirməkdir.

Ailə və məktəb arasında əməkdaşlığın gücləndirilməsi, aydın qaydaların müəyyənləşdirilməsi, emosional dəstəyin göstərilməsi və müsbət davranışların təşviqi profilaktik baxımdan əhəmiyyətlidir. Nəticə etibarilə, uşağın davranış çətinliklərinə kompleks yanaşma onun emosional rifahının, sosial uyğunlaşmasının və təlimdə iştirakının dəstəklənməsinə imkan yaradır. Bu yanaşma uşağın fərdi ehtiyaclarının daha düzgün müəyyənləşdirilməsinə və ailə, məktəb və mütəxəssislər arasında məqsədyönlü əməkdaşlığın qurulmasına xidmət edir.

Humanitar və İctimai Elmlər adlı Tezislər Toplusu / 22 Noyabr 2026 / 83-87
Collection of Theses on Humanitarian and Social Sciences / 22 November 2026 / 83-87
DOI: https://doi.org/10.36719/2706-6185/IV/HİETT/2026

Satış əməliyyatlarının riskə əsaslanan auditi: avtomobil ticarəti müəssisəsi nümunəsində BAS 315 və BAS 240 tələblərinin tətbiqi

Kənan Xudaverdiyev

Açar sözlər: *riskə əsaslanan audit, gəlirin tanınması, fırıldaqçılıq riski, rəhbərliyin təsdiqləri, analitik prosedurlar*
Keywords: *risk-based audit, revenue recognition, fraud risk, management assertions, analytical procedures*

Satış gəliri maliyyə hesabatlarının istifadəçiləri üçün ən diqqət çəkən göstərici olduğundan həm səhv, həm də qəsdli təhrif riskinin ən yüksək olduğu sahələrdən biridir. BAS 240 auditordan gəlirin tanınmasında fırıldaqçılıq riskinin mövcudluğunu ilkin ehtimal kimi qəbul etməyi, bu ehtimalı təkzib etdikdə isə əsaslarını sənədləşdirməyi tələb edir (IAASB, 2024).

Tədqiqatda Beynəlxalq Audit Standartlarının (BAS 240, 315, 330, 505, 520) müddəaları, "Auditor xidməti haqqında" Qanun (1994), ACFE-nin (2024) beynəlxalq statistikası, Dövlət Gömrük Komitəsinin (2024; 2026) məlumatları və şərti maliyyə göstəriciləri əsasında müqayisəli təhlil və daxili riskin bal şkalası ilə qiymətləndirilməsi metodu tətbiq edilmişdir.

Bakı Biznes Universiteti, Magistrant, Bakı, Azərbaycan
E-poçt: kenan9117@icloud.com

Akademik tədqiqatlar da gəlir göstəricilərinin ən çox təhrif olunan maddələr sırasında olduğunu göstərir (Dechow et al., 2011). ACFE-nin 138 ölkədən 1 921 halı əhatə edən tədqiqatına görə, maliyyə hesabatlarının saxtalaşdırılması halların cəmi 5%-ni təşkil etsə də, median itki 766 min ABŞ dolları ilə ən yüksək olmuşdur. Qrafik 1-də bu məlumatlar əks edilmişdir.



Qrafik 1

Fırıldaqçılıq sxemləri üzrə median itki, min ABŞ dolları (mötərizədə halların payı)

Mənbə. ACFE (2024) məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Mövcud praktikada satış əməliyyatlarının auditi çox vaxt ilkin sənədlərdən hesabatlara doğru ardıcıl yoxlama ilə aparılır və yoxlamanın həcmi bütün istiqamətlər üçün eyni götürülür (Abbasov, 2013). BAS 315-in yenidən işlənmiş redaksiyası isə daxili riskin hər bir təsdiq səviyyəsində mürəkkəblik, subyektivlik, dəyişiklik, qeyri-müəyyənlik və rəhbərliyin qərəzinə həssaslıq amilləri əsasında qiymətləndirilməsini tələb edir (IAASB, 2024). Bu yanaşma diler müəssisəsinə tətbiq edildikdə üç satış istiqamətinin risk profilinin fərqli olduğu aşkar olunur (Qrafik 2).

Avtomobil satışında yüksək dəyərli və az saylı əməliyyatlar il sonu ətrafında gəlirin erkən tanınması və icra öhdəlikləri arasında əməliyyat qiymətinin düzgün bölüşdürülməməsi riskini yaradır (IASB, 2014). Ehtiyat hissələri üzrə risklər orta səviyyədədir və əsasən anbar uçotu ilə satış qeydlərinin uyğunsuzluğundan qaynaqlanır (Turişeva, 2013).

Audit cavabları da riskin səviyyəsinə uyğun fərqləndirilməlidir (IAASB, 2024). Yüksək riskli sahələrdə hesabat tarixindən əvvəlki və sonrakı 10 iş günü ərzindəki bütün avtomobil satışları üzrə təhvil-qəbul aktları ilə gəlir yazılışlarının tutuşdurulması, iri debitorlardan xarici təsdiq məktublarının alınması (BAS 505) və il sonuna yaxın verilmiş qeyri-standart mühasibat yazılışlarının yoxlanılması təklif olunur. Orta riskli sahələrdə mahiyyət üzrə analitik prosedurlar səmərəlidir: servis gəlirinin gözlənilən həcmi iş saatlarının sayı ilə norma saat tarifinin hasili kimi hesablanır və faktiki göstəricidən kənarlaşma müəyyən edilmiş həddi aşdıqda əlavə araşdırma aparılır (IAASB, 2024).



Qrafik 2

Satış istiqamətləri və rəhbərliyin təsdiqləri üzrə daxili riskin qiymətləndirilməsi (1 – aşağı, 5 – yüksək)

Mənbə: Müəllif tərəfindən tərtib edilmişdir.

Gömrük statistikasına görə, idxal olunan bir minik avtomobilinin orta statistik dəyəri 2023-cü ildə təxminən 17,2 min, 2025-ci ildə isə 18,8 min ABŞ dolları olmuşdur (Dövlət Gömrük Komitəsi, 2024; 2026). Alış qiymətlərinin artdığı belə şəraitdə müəssisənin ümumi mənfəət marjasının 15,91%-dən 18,36%-ə yüksəlməsi (şərti məlumatlar) auditor üçün izah tələb edən kənarlaşmadır: o, qiymət siyasətinin və satış strukturunun dəyişməsi ilə yanaşı, satışın maya dəyərinin natamam əks etdirilməsi ilə də bağlı ola bilər. ACFE məlumatlarına görə fırıldaqçılıq hallarının 43%-i məlumat verən şəxslərin siqnalları, 14%-i daxili audit, yalnız 3%-i isə kənar audit vasitəsilə aşkarlanır (ACFE, 2024); bu, kənar auditin daxili nəzarət sistemi və məlumatların proaktiv monitorinqi ilə əlaqəli qurulmasının vacibliyini göstərir.

Satış əməliyyatlarının auditində vahid yoxlama həcmindən riskə əsaslanan modelə keçid audit resurslarını əhəmiyyətli təhrif ehtimalı yüksək olan sahələrə yönəltməyə imkan verir. AUTO Azərbaycan MMC üçün təklif olunan model üç elementdən ibarətdir: satış istiqamətləri və təsdiqlər üzrə daxili risk matrisi; riskin səviyyəsinə uyğun prosedurlar toplusu (dövrə aidlik testi, xarici təsdiqləmə, mühasibat yazılışlarının yoxlanılması, mahiyyət üzrə analitik prosedurlar); xarici bazar məlumatlarından istifadə edən analitik göstəricilər sistemi. Modelin tətbiqi gəlirin tanınmasında fırıldaqçılıq riski ehtimalına sübutlarla əsaslandırılmış cavab verilməsini təmin edər və auditor rəyinin etibarlılığını yüksəldər.

Ədəbiyyat

Abbasov, İ. M. (2013). *Audit*. BBU.

ACFE. (2024). *Occupational fraud 2024: A report to the nations*. Association of Certified Fraud Examiners. https://legacy.acfe.com/report-to-the-nations/2024/

"Auditor xidməti haqqında" Azərbaycan Respublikasının Qanunu. (1994, 16 sentyabr). https://e-qanun.az/framework/8334

Dechow, P. M., Ge, W., Larson, C. R., & Sloan, R. G. (2011). Predicting material accounting misstatements. *Contemporary Accounting Research*, *28*(1), 17–82. https://doi.org/10.1111/j.1911-3846.2010.01035.x

Dövlət Gömrük Komitəsi. (2024). *Azərbaycan Respublikası xarici ticarətinin gömrük statistikası (01.01.2023–31.12.2023)*. https://customs.gov.az/uploads/foreign/2023/2023_12.pdf

Dövlət Gömrük Komitəsi. (2026). *Azərbaycan Respublikası xarici ticarətinin gömrük statistikası (01.01.2025–31.12.2025)*. https://customs.gov.az/uploads/foreign/2025/2025_12.pdf

IAASB. (2024). *Handbook of international quality management, auditing, review, other assurance, and related services pronouncements (2023–2024 ed.)*. IFAC. https://www.iaasb.org/

IASB. (2014). *IFRS 15 Revenue from Contracts with Customers*. IFRS Foundation. https://www.ifrs.org/issued-standards/list-of-standards/ifrs-15-revenue-from-contracts-with-customers/

Turişeva, T. B. (2013). Osobennosti audita torqovıh orqanizatsiy. *Aktualnıye problemı sotsialnoy rabotı, ekonomiki i prava*, 197–211. https://cyberleninka.ru/

Humanitar və İctimai Elmlər adlı Tezislər Toplusu / 22 Noyabr 2026 / 88-91
Collection of Theses on Humanitarian and Social Sciences / 22 November 2026 / 88-91
DOI: https://doi.org/10.36719/2706-6185/IV/HİETT/2026

İnformasiya kommunikasiya texnologiyalarının təlim prosesinin səmərəliliyinə təsiri

Aişə İbrahimova

Açar sözlər: *informasiya kommunikasiya texnologiyaları, təlim prosesi, təlimin səmərəliliyi, informasiya mədəniyyəti, interaktiv metodlar, təhsilin informasiyalaşdırılması, təlim texnologiyaları*
Keywords: *information and communication technologies, learning process, learning effectiveness, information culture, interactive methods, informatization of education, teaching technologies*

Müasir dövrdə təhsil cəmiyyətin informasiyalaşdırılması prosesinin əsas obyektlərindən biri kimi çıxış edir. Elmi-texniki tərəqqi, informasiya axınının artması və rəqəmsal mühitin genişlənməsi təhsil sisteminin qarşısına yeni tələblər qoyur. Azərbaycanda da təhsilin informasiyalaşdırılması dövlət siyasətinin prioritet istiqamətlərindən biri olmuş, İKT-nin təhsil sisteminə inteqrasiyası və təlim məzmununun modernləşdirilməsi istiqamətində ardıcıl addımlar atılmışdır (Abbasov, 2011). Son illərin statistikası bu prosesin sürətləndiyini göstərir: Dövlət Statistika Komitəsinin məlumatına görə, 2025-ci ilin oktyabr ayına olan vəziyyətə əsasən ölkədə əyani ümumtəhsil məktəblərinin 99,3 faizi kompüterlə təmin olunub, bir il ərzində məktəblərdəki kompüterlərin sayı təxminən 30 faiz artaraq 176 min vahidi ötüb.

Bakı Slavyan Universiteti, Magistrant, Bakı, Azərbaycan
E-poçt: aishaibrahimova96@gmail.com

Bununla belə, ölkə üzrə hələ də orta hesabla bir kompüterə 9 şagird düşür ki, bu da texniki təminatın bərabər paylanması baxımından aradan qaldırılmalı məsələlərdən biridir. Bu şəraitdə müəllimdən yalnız bilik ötürmək deyil, informasiya mühitində sərbəst fəaliyyət göstərmək, pedaqoji məqsədlərə müasir texnologiyalar vasitəsilə nail olmaq tələb olunur. Buna görə İKT-nin təlimin səmərəliliyinə təsirinin pedaqoji təhlili aktual elmi problemdir (Rzayeva və b., 2019).

Yerli tədqiqatçıların fikrincə, təlim prosesinin texnologiyalaşdırılması ənənəvi kütləvi informasiya vasitələrindən elektron sistemlərə və kompüterləşdirilmiş proseslərə keçidi zəruri edir. Bu yanaşmanın tərəfdarları təlimin effektivliyini məhz bu vasitələrdən istifadədə görürlər. Təlim texnologiyası dedikdə isə əvvəlcədən müəyyən edilmiş məqsədə və nəticəyə yönəlmiş, didaktik cəhətdən əsaslandırılmış proses nəzərdə tutulur (Nəzərov, 2012).

Təhsil Nazirliyinin 2024-2025-ci tədris ili üzrə hesabatına əsasən, ölkə üzrə 4246 təhsil müəssisəsi artıq Azərbaycan Təhsil Şəbəkəsinə və internetə qoşulub, rəqəmsal təhsil platforması isə 30 mindən çox pedaqoji işçini və 500 mindən artıq şagirdi əhatə edir – bu rəqəmlər infrastrukturun genişlənməsinin təlim prosesinə real təsirini əks etdirir. İKT təlim prosesinin səmərəliliyinə ilk növbədə təlimin təşkili və idarə olunması baxımından təsir göstərir. Elektron resurslar, təqdimatlar, interaktiv tapşırıqlar və kommunikasiya vasitələri dərsin sürətini, əyaniliyini və müxtəlifliyini artırır.

Şagird mücərrəd anlayışları vizual və interaktiv formada qavradıqda mövzuya marağı güclənir, öyrənmə passiv dinləməkdən fəal fəaliyyətə çevrilir. Eyni zamanda texnoloji vasitələr müəllimə şagirdlərin irəliləyişini izləməyə, çətinlikləri

vaxtında aşkar etməyə və tapşırıqları fərdi səviyyəyə uyğunlaşdırmağa imkan verir (Dadaşova, 2025). Digər mühüm istiqamət şagirdlərdə informasiya mədəniyyətinin və rəqəmsal bacarıqların formalaşmasıdır. Müasir İKT proqramlarında şagirdin məlumatı tapması, onun etibarlılığını qiymətləndirməsi, rəqəmsal mühitdə əməkdaşlıq etməsi və texnologiyadan təhlükəsiz istifadə etməsi əsas təlim nəticələri kimi müəyyən edilir (İbrahimova, 2020).

Eyni zamanda,Texnologiyalar təlimdə əsas məqsəd yox, köməkçi vasitə kimi çıxış edir. İnfrastrukturun genişlənməsinə baxmayaraq, yerli ədəbiyyatda vurğulanır ki, yalnız texniki vasitələrin sayının artırılması təlimin keyfiyyətini avtomatik yüksəltmir (Əliyeva və Məmmədova, 2014).

Səmərəlilik müəllimin metodik və rəqəmsal kompetensiyasından, vasitənin dərsin məqsədinə uyğunluğundan və şagirdin fəal idrak fəaliyyətinin təmin olunmasından asılıdır. Nəticədə, İKT təlim prosesinin səmərəliliyinə təlimin təşkilinin təkmilləşməsi, şagird motivasiyasının artması və informasiya mədəniyyətinin formalaşması istiqamətlərində təsir göstərir. Bu təsirin dayanıqlı olması üçün texnologiyanın təlim məqsədi ilə uzlaşdırılması və müəllimlərin peşəkar hazırlığının gücləndirilməsi vacibdir.

Ədəbiyyat

Abbasov, N. Ə. (2011). *Müasir informasiya-kommunikasiya texnologiyalarının tədris prosesinə tətbiqi*. ADPU Nəşriyyatı.

Dadaşova, Q. (2025). *Tədris prosesində yeni pedaqoji texnologiyaların tətbiqi istiqamətləri*. ADPU Nəşriyyatı.

Əliyeva, F., Məmmədova, Ü. (2014). *Müasir təlim texnologiyaları*. Müəllim.

İbrahimova, S. (2020). *Təhsildə İKT tədris proqramı*. Odlar Yurdu Universiteti Nəşriyyatı.

Nəzərov, A. M. (2012). *Müasir təlim texnologiyaları*. ADPU Nəşriyyatı.

Qafarov, A. (2018). *Təhsildə informasiya və kommunikasiya texnologiyaları*. Elm və təhsil. https://edu.gov.az

Rzayeva, A., Paşayeva, Z., & Əliyeva, T. (2019). *İKT modulu*. Azərbaycan Respublikası Təhsil Nazirliyi. https://e-derslik.edu.az

Humanitar və İctimai Elmlər adlı Tezislər Toplusu / 22 Noyabr 2026 / 92-97
Collection of Theses on Humanitarian and Social Sciences / 22 November 2026 / 92-97
DOI: https://doi.org/10.36719/2706-6185/IV/HİETT/2026

Pedagogical Foundations of the Military-oriented Organization of Physical Education in General Education Schools

Eldar Javanshirov

Keywords: *physical education, military-oriented training, general education school, military-patriotic education, pedagogical technologies*
Açar sözlər: *fiziki tərbiyə, hərbi yönümlü hazırlıq, ümumtəhsil məktəbi, hərbi-vətənpərvərlik tərbiyəsi, pedaqoji texnologiyalar*

In the modern era, it is no longer sufficient to approach the content of physical education solely in terms of teaching sports movements and improving physical performance. The development of students' abilities to behave appropriately in emergency situations, maintain self-control in the face of difficulties, carry out assigned tasks responsibly, and provide mutual support during collective activities is also of considerable importance. The purposeful organization of physical education, its integration with military-patriotic education, and the selection of methods appropriate to students' age-related characteristics play a particularly important role in fostering these qualities.

Azerbaijan Sports Academy, Master's student, Baku, Azerbaijan
E-mail: ecvnshrv@gmail.com

The military-oriented organization of physical education refers to the direction of physical training activities in general education schools towards developing patriotism, discipline, willpower, endurance, responsibility, and safe-behaviour skills in accordance with students' age-related and individual characteristics.

This approach does not imply the mechanical implementation of military training in the school environment. Rather, it is based on the use of the health-promoting, developmental, and educational potential of physical education in accordance with the objectives of general education.

The main directions of state policy in the field of education in the Republic of Azerbaijan provide for the comprehensive development of learners, their upbringing based on national and universal values, and the cultivation of a sense of responsibility towards society (Azərbaycan Respublikasının Təhsil haqqında Qanunu, 2009). From this perspective, the military-patriotic orientation of physical education can be regarded as a pedagogical task associated with promoting healthy lifestyles, strengthening students' attachment to their homeland, and enhancing their sense of social responsibility.

The military-oriented organization of physical education is based on several interrelated pedagogical principles, including purposefulness, systematic organization, continuity, an individualized approach, consideration of age-related characteristics, safety, conscious participation, and active engagement. The integrated application of these principles makes it possible to organize physical training activities not merely as a collection of individual exercises, but as a coherent system of teaching and upbringing.

The military-oriented organization of physical education requires the integration of pedagogical objectives, physical training methods, and educational mechanisms into a unified system. The effectiveness of this system depends less on the number of exercises than on their scientifically grounded selection, proper organization, and the systematic assessment of outcomes.

Military-patriotic education involves fostering in the younger generation a sense of attachment to the homeland, respect for the values of statehood, civic responsibility, and readiness to engage in socially beneficial activities. The effective organization of this process should not be limited to the transmission of theoretical knowledge; it should also encompass students' participation in practical activities and the acquisition of relevant behavioural experience. From this perspective, physical education offers significant pedagogical potential.

When integrating physical education with patriotic education, information concerning national and moral values, the history of the Azerbaijani people, statehood traditions, and civic responsibility towards the homeland can be incorporated into the educational process. Nevertheless, the educational content of physical education sessions should not be limited to the presentation of theoretical information. The primary objective is to create conditions in which these values are reflected in everyday behaviour through responsibility, mutual respect, discipline, and socially beneficial activities.

In this context, one of the main objectives of the military-oriented organization of physical education is to develop students' understanding of the interrelationship between physical and moral preparedness. Being physically fit enables

individuals to maintain their health, preserve their capacity to function in challenging circumstances, and assist others when necessary. Volitional qualities, self-control, and responsibility, in turn, constitute important factors in ensuring the purposeful use of physical capabilities.

Mujkan Mammadova's work on innovative approaches in military education and training technologies integrated with artificial intelligence can be considered a potential theoretical reference for discussing the importance of individualization and the application of modern technologies in the educational process (Məmmədzadə, 2025). The application of this approach to physical education in general education schools highlights such areas as monitoring students' physical development, designing individualized tasks, and analysing learning outcomes. Nevertheless, in order to relate the specific propositions of this author to the findings presented in this article, it is necessary to examine the full text of the work and verify the relevant page references.

The content of military-oriented physical education may encompass the following areas: general physical fitness; activities based on teamwork; discipline and self-regulation skills; awareness of safe behaviour and first aid; the promotion of a healthy lifestyle; and extracurricular physical activities.

The appropriate selection of teaching methods is also essential to the military-oriented organization of physical education. Traditional methods of explanation and demonstration enable students to master the correct execution of physical movements. Practical repetition, games, problem-solving tasks, and collaborative learning methods, in turn, contribute to the consolidation of acquired skills.

The effectiveness of the military-oriented organization of physical education in general education schools depends considerably on teachers' professional competence, pedagogical attitudes, and the nature of their interactions with students. A teacher is not merely an instructor who teaches the execution of physical exercises but also a pedagogical facilitator who motivates students, guides their behaviour, and supports their individual development.

One of the teacher's principal responsibilities in this process is to cultivate students' sustained interest in physical activity. If lessons focus exclusively on meeting physical performance standards and comparing results, students with lower levels of physical fitness may develop a sense of failure and a negative attitude towards the subject. Therefore, teachers should take each student's individual progress into account, compare current achievements with previous performance, and identify realistic opportunities for further development.

The theoretical analysis indicates that the military-oriented organization of physical education in general education schools offers considerable pedagogical potential for promoting students' physical development, fostering volitional qualities, encouraging disciplined behaviour, and strengthening civic responsibility. The effectiveness of this process depends on the appropriate determination of its content, consideration of age-related and individual characteristics, selection of suitable teaching methods, and provision of a safe environment for physical activities.

It would be inappropriate to approach the military-oriented organization of physical education solely in terms of meeting physical performance standards or introducing military-related

activities. This process has a broader scope, encompassing the development of students' self-regulation, responsibility, mutual assistance, teamwork, and ability to overcome difficulties. When integrating military-patriotic education with physical education, the acquisition of national and moral values, the promotion of a healthy lifestyle, and the development of civic consciousness should be pursued in a coordinated and mutually reinforcing manner.

Thus, the military-oriented organization of physical education in general education schools should be structured as a scientifically grounded, systematic, and student-centred pedagogical activity. The implementation of this approach can contribute to creating a favourable educational environment for nurturing young people who are physically healthy, determined, disciplined, responsible, and devoted to their homeland.

References

Azərbaycan Respublikasının Təhsil haqqında Qanunu. (2009, 19 iyun). *Qanun № 833-IIIQ*. https://e-qanun.az/framework/18343

Məmmədzadə, M. (2025). Hərbi təhsildə innovativ yanaşma: Süni intellektlə inteqrasiya olunmuş təlim texnologiyaları. *Süni İntellekt Texnologiyaları və Aerokosmik Problemlər: III Beynəlxalq Elmi-Praktik Konfransın materialları* (87–91). ResearchGate. https://www.researchgate.net/publication/400551153_HRBI_THSILD_INNOVATIV_YANASMA_SUNI_INTELLEKTL_INTEQRASIYA_OLUNMUS_TLIM_TEXNOLOGIYALARI

Humanitar və İctimai Elmlər adlı Tezislər Toplusu / 22 Noyabr 2026 / 98-102
Collection of Theses on Humanitarian and Social Sciences / 22 November 2026 / 98-102
DOI: https://doi.org/10.36719/2706-6185/IV/HİETT/2026

Əlilliyi olan uşaqların ailələrinə sosial xidmətlərin göstərilməsi: problemlər və inkişaf istiqamətləri

Şəmsəddin Abbasov

Açar sözlər: *sosial iş, əlilliyi olan uşaqlar, ailə dəstəyi, sosial xidmətlər, inklüzivlik, reabilitasiya, multidissiplinar yanaşma*
Keywords: *social work, children with disabilities, family support, social services, inclusion, rehabilitation, multidisciplinary approach*

Müasir sosial işin əsas istiqamətlərindən biri də əlilliyi olan uşaqların və onların ailələrinin sosial rifahının təmin edilməsidir. Uşağın inkişafı, təhsil, reabilitasiya və sosial iştirak imkanları yalnız fərdi xüsusiyyətlərdən deyil, həm də ailənin sosial-iqtisadi vəziyyətindən, xidmətlərə çıxış imkanlarından və icmanın münasibətindən asılıdır. Bu araşdırmada əlilliyi olan uşaqların ailələrinə sosial xidmətlərin göstərilməsinin nəzəri və praktiki aspektləri, ailələrin qarşılaşdığı əsas problemlər, sosial işçinin fəaliyyəti və xidmətlərin inkişaf istiqamətləri araşdırılır. Məqalədə ailə yönümlü, hüquqi əsaslı və multidissiplinar yanaşmaların əhəmiyyəti vurğulanır. Ailələrə göstərilən emosional, informasiya, sosial və praktiki dəstək uşağın inkişafına və ailənin həyat keyfiyyətinə müsbət təsir göstərə bilər. Nəticə olaraq, sosial xidmətlərin yalnız uşağın deyil, bütövlükdə ailənin ehtiyaclarına uyğun təşkil edilməsi zəruri hesab olunur.

Bakı Biznes Universiteti, Magistrant, Bakı, Azərbaycan
E-poçt: abbasovsh01@gmail.com

Əlilliyi olan uşaqların sosial müdafiəsi və onların ailələrinə dəstəyin göstərilməsi sosial işin mühüm istiqamətlərindən biridir. Uşağın inkişafı və cəmiyyətə inteqrasiyası yalnız tibbi və reabilitasiya xidmətlərinin mövcudluğu ilə məhdudlaşmır. Ailənin sosial və psixoloji vəziyyəti, maddi imkanları, maariflənmə səviyyəsi və sosial mühit də bu prosesə əhəmiyyətli təsir göstərir. Əlillik müasir yanaşmada yalnız fərdin sağlamlıq vəziyyəti ilə izah edilmir. Birləşmiş Millətlər Təşkilatının Əlilliyi olan şəxslərin hüquqları haqqında Konvensiyasında əlillik uzunmüddətli fiziki, psixi, intellektual və ya hissiyyat pozuntularının müxtəlif maneələrlə qarşılıqlı təsiri nəticəsində şəxsin cəmiyyətdə tam və səmərəli iştirakına əngəl yarada biləcəyi kontekstində nəzərdən keçirilir. Bu yanaşma sosial xidmətlərin əsas məqsədini yalnız yardım göstərməkdən daha geniş müəyyənləşdirir: əsas məqsəd şəxslərin və ailələrin hüquqlarını, müstəqilliyini və sosial iştirakını dəstəkləməkdir.

Əlilliyi olan uşaqların ailələri gündəlik qayğı, təhsil, səhiyyə, reabilitasiya, sosial müdafiə və məşğulluqla bağlı müxtəlif çətinliklərlə qarşılaşa bilirlər. Bu çətinliklərin bir qismi xidmətlərin əlçatanlığı, digər qismi isə cəmiyyətdə mövcud olan stereotiplər və informasiya çatışmazlığı ilə bağlıdır. Buna görə də sosial işçinin fəaliyyəti uşağın fərdi ehtiyaclarının qiymətləndirilməsi ilə yanaşı, ailənin sosial resurslarının müəyyənləşdirilməsini və gücləndirilməsini də əhatə etməlidir.

Məqalənin məqsədi əlilliyi olan uşaqların ailələrinə sosial xidmətlərin göstərilməsinin əsas xüsusiyyətlərini təhlil etmək, mövcud problemləri müəyyənləşdirmək və xidmətlərin inkişafı üçün elmi-praktik istiqamətlər irəli sürməkdir.

1. Əlilliyi olan uşaqların ailələrinin sosial ehtiyacları

Əlilliyi olan uşağın ailədə böyüməsi ailə üzvlərinin gündəlik həyatına, sosial münasibətlərinə və gələcək planlarına təsir göstərə bilər. Ailələr uşağın inkişaf xüsusiyyətləri haqqında kifayət qədər məlumat əldə etmək, uyğun xidmətləri tapmaq və müvafiq mütəxəssislərlə əməkdaşlıq etmək ehtiyacı duyurlar. Ailələrə dəstək yalnız maddi yardım formasında nəzərdən keçirilməməlidir.

Emosional dəstək, valideynlərin maarifləndirilməsi, uşağa qulluqla bağlı praktiki yardım, sosial əlaqələrin gücləndirilməsi və xidmətlərə yönləndirmə də ailənin rifahında mühüm rol oynayır. Ailələrin ehtiyacları uşağın yaşından, əlilliyin xüsusiyyətlərindən, ailənin tərkibindən, yaşayış yerindən və sosial-iqtisadi vəziyyətindən asılı olaraq dəyişə bilər. Sosial xidmətlərin standart və eyni formalı şəkildə göstərilməsi bütün ailələrin ehtiyaclarını tam qarşılamaya bilər. Fərdi yanaşma ailənin konkret vəziyyətinə uyğun xidmət planının hazırlanmasını tələb edir.

2. Sosial işçinin ailə ilə fəaliyyətinin əsas istiqamətləri

Sosial işçinin əlilliyi olan uşaqların ailələri ilə fəaliyyəti bir neçə əsas istiqaməti əhatə edir. İlk istiqamət ehtiyacların qiymətləndirilməsidir. Qiymətləndirmə zamanı yalnız uşağın inkişaf xüsusiyyətləri deyil, ailənin yaşayış şəraiti, sosial dəstək şəbəkəsi, valideynlərin gözləntiləri, mövcud resursları və qarşılaşdıqları maneələr də nəzərə alınmalıdır. Bu proses ailə ilə əməkdaşlıq şəraitində aparılmalı, ailənin fikri və prioritetləri əsas götürülməlidir. İkinci istiqamət məlumatlandırma və yönləndirmədir. Valideynlər sosial xidmətlər, reabilitasiya imkanları, təhsil hüquqları və digər dəstək mexanizmləri haqqında aydın və əlçatan məlumat əldə etməlidirlər. Sosial işçi ailənin ehtiyaclarına uyğun mütəxəssis və xidmətlərə

yönləndirməni təşkil edə bilər. Üçüncü istiqamət ailənin sosial resurslarının gücləndirilməsidir. Ailə üzvləri, qohumlar, icma, valideyn dəstək qrupları və qeyri-hökumət təşkilatları ailənin sosial dəstək şəbəkəsinin formalaşmasında iştirak edə bilər. Dördüncü istiqamət müxtəlif xidmət sahələri arasında əməkdaşlığın təşkilidir. Əlilliyi olan uşaqların ehtiyacları çox vaxt sosial iş, təhsil, səhiyyə və reabilitasiya sahələrinin birgə fəaliyyətini tələb edir. Bu səbəbdən sosial işçi multidissiplinar komandanın üzvü kimi çıxış edərək ailə ilə mütəxəssislər arasında əlaqələndirici rol oynaya bilər.

3. Ailələrin qarşılaşdığı əsas problemlər

Əlilliyi olan uşaqların ailələrinin üzləşdiyi problemlər arasında sosial xidmətlər haqqında məlumat çatışmazlığı, xidmətlərə çıxış çətinlikləri, maddi yük, sosial təcrid və cəmiyyətin mənfi münasibəti xüsusi əhəmiyyət daşıyır.

Ailələrin xidmətlər barədə məlumatsızlığı mövcud imkanlardan istifadəyə mane olur ki, bu da sosial işçinin yönləndirici fəaliyyətini zəruri edir. Həmçinin reabilitasiya və gündəlik xərclərlə bağlı maddi çətinliklər ailə büdcəsini ağırlaşdırır. Sosial təcrid və cəmiyyətin münasibəti isə ailələrin həyat keyfiyyətini məhdudlaşdırdığından, bu problemlərin həlli üçün ailə ilə yanaşı icma səviyyəsində də sosial iş aparılmalıdır.

4. Sosial xidmətlərin inkişaf istiqamətləri

Əlilliyi olan uşaqların ailələrinə göstərilən sosial xidmətlərin inkişafı üçün ilk növbədə ailə yönümlü yanaşmanın gücləndirilməsi zəruridir. Ailə yalnız xidmət alan tərəf kimi deyil, qərarların hazırlanmasında və həyata keçirilməsində fəal iştirak edən tərəf kimi nəzərdən keçirilməlidir.

İkinci istiqamət erkən müdaxilə və profilaktik xidmətlərin inkişafıdır. Uşağın inkişaf ehtiyaclarının erkən müəyyənləşdirilməsi və ailəyə vaxtında dəstəyin göstərilməsi sonrakı mərhələlərdə yarana biləcək çətinliklərin azalmasına kömək edə bilər.

Üçüncü istiqamət multidissiplinar əməkdaşlığın təkmilləşdirilməsidir. Sosial işçi, psixoloq, loqoped, pedaqoq, həkim və digər mütəxəssislər arasında məlumat mübadiləsi və birgə planlaşdırma ailənin ehtiyaclarının daha əhatəli qiymətləndirilməsinə şərait yaradır.

Dördüncü istiqamət sosial xidmətlərin icma əsaslı və əlçatan formada təşkili ilə bağlıdır. Xidmətlərin yalnız mərkəzlərdə deyil, ailələrin yaşadığı icmalarda da göstərilməsi nəqliyyat və digər maneələrin azaldılmasına kömək edə bilər.

Beşinci istiqamət sosial işçilərin peşəkar inkişafıdır. Əlillik, ailə məsləhətləşməsi, uşaq müdafiəsi, kommunikasiya və hüquq əsaslı yanaşma üzrə təlimlər sosial işçilərin fəaliyyət keyfiyyətini artıra bilər. Əlilliyi olan uşaqların ailələrinə sosial xidmətlərin göstərilməsi kompleks və davamlı yanaşma tələb edən prosesdir. Ailələrin ehtiyacları yalnız maddi və tibbi dəstəklə məhdudlaşmır; emosional, sosial, informasiya və hüquqi dəstək də mühüm əhəmiyyət daşıyır.

Sosial işçinin resursları qiymətləndirmək və xidmətə çıxışı asanlaşdırmaq vəzifələri uşağın cəmiyyətə inteqrasiyasına xidmət edir. Ailəyönümlü və multidissiplinar yanaşmaların inkişafı üçün xidmətlərin əlçatanlığı və erkən müdaxilə mexanizmləri vacibdir. Nəticə etibarilə, əlilliyi olan uşaqların sosial müdafiəsi ailənin bütövlükdə gücləndirilməsi və cəmiyyətin inklüzivliyi ilə təmin olunmalıdır.

Humanitar və İctimai Elmlər adlı Tezislər Toplusu / 22 Noyabr 2026 / 103-105
Collection of Theses on Humanitarian and Social Sciences / 22 November 2026 / 103-105
DOI: https://doi.org/10.36719/2706-6185/IV/HİETT/2026

The Role of Autonomy and Goal-Setting in l2 Motivation

Arzu Huseynli

Keywords: *foreign language learners, motivation, learning goals, personal interests, L2 acquisition*
Açar sözlər: *xarici dil öyrənənlər, motivasiya, öyrənmə məqsədləri, şəxsi maraqlar, ikinci dilin mənimsənilməsi*

In the journey of learning a second language (L2), two crucial elements significantly influence a learner's motivation: autonomy and goal-setting. Empowering learners through these components can create a more engaging and effective language learning experience.

Autonomy refers to the learner's ability to take control of their own learning process. When learners feel that they have a choice in how and what they learn, they are more likely to feel motivated. For instance, allowing students to select topics that interest them or choose between different activities can foster a sense of ownership over their learning. This self-directed approach encourages learners to explore the language in ways that resonate with their personal interests and goals, making the learning process more relevant and enjoyable.

Azerbaijan State Pedagogical University, Baku, Azerbaijan
E-mail: huseynovaarzu@mail.ru

Research has shown that autonomy can enhance intrinsic motivation—this means that learners are driven by internal rewards such as curiosity and satisfaction, rather than external factors like grades or approval. When learners see the value in what they are studying and feel empowered to make decisions about their learning paths, they are more likely to persist and engage deeply with the language.

Goal-setting is another powerful strategy that complements autonomy in boosting L2 motivation. Establishing clear, achievable goals gives learners direction and purpose. By setting specific goals, such as mastering a certain number of vocabulary words each week or being able to hold a conversation for five minutes in the target language, learners can track their progress and celebrate small victories along the way. These milestones can act as motivators, reinforcing their commitment to learning and building their confidence.

Moreover, effective goal-setting should incorporate both short-term and long-term goals. Short-term goals are immediate and achievable, helping learners experience quick wins, while long-term goals provide an overarching vision of what they ultimately want to achieve, such as fluency or studying abroad. This dual approach creates a balanced learning experience, allowing students to feel a sense of accomplishment as they make steady progress toward their larger objectives.

In addition, involving learners in the goal-setting process can further enhance their motivation. When students develop their own goals in collaboration with teachers, they are more likely to take ownership of their learning. This shared responsibility cultivates a supportive learning environment, where students feel valued and motivated to reach their goals.

In conclusion, empowering learners in the context of L2 acquisition requires a focus on autonomy and effective goal-setting. By allowing learners to exert control over their educational experiences and encouraging them to set meaningful goals, educators can inspire deeper motivation and engagement. In turn, motivated learners are more likely to achieve language proficiency and develop a lifelong passion for language learning.

Humanitar və İctimai Elmlər adlı Tezislər Toplusu / 22 Noyabr 2026 / 106-110
Collection of Theses on Humanitarian and Social Sciences / 22 November 2026 / 106-110
DOI: https://doi.org/10.36719/2706-6185/IV/HİETT/2026

The Role of Traditional Games of Turkic Peoples in Enhancing the Physical Fitness of Youth

Asif Huseynov

Keywords: *turkic peoples, traditional games, youth, physical fitness, national and spiritual values*
Açar sözlər: *türk xalqları, ənənəvi oyunlar, gənclər, fiziki hazırlıq, milli və mənəvi dəyərlər*

In the modern era, sedentary lifestyles and prolonged digital technology use make a systematic approach to improving youth physical fitness essential. Beyond standard exercises, physical education should foster engagement and connect with cultural heritage, where the traditional games of Turkic peoples play a vital role. Reflecting historical experience and social traditions, these games—such as equestrian sports, wrestling, tug-of-war, and agility competitions—historically prepared youth for adulthood while effectively developing physical capabilities and motor skills.

The World Health Organization's recommendations on physical activity and sedentary behaviour emphasise the importance of regular physical activity in maintaining the health of children and adolescents. These recommendations highlight the need for physical activity to be age-appropriate, regular, and diverse in terms of movement patterns (World Health Organization, 2020).

Azerbaijan Sports Academy, Baku, Azerbaijan
E-mail: asif.huseynov@sport.edu.az

This approach also provides a methodological foundation for the purposeful integration of traditional games into physical education.

Equestrian competitions, wrestling, strength and agility challenges, team games, and various forms of recreational physical activity occupy a prominent place in the traditional games of Turkic peoples. Wrestling traditions in Azerbaijan and Türkiye, equestrian games in Kazakhstan and Kyrgyzstan, and folk competitions preserved in different regions demonstrate the diversity of this heritage. Nevertheless, these examples should not be presented as a single, uniform system of games that existed in identical forms among all Turkic peoples. The gaming traditions of each people have developed in accordance with their own historical backgrounds, geographical conditions, social relationships, and cultural characteristics.

In contemporary conditions, preserving this heritage does not mean reproducing traditional games without modification. Rather, it requires retaining their essential cultural content while adapting their rules and practices to the age, physical capabilities, and safety requirements of young participants. The 2003 UNESCO Convention for the Safeguarding of the Intangible Cultural Heritage identifies the transmission of traditions from generation to generation and the promotion of their continued viability under contemporary conditions as fundamental principles (UNESCO, 2003). These principles substantiate the cultural significance of sustaining traditional games within educational and physical education environments.

Youth physical fitness depends on interrelated attributes—strength, speed, endurance, agility, coordination, and balance—which require systematic, age-appropriate training and proper

technique. Integrating traditional games into physical education enhances movement diversity and emotional appeal. Because program effectiveness relies on learners' sustained engagement, the clear rules, visible outcomes, and social interaction of traditional games make physical activity more enjoyable and encourage consistent participation.

Beyond physical benefits, these games hold significant social and pedagogical value by transmitting cultural heritage. Learning their rules, origins, and regional variations fosters national identity alongside respect for cultural diversity, highlighting both shared traits and unique traditions across Turkic peoples.

Furthermore, adapting rules, distances, time limits, and equipment promotes inclusivity, allowing youth with varying physical abilities to participate actively in balanced teams (United Nations, 2006). Ultimately, effective educational integration requires more than historical replication; games must be selected to match specific learning objectives, age groups, target motor skills, planned workloads, and safety standards.

The teacher's role extends beyond selecting games, explaining their rules, creating a safe environment, regulating physical workloads, and assessing outcomes. Teachers should also explain the historical and cultural significance of the games and foster mutual respect and fair competition among participants. They must monitor the technical execution of movements, recognise signs of fatigue, and adjust the complexity of tasks whenever necessary.

Adherence to the principle of gradual progression is also essential when implementing traditional games. At the initial

stage, participants should be introduced to the basic rules and fundamental movements of each game. More complex elements can then be incorporated progressively. As physical fitness improves, the speed of movements, duration of activities, and coordination requirements may be increased gradually. Throughout this process, individual capabilities must be taken into account. Rather than requiring all participants to achieve identical results, greater attention should be paid to each young person's individual development and progress (Məmmədzadə, 2025). Theoretical analysis demonstrates that traditional Turkic games hold substantial pedagogical potential for improving youth physical fitness. Rooted in historical lifestyles, equestrian traditions, and collective culture, these games historically served vital socialization and educational functions. Integrating them into modern physical education effectively combines cultural heritage preservation with healthy lifestyle promotion.

Their physical impact depends on game content and organization: rope-pulling and adapted wrestling build strength, running and relays enhance speed and agility, sustained movement develops endurance, and varied motor tasks improve coordination and balance. Achieving measurable results, however, requires systematic implementation, planned workloads, and attention to individual differences. Moreover, team-based play fosters self-regulation, cooperation, and motivation, meaning assessment should evaluate social and emotional growth alongside physical performance.

To effectively integrate traditional games into contemporary education, efforts should focus on developing age-appropriate methodological programs, enhancing teacher training, enforcing safety regulations, systematically assessing physical development, and researching Turkic gaming heritage using

reliable sources. Finally, conducting empirical studies in schools and universities is recommended to verify their specific impact on physical fitness. Overall, the traditional games of Turkic peoples can be regarded as a means of combining tradition and innovation within contemporary physical education systems. Their implementation on a sound scientific and methodological basis can contribute to increasing young people's physical activity, developing motor skills, strengthening collective relationships, and enhancing interest in national and cultural heritage.

References

Məmmədzadə, M. (2025). Vətən müharibəsində hərbi idman fəaliyyətlərinin tətbiqi. *"Müasir idman təhsili: yeni paradiqmalar axtarışında" mövzusunda III Beynəlxalq Elmi-praktiki Konfransın materialları* (144–149). Azərbaycan İdman Akademiyası. https://drive.google.com/file/d/1nEKqbH2xI5K_UYem2P72Ot6UTVW21eSa/view

UNESCO. (2003). *Convention for the safeguarding of the intangible cultural heritage*. United Nations Educational, Scientific and Cultural Organization. https://ich.unesco.org/en/convention

United Nations. (2006). *Convention on the rights of persons with disabilities*. United Nations. https://www.ohchr.org/en/instruments-mechanisms/instruments/convention-rights-persons-disabilities

World Health Organization. (2020). *WHO guidelines on physical activity and sedentary behaviour*. World Health Organization. https://www.who.int/publications/i/item/9789240015128

Humanitar və İctimai Elmlər adlı Tezislər Toplusu / 22 Noyabr 2026 / 111-114
Collection of Theses on Humanitarian and Social Sciences / 22 November 2026 / 111-114
DOI: https://doi.org/10.36719/2706-6185/IV/HİETT/2026

Tələbələrin mənəvi inkişafında milli dəyərlərin yeri

Səbinə İsmayılova

Açar sözlər: *milli dəyərlər, mənəvi inkişaf, tələbə şəxsiyyəti, milli kimlik, ali təhsil*
Keywords: *national values, spiritual development, student personality, national identity, higher education*

Milli dəyərlər xalqın tarixi yaddaşını, ana dilini, mədəni irsini, adət-ənənələrini, mənəvi təcrübəsini və əxlaqi prinsiplərini özündə birləşdirir. Dürüstlük, ədalət, mərhəmət, böyüklərə hörmət, əməksevərlik, vətənə bağlılıq və qarşılıqlı yardım kimi keyfiyyətlər tələbələrin şəxsiyyət kimi formalaşmasında mühüm rol oynayır. Bu dəyərlər gənclərin öz davranışlarını mənəvi meyarlar əsasında tənzimləməsinə, sosial münasibətlərdə məsuliyyətli mövqe tutmasına və cəmiyyətə faydalı fəaliyyət göstərməsinə kömək edir (Azərbaycan Respublikasının Konstitusiyası, 1995).

Tələbəlik dövrü şəxsiyyətin dünyagörüşünün, həyat mövqeyinin və mənəvi prinsiplərinin formalaşdığı mühüm mərhələdir. Bu dövrdə gənclər müstəqil qərarlar qəbul edir, sosial münasibətlər sistemində öz mövqelərini müəyyənləşdirir və gələcək peşə fəaliyyətinə hazırlaşırlar.

Bakı Slavyan Universiteti, Magistrant, Bakı, Azərbaycan
E-poçt: smayilova.sebine.e@bsu-uni.edu.az

Milli dəyərlərin mənimsənilməsi onların özünüdərkini gücləndirir, milli mənsubiyyətə şüurlu münasibət formalaşdırır və mənəvi seçimlərində istiqamətverici rol oynayır (Azərbaycan Respublikasının Gənclər siyasəti haqqında Qanunu, 2002).

Milli dəyərlərin mənəvi inkişafda əhəmiyyəti, ilk növbədə, əxlaqi keyfiyyətlərin formalaşmasında özünü göstərir. Dürüstlük, vicdanlılıq, ədalətlilik və məsuliyyət həm şəxsi münasibətlərdə, həm də akademik və peşə fəaliyyətində vacibdir. Məsələn, akademik dürüstlüyə riayət etmək, başqalarının intellektual əməyinə hörmət göstərmək, verilən tapşırıqları məsuliyyətlə yerinə yetirmək milli-mənəvi dəyərlərin müasir tələbə həyatında praktik təzahürləridir. T. Likona mənəvi tərbiyənin şəxsiyyətin xarakterinin, hörmət və məsuliyyət kimi keyfiyyətlərinin inkişafı ilə əlaqəsini vurğulayır (Lickona, 1991).

Milli dəyərlər tələbələrdə vətəndaşlıq mövqeyinin və sosial məsuliyyətin inkişafına da təsir göstərir. Vətənə bağlılıq yalnız emosional münasibətlə məhdudlaşmamalı, ölkənin inkişafına töhfə vermək, qanunlara hörmət etmək, ictimai təşəbbüslərdə iştirak etmək və cəmiyyətin problemlərinə həssas yanaşmaqla tamamlanmalıdır. Könüllülük fəaliyyəti, sosial layihələr, mədəni tədbirlər və tələbə özünüidarəsi gənclərin mənəvi prinsipləri praktik fəaliyyət vasitəsilə mənimsəməsinə şərait yaradır.

Milli-mənəvi dəyərlərin qorunması digər mədəniyyətlərə münasibətdə hörmət və qarşılıqlı anlaşma ilə uzlaşdırılmalıdır. UNESCO-nun Mədəni müxtəliflik haqqında Ümumdünya Bəyannaməsində mədəni müxtəlifliyin qorunması və mədəniyyətlərarası dialoqun əhəmiyyəti ön plana çəkilir (UNESCO, 2001). Bu baxımdan milli kimliyin inkişafı başqa

xalqların mədəni irsinə hörmətlə birləşdikdə tələbələrin daha açıq, humanist və əməkdaşlığa hazır şəxsiyyət kimi formalaşmasına imkan yaradır.

Tələbələrin mənəvi inkişafında milli dəyərlərin rolunu artırmaq üçün ali təhsil müəssisələrində sistemli və məqsədyönlü tərbiyə işi təşkil edilməlidir. İlk növbədə, milli-mədəni irs, tarixi yaddaş, etik davranış və vətəndaşlıq məsuliyyəti ilə bağlı mövzuların müxtəlif fənlərin məzmununa inteqrasiyası məqsədəuyğundur. Bu yanaşma milli dəyərlərin yalnız ayrıca tədbirlərdə deyil, təlim prosesində də mənimsənilməsinə imkan yaradır.

İkinci istiqamət tələbələrin fəal iştirakına əsaslanan metodlardan istifadədir. Debatlar, situasiya təhlilləri, layihə əsaslı fəaliyyətlər, kitab müzakirələri və tarixi-mədəni məkanlara səfərlər tələbələrin milli dəyərlərin mahiyyətini dərk etməsinə kömək edə bilər. Müəllimin şəxsi nümunəsi, ədalətli münasibəti, tələbələrin fikirlərinə hörməti və akademik dürüstlüyə riayət etməsi də tərbiyə prosesinin təsirini gücləndirir.

Üçüncü istiqamət milli dəyərlərin müasir həyatla əlaqələndirilməsidir. Rəqəmsal mühitdə etik ünsiyyət, yanlış məlumatların yayılmasına qarşı məsuliyyətli münasibət, mədəni irsin rəqəmsal vasitələrlə təqdim olunması və müxtəlif mədəniyyətlərin nümayəndələri ilə əməkdaşlıq milli-mənəvi tərbiyənin aktual istiqamətləri kimi nəzərdən keçirilməlidir. J.Deveyin təhsil və sosial təcrübə arasında əlaqəyə əsaslanan yanaşması tələbələrin dəyərləri real fəaliyyət və qarşılıqlı münasibətlər vasitəsilə mənimsəməsinin əhəmiyyətini əsaslandırmaq üçün nəzəri zəmin yaradır (Dewey, 1916).

Beləliklə, milli dəyərlər tələbələrin mənəvi inkişafının, milli kimliyinin və sosial məsuliyyətinin formalaşmasının mühüm əsaslarından biridir. Bu dəyərlərin ali təhsil müəssisələrində məqsədyönlü şəkildə mənimsədilməsi tələbələrin dürüstlük, ədalət, məsuliyyət, vətənə bağlılıq və qarşılıqlı hörmət kimi keyfiyyətlərinin inkişafına kömək edir. Milli dəyərlərin səmərəli aşılanması üçün onların tədris prosesinə, ictimai fəaliyyətə və universitetin gündəlik münasibətlər sisteminə inteqrasiyası vacibdir. Eyni zamanda milli və ümumbəşəri dəyərlərin uzlaşdırılması tələbələrin həm öz mədəni kimliyini qoruyan, həm də mədəni müxtəlifliyə hörmət edən fəal vətəndaşlar kimi yetişməsinə şərait yaradır.

Ədəbiyyat

Azərbaycan Respublikasının Konstitusiyası. (1995). *Azərbaycan Respublikasının Qanunvericilik Toplusu*. https://e-qanun.az/framework/897

Azərbaycan Respublikasının *Gənclər siyasəti haqqında Qanunu.* (№ 297-IIQ). (2002, 9 aprel). e-Qanun. https://e-qanun.az/framework/1018

Dewey, J. (1916). *Democracy and education: An introduction to the philosophy of education*. Macmillan.

Lickona, T. (1991). *Educating for character: How our schools can teach respect and responsibility*. Bantam Books.

UNESCO. (2001). *UNESCO universal declaration on cultural diversity*. UNESCO Publishing. https://www.unesco.org/en/legal-affairs/unesco-universal-declaration-cultural-diversity

Humanitar və İctimai Elmlər adlı Tezislər Toplusu / 22 Noyabr 2026 / 115-119
Collection of Theses on Humanitarian and Social Sciences / 22 November 2026 / 115-119
DOI: https://doi.org/10.36719/2706-6185/IV/HİETT/2026

Müasir dövrdə bank əməliyyatlarının tənzimlənməsi və icrası sisteminin təkmilləşdirilməsi

Kənan Yusubov

Açar sözlər: *Beynəlxalq standartlar, bank tənzimlənməsi, aktivlər, öhdəliklər və balansdankənar idarəetmə, bank təşkilatları*
Keywords: *International standards, banking regulation, assets, liabilities and off-balance management, banking institutions*

Müasir dövrdə maliyyə bazarlarının qloballaşması, rəqəmsal texnologiyaların sürətli inkişafı və maliyyə alətlərinin mürəkkəbləşməsi bank sektorunda tənzimləmə və nəzarət mexanizmlərinin yenidən formalaşdırılmasını zəruri etmişdir. Bankların yalnız ənənəvi kredit və depozit əməliyyatları ilə məhdudlaşmaması, eyni zamanda törəmə maliyyə alətləri, zəmanətlər, akkreditivlər, sekuritizasiya və digər balansdankənar əməliyyatların həcminin artması risklərin idarə edilməsinə yeni yanaşmaların tətbiqini tələb edir. Bu baxımdan bank əməliyyatlarının beynəlxalq standartlara uyğun tənzimlənməsi maliyyə sabitliyinin təmin olunmasının əsas şərtlərindən biri hesab edilir.

Bakı Biznes Universiteti, Magistrant, Bakı, Azərbaycan
E-poçt: yusubovkenan17@gmail.com

Beynəlxalq standartların tətbiqi bank sektorunda şəffaflığın artırılması və risklərin düzgün qiymətləndirilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Xüsusilə kapitalın adekvatlığı, likvidlik göstəriciləri, maliyyə hesabatlarının vahid prinsiplərlə hazırlanması və risk əsaslı nəzarət mexanizmləri bankların etibarlılığını yüksəldir. Beynəlxalq standartlar bank təşkilatlarına riskləri erkən mərhələdə müəyyən etməyə, kapital ehtiyatlarını optimallaşdırmağa və potensial maliyyə itkilərini minimuma endirməyə imkan verir. Eyni zamanda bu standartlar investorların və əmanətçilərin bank sisteminə olan etimadını gücləndirərək maliyyə bazarlarının dayanıqlı inkişafına şərait yaradır. Aktivlər, öhdəliklər və balansdankənar əməliyyatların inteqrasiya olunmuş idarə edilməsi müasir bank menecmentinin əsas istiqamətlərindən biri hesab olunur. Aktiv və passivlərin idarə edilməsi sistemi bankın gəlirliliyi ilə risk arasında optimal tarazlığın qorunmasına xidmət edir. Lakin rəqəmsal bankçılığın inkişafı, yeni maliyyə məhsullarının meydana çıxması və beynəlxalq maliyyə bazarlarında baş verən dəyişikliklər göstərir ki, yalnız ənənəvi aktiv-passiv idarəetmə modeli artıq kifayət etmir. Müasir yanaşma balansdankənar öhdəliklərin, şərti öhdəliklərin və törəmə maliyyə alətlərinin də vahid risk idarəetmə sisteminə inteqrasiyasını tələb edir.

Balansdankənar əməliyyatlar bankların gəlir mənbələrinin diversifikasiyasında mühüm rol oynayır. Zəmanətlər, akkreditivlər, kredit xətləri, faiz və valyuta svopları, fyuçers və opsion müqavilələri banklara əlavə komissiya gəlirləri qazandırmaqla yanaşı, müştərilər üçün maliyyə xidmətlərinin çeşidini genişləndirir. Bununla belə, bu əməliyyatlar gələcəkdə potensial öhdəliklərin yaranmasına səbəb ola bildiyindən onların risklərinin düzgün qiymətləndirilməsi xüsusi əhəmiyyət kəsb edir. Müasir tənzimləmə sistemi bu risklərin kapital tələblərində

nəzərə alınmasını, stres-testlərin aparılmasını və ehtiyatların adekvat səviyyədə formalaşdırılmasını tələb edir.

Azərbaycan bank sektorunda da beynəlxalq təcrübəyə uyğun islahatların həyata keçirilməsi maliyyə bazarının dayanıqlı inkişafı üçün mühüm əhəmiyyət kəsb edir. Milli qanunvericiliyin beynəlxalq standartlarla uyğunlaşdırılması, risk əsaslı nəzarət mexanizmlərinin genişləndirilməsi, balansdankənar əməliyyatların uçotunun təkmilləşdirilməsi və rəqəmsal nəzarət alətlərinin tətbiqi bank sektorunun rəqabət qabiliyyətinin yüksəldilməsinə xidmət edir. Bununla yanaşı, prudensial normativlərin mütəmadi yenilənməsi və bankların kapital mövqeyinin gücləndirilməsi maliyyə sabitliyinin qorunmasında mühüm rol oynayır.

Beləliklə, müasir dövrdə bank əməliyyatlarının tənzimlənməsi və icrası sisteminin təkmilləşdirilməsi yalnız normativ-hüquqi bazanın yenilənməsi ilə məhdudlaşmır. Bu proses beynəlxalq standartların tətbiqi, aktivlər, öhdəliklər və balansdankənar əməliyyatların inteqrasiya olunmuş idarə edilməsi, rəqəmsal texnologiyaların geniş tətbiqi, korporativ idarəetmənin gücləndirilməsi və risk əsaslı nəzarət mexanizmlərinin inkişaf etdirilməsi ilə kompleks şəkildə həyata keçirilməlidir. Məhz bu istiqamətlər bank təşkilatlarının uzunmüddətli maliyyə dayanıqlığını, investor etimadını və milli bank sisteminin qlobal maliyyə bazarına inteqrasiyasını təmin edən əsas amillər kimi çıxış edir.

Aparılmış təhlillər göstərir ki, müasir dövrdə bank əməliyyatlarının tənzimlənməsi və icrası sisteminin təkmilləşdirilməsi maliyyə sektorunun dayanıqlı inkişafının təmin edilməsində əsas prioritet istiqamətlərdən biridir. Bank xidmətlərinin rəqəmsallaşması, yeni maliyyə alətlərinin geniş

tətbiqi və balansdankənar əməliyyatların həcminin artması ənənəvi tənzimləmə mexanizmlərinin yenilənməsini zəruri etmişdir. Bu baxımdan yalnız aktiv və öhdəliklərin idarə olunmasına əsaslanan yanaşma artıq bankların real risk profilinin qiymətləndirilməsi üçün kifayət etmir.

Tədqiqatın nəticələri göstərir ki, beynəlxalq standartların tətbiqi bank təşkilatlarının maliyyə dayanıqlığının artırılmasına, risklərin daha səmərəli idarə edilməsinə və korporativ idarəetmə prinsiplərinin gücləndirilməsinə mühüm töhfə verir. Balans və balansdankənar əməliyyatların vahid idarəetmə sistemində qiymətləndirilməsi bankların kapital adekvatlığının, likvidliyinin və ödəmə qabiliyyətinin daha obyektiv müəyyən edilməsinə imkan yaradır. Eyni zamanda, rəqəmsal texnologiyaların tətbiqi əməliyyatların operativliyini artırmaqla yanaşı, nəzarət mexanizmlərinin səmərəliliyini yüksəldir və maliyyə risklərinin erkən mərhələdə aşkar edilməsini təmin edir.

Nəticə etibarilə, bank əməliyyatlarının tənzimlənməsi və icrası sisteminin təkmilləşdirilməsi normativ-hüquqi bazanın beynəlxalq standartlara uyğunlaşdırılması, risk əsaslı nəzarət mexanizmlərinin genişləndirilməsi, aktivlər, öhdəliklər və balansdankənar əməliyyatların inteqrasiya olunmuş idarə edilməsi, eləcə də rəqəmsal innovasiyaların tətbiqi əsasında həyata keçirilməlidir. Bu istiqamətlərin kompleks şəkildə reallaşdırılması bank təşkilatlarının rəqabət qabiliyyətinin yüksəldilməsinə, maliyyə sisteminin dayanıqlığının möhkəmləndirilməsinə və milli bank sektorunun qlobal maliyyə bazarına daha uğurlu inteqrasiyasına şərait yaradacaqdır.

Ən son texnologiyaların tətbiqi, həmçinin balans və balansdankənar hesablarda əks olunan yeni maliyyə və qeyri-maliyyə alətlərindən istifadə milli qanunvericiliyin

təkmilləşdirilməsini və beynəlxalq standartların tətbiqini zəruri edir. Bu baxımdan da balansdankənar əməliyyatların bankların maliyyə nəticələrinə təsirinin təhlili və qiymətləndirilməsi təqdim olunmaqla aparılan təhlil yeni alət və texnologiyaların inkişafının ilkin mərhələsində belə yüksək dərəcədə asılılığın mövcudluğunu göstərmişdir. Bank səhmdarları üçün səhmlərin real dəyərinin fəaliyyət göstəriciləri nəzərə alınmaqla qiymətləndirilməsi modeli təklif edilmişdir. Bu model balans və balansdankənar hesablarda əks olunan əməliyyatların həyata keçirilməsində bank sahiblərinin korporativ məsuliyyətini artıracaq və nəticə etibarilə, gələcəkdə bankların etibarlılığına dair kəmiyyət və keyfiyyət meyarlarına uyğunluğu, eləcə də bütün səhmdarlar qarşısında öhdəliklərin yerinə yetirilməsi imkanını təmin edəcəkdir.

Humanitar və İctimai Elmlər adlı Tezislər Toplusu / 22 Noyabr 2026 / 120-125
Collection of Theses on Humanitarian and Social Sciences / 22 November 2026 / 120-125
DOI: https://doi.org/10.36719/2706-6185/IV/HİETT/2026

Korporativ maliyyə risklərinin idarə edilməsində müasir yanaşmalar və onların müəssisə fəaliyyətinə tətbiqi

Murad Nəsirli

Açar sözlər: *korporativ maliyyə riskləri, risklərin idarə edilməsi, maliyyə dayanıqlığı, likvidlik riski, stress-testləşdirmə, rəqəmsal risk monitorinqi*
Keywords: *corporate financial risks, risk management, financial stability, liquidity risk, stress testing, digital risk monitoring*

Müasir iqtisadi münasibətlər sistemində müəssisələrin fəaliyyətinin səmərəliliyi yalnız istehsal və satış həcmlərinin artırılması ilə deyil, həm də maliyyə resurslarının rasional idarə edilməsi, öhdəliklərin vaxtında yerinə yetirilməsi və yaranan risklərə çevik reaksiya verilməsi ilə müəyyən olunur. Maliyyə bazarlarındakı dəyişikliklər, inflyasiya, məzənnə tərəddüdləri və hesablaşma intizamının pozulması müəssisələrin maliyyə vəziyyətinə təsir göstərərək risklərin idarə edilməsini zəruri edir. Ənənəvi yanaşmalardan fərqli olaraq, müasir idarəetmədə risklər yalnız təhlükə deyil, həm də strateji qərarlarda nəzərə alınmalı iqtisadi amil kimi qiymətləndirilir. Xüsusilə resurs məhdudiyyəti və borc asılılığı olan kiçik və orta müəssisələr üçün bu prosesin əhəmiyyəti böyükdür.

Bakı Biznes Universiteti, Magistrant, Bakı, Azərbaycan
E-poçt: muradnesirli788@gmail.com

Korporativ maliyyə riski qeyri-müəyyən amillər səbəbindən gözlənilən iqtisadi nəticələrdən (mənfəətin azalması, pul çatışmazlığı, borc öhdəliklərində çətinliklər və s.) kənarlaşma ehtimalını ifadə edir. Həmçinin maliyyə riskləri təcrid olunmuş şəkildə deyil, müəssisənin ümumi iqtisadi və kommersiya fəaliyyəti ilə qarşılıqlı əlaqədə qiymətləndirilməlidir.

Korporativ maliyyə risklərinin əsas növlərinə likvidlik, kredit, bazar, faiz, valyuta, investisiya və maliyyələşdirmə riskləri aid edilir. Likvidlik riski müəssisənin qısamüddətli öhdəliklərini vaxtında yerinə yetirmək üçün kifayət qədər pul vəsaitinə malik olmaması ehtimalını əks etdirir. Kredit riski kontragentlərin müqavilə üzrə ödənişlərini gecikdirməsi və ya yerinə yetirməməsi nəticəsində yaranır. Bazar riski maliyyə alətlərinin qiymətlərinin, faiz dərəcələrinin və valyuta məzənnələrinin dəyişməsi ilə bağlıdır. İnvestisiya riski isə kapital qoyuluşlarından gözlənilən gəlirin əldə edilməməsi və ya investisiya dəyərinin azalması ehtimalını xarakterizə edir.

Maliyyə risklərinin yaranma mənbələri daxili və xarici amillər üzrə qruplaşdırıla bilər. Daxili amillərə maliyyə planlaşdırılmasındakı çatışmazlıqlar, qeyri-səmərəli kapital strukturu, zəif daxili nəzarət, debitor borclarının idarə edilməsində nöqsanlar və maliyyə məlumatlarının qeyri-dəqiqliyi daxildir. Xarici amillər isə makroiqtisadi qeyri-sabitlik, inflyasiya, bazar konyunkturunun dəyişməsi, kreditləşmə şərtlərinin sərtləşməsi və tənzimləyici mühitdə baş verən dəyişikliklərlə əlaqədardır.

Müəssisələrin maliyyə risklərinə həssaslığı onların fəaliyyət sahəsindən, aktivlərinin strukturundan, gəlirlərinin sabitliyindən və maliyyələşmə mənbələrindən asılıdır. Yüksək borclanma səviyyəsinə malik müəssisələr faiz dərəcələrinin dəyişməsinə

daha həssas olduqları halda, xarici valyutada əməliyyatlar aparan müəssisələr məzənnə dəyişikliklərinin təsirinə daha çox məruz qala bilərlər. Bu səbəbdən universal risk idarəetmə mexanizmlərinin tətbiqi ilə yanaşı, müəssisənin fərdi xüsusiyyətlərinin nəzərə alınması zəruridir.

Maliyyə risklərinin idarə edilməsinin iqtisadi məqsədi bütün riskləri tamamilə aradan qaldırmaq deyil, qəbul edilən risk səviyyəsi ilə gözlənilən gəlirlilik arasında optimal tarazlıq yaratmaqdır. Riskdən tam yayınmaq bəzən müəssisənin inkişaf imkanlarını məhdudlaşdıra bilər. Buna görə də korporativ maliyyə idarəetməsində əsas məsələ risklərin əsaslandırılmış səviyyədə qəbul edilməsi və mümkün mənfi nəticələrinin nəzarətdə saxlanılmasıdır.

Müasir risk idarəetmə sistemlərinin əsas xüsusiyyəti risklərin müəssisənin strateji və operativ qərarlarına inteqrasiya olunmasıdır. Bu istiqamətdə beynəlxalq təcrübədə geniş istifadə olunan konseptual yanaşmalardan biri Enterprise Risk Management (ERM) modelidir. ERM müəssisədə mövcud olan müxtəlif risklərin vahid idarəetmə çərçivəsində müəyyənləşdirilməsini, qiymətləndirilməsini və əlaqələndirilməsini nəzərdə tutur.

COSO tərəfindən hazırlanmış Enterprise Risk Management – Integrating with Strategy and Performance konsepsiyası risklərin idarə edilməsini strateji planlaşdırma və fəaliyyət nəticələri ilə əlaqələndirir. Bu çərçivə korporativ idarəetmə və təşkilati mədəniyyət, strategiya və məqsədlərin müəyyənləşdirilməsi, fəaliyyət göstəriciləri, təhlil və təkmilləşdirmə, eləcə də informasiya və hesabatlılıq istiqamətlərini birləşdirir.

ERM yanaşmasının üstünlüyü maliyyə risklərinin müəssisənin ayrı-ayrı struktur bölmələri səviyyəsində deyil, bütövlükdə korporativ sistem çərçivəsində qiymətləndirilməsidir. Məsələn, satış şöbəsinin müştərilərə uzunmüddətli ödəniş möhləti verməsi satış həcmini artıra bilər. Lakin həmin qərar maliyyə şöbəsi ilə əlaqələndirilmədikdə debitor borclarının artmasına və likvidlik vəziyyətinin pisləşməsinə səbəb ola bilər. İnteqrasiya olunmuş yanaşmada belə qərarların həm kommersiya, həm də maliyyə nəticələri əvvəlcədən nəzərdən keçirilir.

Risk idarəetməsinin digər mühüm metodoloji əsası ISO 31000:2018 beynəlxalq standartıdır. Bu standart risklərin idarə edilməsində prinsiplərin, təşkilati çərçivənin və ardıcıl prosesin formalaşdırılmasını nəzərdə tutur. Onun mühüm xüsusiyyəti müxtəlif ölçülü və fəaliyyət sahəli təşkilatlarda tətbiq edilə bilməsidir. Standart risklərin müəyyənləşdirilməsi, təhlili, qiymətləndirilməsi, emalı, monitorinqi və kommunikasiyası üzrə sistemli yanaşmanı dəstəkləyir.

Müasir yanaşmalardan biri də riskəsaslı büdcələşdirmədir. Ənənəvi büdcələşdirmədə gəlir və xərclər əsasən gözlənilən göstəricilər əsasında planlaşdırılır. Riskəsaslı büdcələşdirmədə isə müxtəlif iqtisadi şəraitlərdə həmin göstəricilərin dəyişmə ehtimalı da nəzərə alınır. Belə yanaşma müəssisənin maliyyə ehtiyatlarını daha əsaslandırılmış şəkildə formalaşdırmasına və gözlənilməz dəyişikliklərə hazırlıq səviyyəsini yüksəltməsinə imkan verir. Riskəsaslı büdcələşdirmənin tətbiqi zamanı satış gəlirlərinin azalması, xammal və xidmət xərclərinin artması, debitor borclarının ödənilməsində gecikmələr və kredit faizlərinin yüksəlməsi kimi alternativ ssenarilər hazırlanır. Hər bir ssenari üzrə pul axınları, mənfəət, borc yükü və likvidlik göstəriciləri hesablanır. Nəticədə rəhbərlik maliyyə planının yalnız bir ehtimal üzrə deyil, müxtəlif şəraitlərdə necə

dəyişəcəyini əvvəlcədən qiymətləndirə bilir.

Risklərin idarə edilməsində mühüm anlayışlardan biri də risk iştahasıdır. Risk iştahası müəssisənin strateji məqsədlərinə nail olmaq üçün qəbul etməyə hazır olduğu risk səviyyəsini ifadə edir. Bu göstəricinin müəyyənləşdirilməsi maliyyə qərarlarında ardıcıllığın təmin edilməsinə kömək edir. Məsələn, müəssisə borclanmanın kapitala nisbəti, bir müştəri üzrə kredit limiti və ya minimum pul ehtiyatı üçün daxili hədlər müəyyən edə bilər.

Müasir risk idarəetməsinin tətbiqi təşkilati strukturda, maliyyə planlaşdırılmasında və daxili nəzarətdə yeniliklər, eləcə də səlahiyyətlərin dəqiq bölgüsünü tələb edir. Bunun üçün ilk növbədə risklərin təsnifatı, qiymətləndirmə meyarları, risk hədləri və hesabatlılığı əks etdirən xüsusi siyasət hazırlanmalıdır; kiçik və orta müəssisələrdə isə bu funksiya ayrıca departament əvəzinə maliyyə rəhbərliyi və digər bölmələr arasında bölüşdürülə bilər.

Risklərin idarə edilməsi müəyyənləşdirmə, ölçmə və prioritetləşdirmə, cavab tədbirlərinin seçilməsi, icraya nəzarət və nəticələrin dövri qiymətləndirilməsindən ibarət davamlı dövr kimi təşkil olunmalıdır. Praktikada debitor borclarına nəzarət üçün müştərilərin ödəmə qabiliyyəti qiymətləndirilməli, kredit limitləri və gecikmə xəbərdarlıqları tətbiq edilməlidir. Eyni zamanda, mənfəətli müəssisələrdə belə ödəniş uyğunsuzluqlarının qarşısını almaq məqsədilə həftəlik və aylıq pul axını proqnozları hazırlanmalı, minimum likvidlik ehtiyatı saxlanılmalı və ödənişlər prioritetləşdirilməlidir.

Maliyyə risklərinin idarə edilməsində kapital strukturunun optimallaşdırılması xüsusi əhəmiyyət daşıyır. Müəssisənin yalnız borc kapitalına əsaslanan maliyyələşmə siyasəti faiz və

yenidən maliyyələşdirmə risklərini artıra bilər. Digər tərəfdən, yalnız daxili vəsaitlər hesabına maliyyələşmə inkişaf imkanlarını məhdudlaşdıra bilər. Buna görə də kapital strukturu formalaşdırılarkən borcun dəyəri, ödəniş qrafiki, pul axınlarının sabitliyi və investisiya layihələrinin gözlənilən gəlirliliyi kompleks şəkildə nəzərə alınmalıdır.

Humanitar və İctimai Elmlər adlı Tezislər Toplusu / 22 Noyabr 2026 / 126-130
Collection of Theses on Humanitarian and Social Sciences / 22 November 2026 / 126-130
DOI: https://doi.org/10.36719/2706-6185/IV/HİETT/2026

Müəssisələrdə pul axınlarının rəqəmsal idarə edilməsi və maliyyə dayanıqlığının gücləndirilməsi

Rövşən Həbibov

Açar sözlər: *pul axınları, rəqəmsal transformasiya, likvidlik, dövriyyə kapitalı, rəqəmsal ödənişlər, maliyyə nəzarəti*
Keywords: *cash flows, digital transformation, liquidity, working capital, digital payments, financial control*

Müəssisənin davamlı fəaliyyəti gəlir əldə etməsi ilə yanaşı, öhdəliklərini vaxtında ödəmək imkanından asılıdır. Mənfəətli müəssisə belə, satışdan yaranan debitor borclarını vaxtında toplaya bilmədikdə əməkhaqqı, vergi və təchizatçı ödənişləri üçün vəsait çatışmazlığı ilə üzləşə bilər. Buna görə pul daxilolmaları və xaricolmalarının məbləği qədər onların vaxtı da əhəmiyyətlidir. İdarəetmənin əsas vəzifəsi daxilolmaların vaxtını öhdəliklərin icra müddətləri ilə uzlaşdırmaqdır.

Ənənəvi idarəetmədə müxtəlif sənəd və cədvəllər arasında bölünən gecikmiş məlumatlar mövcud maliyyə vəziyyətini tam əks etdirmir. Rəqəmsal (onlayn) idarəetmə isə bank hesabları, mühasibat uçotu və ödəniş təqvimini vahid mühitdə birləşdirir; lakin məlumatların fasiləsiz yenilənməsi bank bağlantılarının və uçot proseslərinin keyfiyyətindən asılıdır.

Bakı Biznes Universiteti, Magistrant, Bakı, Azərbaycan
E-poçt: habibov.rovshan@gmail.com

IAS 7 standartına əsasən pul axınlarının əməliyyat, investisiya və maliyyələşdirmə fəaliyyəti üzrə qruplaşdırılması əsas biznesin pul yaratmaq qabiliyyətini digər maliyyə hərəkətlərindən dəqiq ayırmağa imkan verir.

Rəqəmsal idarəetmənin əsas üstünlüyü müxtəlif hesablardakı qalıqları vahid mərkəzdən izləməklə sərbəst vəsaitləri və qarşıdakı ödəniş yükünü görməkdir. Bununla belə, müəssisənin real ödəmə qabiliyyətini yanlış dəyərləndirməmək üçün məhdudlaşdırılmış vəsaitlər, təsdiqlənməmiş əməliyyatlar və valyuta fərqləri ayrıca uçota alınmalıdır.

İkinci istiqamət ödənişlərin və uçotun avtomatlaşdırılmasıdır. Bank əməliyyatlarının sənədlərlə uyğunlaşdırılması, təkrarlanan ödənişlərin planlaşdırılması və gecikmiş borclar barədə bildirişlər əl əməyini azalda bilər. Məsələn, daxil olmuş məbləğin müvafiq hesab-faktura ilə avtomatik əlaqələndirilməsi debitor borcun vəziyyətini daha tez yeniləyir. Uyğunluğu müəyyən edilməyən əməliyyatlar isə ayrıca yoxlanmalıdır. Bu yanaşma nəzarətin itirilmədən avtomatlaşdırılmasını təmin edir.

Üçüncü istiqamət proqnozlaşdırmadır. Satış müqavilələri, borcların ödəniş tarixləri, əməkhaqqı və digər gözlənilən xərclər əsasında həftəlik pul büdcəsi hazırlanır. Müəssisə baza, nikbin və mənfi ssenariləri müqayisə etməklə mümkün çatışmazlığı əvvəlcədən görə bilər. Məsələn, əsas müştərinin ödənişi gecikdirməsi halında hansı xərclərin təxirə salına biləcəyi müəyyənləşdirilir. Proqnoz faktiki daxilolmalarla müntəzəm yenilənmədikdə onun idarəetmə dəyəri azalır.

Dördüncü istiqamət hesablaşmaların sürətidir. Beynəlxalq Hesablaşmalar Bankının hesabatı sürətli ödənişlərin vaxt baxımından həssas əməliyyatları asanlaşdıra bildiyini göstərir;

faydanın həcmi istifadə şəraitindən asılıdır. Müəssisə üçün daha tez daxil olan vəsait dövriyyə kapitalına tələbatı yüngülləşdirə bilər. Bununla belə, ödənişin texniki sürəti müştərinin müqavilə üzrə borcunu vaxtında ödəyəcəyinə zəmanət vermir. Debitor borclarının idarə edilməsi ayrıca təşkil olunmalıdır. Beləliklə, rəqəmsal alətlər əsasən məlumatın əldə olunması və emalına sərf edilən vaxtı qısaldır. İqtisadi nəticə həmin məlumatın qərara çevrilməsindən yaranır. Ödəniş təqvimi izlənmirsə, xəbərdarlıqlara cavab verilmirsə və məsul şəxslər müəyyənləşdirilməyibsə, proqram təminatının alınması özlüyündə likvidlik problemini aradan qaldırmır.

Pul axınlarının rəqəmsal idarə edilməsinin əsas məqsədlərindən biri dövriyyə kapitalına ehtiyacı dəqiq müəyyənləşdirməkdir. Ehtiyatların dövriyyəsi, debitor və kreditor borclarının əlaqəsini əks etdirən pulun çevrilmə dövrünün (cash conversion cycle) qısalması vəsaitlərin əməliyyatda daha az bağlı qalmasını təmin edir. Rəqəmsal sistemlər gecikən hesab-fakturaları və yaxınlaşan öhdəlikləri erkən aşkar etməyə imkan versə də, bu dövrün qısalması yalnız texnologiya ilə deyil, satış, satınalma və təchizat bölmələrinin əlaqələndirilmiş siyasəti ilə mümkündür.

Səmərəlilik rəqəmsal sistemin tətbiqindən əvvəlki və sonrakı dövrlər üzrə müqayisəli şəkildə ölçülməli, qiymətləndirmədə satış həcmi, mövsümilik və qiymət dəyişiklikləri nəzərə alınmalıdır. Yalnız ümumi xərcin azalmasına əsaslanmaq yanıldıcı ola bilər; çünki qənaətin bir hissəsi fəaliyyətdəki daralma ilə bağlı ola bilər. Buna görə də ümumi nəticə ilə yanaşı, bir əməliyyata düşən xərc də mütləq hesablanmalıdır.

Əsas göstəricilərə ödənişin hazırlanma və təsdiqlənmə müddəti, məlumat daxil etməyə sərf olunan əmək saatları, səhv və təkrar əməliyyatların payı daxildir. Maliyyə baxımından gecikmə

cərimələri, qısamüddətli borclanma xərcləri və proqramın saxlanma xərcləri izlənilir. Debitor borclarının yığılma müddətinin qısalması likvidliyi yaxşılaşdıra bilər. Təchizatçılara ödəniş müddətinin uzadılması isə yalnız razılaşdırılmış şərtlər daxilində müsbət qiymətləndirilməlidir; müqavilə pozuntusu hesabına yaranan müvəqqəti qalıq dayanıqlı səmərə deyil. Proqnozlaşdırma keyfiyyəti proqnoz ilə faktiki daxilolmalar arasındakı mütləq fərqlərin cəminin faktiki daxilolmaların cəminə faiz nisbəti ilə ölçülür (sıfır olduqda hesablanmır) və eyni üsul xaricolmalara da tətbiq edilir. Səhvin azalması kassa çatışmazlığı günləri ilə birlikdə şərh olunmalıdır.

Rəqəmsal sistemin nəticələri vahid göstəricilər panelində (gündəlik pul qalığı, 7–30 günlük xalis axın, debitor payı, proqnoz kənarlaşması, emal xərci) cavabdeh şəxs və xəbərdarlıq hədləri müəyyənləşdirilməklə izlənilməlidir. İdarəetmə qərarları isə sadəcə göstərici dəyişməsinə deyil, səbəbə (məsələn, ödəniş gecikməsi və ya birdəfəlik investisiya) əsaslanan operativ reaksiya mexanizmi kimi tətbiq olunmalıdır. Azərbaycanda Mərkəzi Bankın Ani Ödənişlər Sistemi 24/7/365 rejimində hesablaşmalar apararaq iş saatlarından kənar daxilolmaların qəbulunu asanlaşdırır; lakin bankın korporativ xidmətləri və tarifləri ayrıca qiymətləndirilməlidir. Kiçik və orta müəssisələrdə tətbiq hesabların inventarlaşdırılması, mühasibat proqramı ilə inteqrasiya, təsdiq səlahiyyətlərinin bölgüsü və sınaq mərhələsindən sonra nəticələrin (əmək saatı, səhvlər, komissiya və proqnoz dəqiqliyi) ölçülməsi əsasında genişləndirilməlidir.

Onlayn mühitdə icazəsiz giriş, saxta ödəniş tapşırığı və texniki fasilə riski mövcuddur. Çoxamilli autentifikasiya, vəzifələrə uyğun giriş hüquqları və əməliyyat limitləri bu riskləri azaltmaq üçün tətbiq edilməlidir. Ödənişi hazırlayan və təsdiqləyən

şəxslərin ayrılması, təchizatçının hesab rekvizitlərində dəyişikliklərin ayrıca yoxlanması vacibdir. Ehtiyat nüsxələr və alternativ iş qaydası isə xidmətin dayanması zamanı uçotun və nəzarətin davam etdirilməsinə kömək edir. Müəssisələr ilk mərhələdə pul hərəkəti proseslərinin xəritəsini və məlumat mənbələrini müəyyən etməli, ikinci mərhələdə bank əməliyyatlarının uçotla uzlaşdırılmasını və 13 həftəlik sürüşən pul proqnozunu sınaqdan keçirməli, üçüncü mərhələdə isə proqnoz səhvləri, əməliyyat xərcləri və nəzarət pozuntuları üzrə başlanğıc göstəriciləri yeniləri ilə müqayisə etməlidirlər.

Tətbiqin iqtisadi əsaslandırılmasında lisenziya, inteqrasiya, təlim, kibertəhlükəsizlik və texniki dəstək xərcləri bütövlükdə nəzərə alınmalıdır. Sınaq dövründə qənaətin faktiki pul nəticəsinə çevrildiyi yoxlanılmadan layihə genişləndirilməməli və hər bir müəssisənin ölçüsünə uyğun fərqli proqram həlləri qiymətləndirilməlidir.

Pul axınlarının rəqəmsal idarə edilməsi məlumatın operativliyini yüksəltmək, əl əməyini azaltmaq və ödənişləri planlaşdırmaq vasitəsilə müəssisənin maliyyə dayanıqlığını gücləndirə bilər. Səmərəlilik inteqrasiya keyfiyyətindən, əməkdaşların hazırlığından və nəzarət prosedurlarından asılıdır. Qiymətləndirmədə sürətlə yanaşı, bütün tətbiq xərcləri, proqnoz səhvi və faktiki pul nəticələri nəzərə alınmalıdır. Azərbaycan müəssisələri üçün məqsədəuyğun yanaşma mərhələli tətbiq və ölçülə bilən nəticələr əsasında qərar verməkdir. Rəqəmsal infrastrukturun imkanları yalnız məsuliyyətli maliyyə idarəetməsi ilə birləşdikdə davamlı iqtisadi faydaya çevrilir. Xüsusilə debitor borclarının yığılma müddəti, pulun çevrilmə dövrü və proqnoz dəqiqliyinin birgə izlənilməsi müəssisənin likvidlik risklərinin vaxtında müəyyənləşdirilməsi üçün daha əsaslı informasiya bazası yaradır.

Humanitar və İctimai Elmlər adlı Tezislər Toplusu / 22 Noyabr 2026 / 131-135
Collection of Theses on Humanitarian and Social Sciences / 22 November 2026 / 131-135
DOI: https://doi.org/10.36719/2706-6185/IV/HİETT/2026

Dövlət maliyyə nəzarətinin səmərəliliyinin artırılmasında normativ dəyişikliklər və rəqəmsal mexanizmlər

Cahid Yusibzadə

Açar sözlər: *dövlət maliyyə nəzarəti, normativ dəyişikliklər, səmərəliliyin qiymətləndirilməsi, maliyyə intizamı, rəqəmsallaşma*
Keywords: *Public financial control, regulatory changes, efficiency assessment, financial discipline, digitalization*

Dövlətin iqtisadi və sosial funksiyalarının həyata keçirilməsi əhəmiyyətli maliyyə resurslarının formalaşdırılmasını, bölüşdürülməsini və istifadəsini tələb edir. Büdcə vəsaitlərinin düzgün idarə olunması gəlirlərin hesablanması, xərclərin əsaslandırılması, satınalmaların təşkili və maliyyə hesabatlılığı kimi proseslərin səmərəli qurulmasını zəruri edir.

Dövlət maliyyə nəzarəti həmin proseslərdə qanunvericiliyə əməl olunmasının, maliyyə əməliyyatlarının düzgünlüyünün və büdcə resurslarından məqsədəuyğun istifadənin təmin edilməsinə xidmət edir. Bununla belə, nəzarətin real nəticələri hüquqi mühitin aydınlığından, institusional səlahiyyət bölgüsündən, məlumatların əlçatanlığından və məsuliyyət mexanizmlərindən birbaşa asılıdır.

Bakı Biznes Universiteti, Magistrant, Bakı, Azərbaycan
E-poçt: cahidyusibzade @gmail.com

Normativ hüquqi aktlar dövlət maliyyə nəzarətinin təşkilati və hüquqi çərçivəsini müəyyən edən əsas vasitələrdir. Bu aktlardakı dəyişikliklər prosedurları sadələşdirərək rəqəmsal nəzarət imkanlarını və hesabatlılığı gücləndirə bilsə də, əsaslandırılmamış yeniliklər inzibati xərclərə, təkrarlanmalara və hüquqi qeyri-müəyyənliyə səbəb ola bilər.

Bu baxımdan, normativ dəyişikliklərin qəbul edilməsi özlüyündə islahatın uğurlu olduğunu göstərmir. Əsas məsələ həmin dəyişikliklərin qarşıya qoyulmuş məqsədlərə hansı səviyyədə çatdığını müəyyən etməkdir ki, bu da müasir dövlət idarəçiliyinin vacib elmi və praktiki vəzifələrindən biridir.

Dövlət maliyyə nəzarəti yalnız artıq baş vermiş pozuntuların aşkarlanması ilə məhdudlaşmır. Onun mühüm vəzifələrindən biri də maliyyə pozuntularının yaranmasına şərait yaradan amillərin əvvəlcədən müəyyən edilməsi və onların qarşısının alınmasıdır. Bu baxımdan, müasir nəzarət sistemi həm yoxlayıcı, həm də qabaqlayıcı xarakter daşımalıdır.

Maliyyə nəzarəti dövlət büdcəsinin icrası zamanı vəsaitlərin təyinatı üzrə istifadə edilməsini, sənədlərlə əsaslandırılmasını, hesabatların düzgünlüyünü və maliyyə intizamını təmin edir, aşkar edilən nöqsanlar isə idarəetmə qərarlarının təkmilləşdirilməsinə xidmət edir.

Normativ dəyişikliklər hüquq normalarını müəyyən edən, dəyişdirən və ya ləğv edən hüquqi aktların qəbul edilməsi prosesi olub, dövlət maliyyə nəzarətində büdcə planlaşdırılması, icrası, uçot, satınalmalar, hesabatlılıq, audit və qurumların məsuliyyəti ilə bağlı qaydaları əhatə edir.

Normativ dəyişikliklər mövcud qanunlara əlavələr, yeni redaksiyalar, icra qaydalarının yenilənməsi, elektron məlumat mübadiləsinin hüquqi əsaslarının yaradılması və nəzarət prosedurlarının dəqiqləşdirilməsi kimi müxtəlif formalarda həyata keçirilir.

Bu dəyişikliklərin mahiyyəti təkcə hüquqi mətnin yenilənməsi deyil; onlar dövlət qurumlarının iş proseslərinə, maliyyə sənədlərinə, informasiya sistemlərinə, əməkdaşların vəzifələrinə və inzibati xərclərə təsir göstərdiyi üçün həm hüquqi, həm iqtisadi, həm də təşkilati baxımdan qiymətləndirilməlidir.

Dövlət maliyyə nəzarətinin hüquqi bazasının yenilənməsinə altı əsas amil təsir edir:

1. *İqtisadi mühitin dəyişməsi:* Dövlət gəlirləri, xərclər və büdcə risklərinin dəyişməsi köhnə qaydaların çevikliyini azaldır.
2. *Rəqəmsallaşma:* Elektron sənəd dövriyyəsi, avtomatlaşdırılmış hesabatlar və platformalar təhlükəsizlik və izlənilmə tələblərini artırır.
3. *Şəffaflıq və hesabatlılıq:* Dövlət resurslarının xərclənməsi və satınalma meyarları barədə daha sistemli məlumat tələb olunur.
4. *Maliyyə risklərinin mürəkkəbləşməsi:* Büdcə öhdəlikləri və uzunmüddətli risklər nəzarət mexanizmlərinin təkmilləşdirilməsini tələb edir.
5. *Beynəlxalq təcrübə və standartlar:* Dövlət auditinin keyfiyyəti üçün beynəlxalq metodoloji istiqamətlərə uyğunlaşma zəruridir.
6. *Əvvəlki tədbirlərin nəticələri:* Təkrar olunan pozuntular və icra edilməyən audit tövsiyələri normativ mexanizmlərin yenidən baxılmasını tələb edir.

Azərbaycan Respublikasında dövlət maliyyəsinin idarə olunması büdcə münasibətlərini, mühasibat uçotunu, dövlət satınalmalarını, maliyyə hesabatlarını və audit fəaliyyətini tənzimləyən hüquqi aktlar əsasında həyata keçirilir. Bu aktlar dövlət maliyyə resurslarının formalaşdırılması və istifadəsi zamanı iştirakçıların hüquq və vəzifələrini müəyyən edir.

Dövlət maliyyə nəzarətinin hüquqi əsaslarının təhlili zamanı normativ aktların yalnız mövcudluğu deyil, onların bir-biri ilə uzlaşması və praktik tətbiq imkanları da nəzərə alınmalıdır. Qanunvericilikdə dəyişiklik edildikdə əlaqəli qaydaların, metodiki sənədlərin və informasiya sistemlərinin də uyğunlaşdırılması vacibdir.

Bu baxımdan, normativ dəyişikliklərin səmərəliliyinin qiymətləndirilməsi Azərbaycan Respublikasında maliyyə idarəçiliyinin təkmilləşdirilməsi üçün əhəmiyyətli istiqamətdir.

Dövlət maliyyə idarəçiliyində rəqəmsallaşma normativ dəyişikliklərin əsas istiqamətlərindən biridir. Elektron məlumat mübadiləsi məlumatların daha sürətli təqdim olunmasına, sənədlərin təkrar hazırlanmasının azalmasına və maliyyə proseslərinin izlənilməsinə kömək edə bilər.

2026-cı il 2 mart tarixində dərc edilmiş qanunvericilik dəyişiklikləri "Büdcə sistemi haqqında", "Mühasibat uçotu haqqında" və "Dövlət satınalmaları haqqında" qanunları əhatə etmişdir. Həmin dəyişikliklər sırasında büdcə layihələrinin hazırlanması üçün zəruri məlumatların müvafiq informasiya sistemi vasitəsilə təqdim edilməsinə dair müddəa da yer alır.

Rəqəmsal dəyişikliklərin potensial faydaları operativlik, standartlaşdırma, təkrar daxiletmənin azalması və rəqəmsal

nəzarətin genişlənməsi ilə bağlıdır; lakin nəticələr hazırlanma müddəti, texniki səhvlər, məlumat tamlığı və sistemin işləkliyi kimi göstəricilər əsasında əvvəlki dövrlə müqayisədə ölçülməlidir. Normativ aktların dili aydın və birmənalı olmalıdır; terminlərin qeyri-dəqiq işlədilməsi və səlahiyyətlərin üst-üstə düşməsi tətbiqdə problemlər yaradır. Hüquqi müəyyənlik üçün qəbuldan əvvəl kompleks təhlil aparılmalı, ziddiyyətlər aradan qaldırılmalı və əlaqəli aktlar uyğunlaşdırılmalıdır.

Uğurlu tətbiq üçün qurumların kadr, texniki və maliyyə imkanları olmalı, planlarda təlimlərə, metodiki göstərişlərə və keçid dövrünə yer ayrılmalıdır. Eyni zamanda, qiymətləndirmənin düzgünlüyü üçün məlumatlar tam, dəqiq və müqayisəolunan formatda olmalıdır.

Məlumat keyfiyyətinin yüksəldilməsi üçün standart terminologiya, vahid hesabat formatları, avtomatik yoxlama qaydaları və məlumatların dəyişdirilmə tarixçəsinin saxlanılması kimi mexanizmlər tətbiq oluna bilər. Normativ aktın qəbulundan əvvəl onun iqtisadi, inzibati, hüquqi və institusional nəticələri təhlil edilməlidir. Bu proses tənzimləyici təsirin qiymətləndirilməsi adlandırılır.

Rəqəmsal texnologiyalar dövlət maliyyə nəzarətinin sürətini və məlumatların təhlil imkanlarını artıra bilər. Elektron sənəd dövriyyəsi, avtomatik uyğunluq yoxlamaları, məlumatların inteqrasiyası və analitik alətlər nəzarət proseslərinin təkmilləşdirilməsinə xidmət edir. Bununla belə, rəqəmsallaşma yalnız proqram təminatının alınması demək deyil. Hüquqi normalar, məlumat standartları, texniki infrastruktur, əməkdaşların bacarıqları və informasiya təhlükəsizliyi tədbirləri birlikdə inkişaf etdirilməlidir.

Humanitar və İctimai Elmlər adlı Tezislər Toplusu / 22 Noyabr 2026 / 136-140
Collection of Theses on Humanitarian and Social Sciences / 22 November 2026 / 136-140
DOI: https://doi.org/10.36719/2706-6185/IV/HİETT/2026

Maliyyə hesabatlarında saxtakarlıq hallarının aşkarlanması və qarşısının alınması mexanizmləri

Amin Qəhrəmanov

Açar sözlər: *maliyyə hesabatları, saxtakarlıq, daxili nəzarət, audit, korporativ idarəetmə, riskin qiymətləndirilməsi*
Keywords: *financial statements, fraud, internal control, audit, corporate governance, risk assessment*

Maliyyə hesabatlarının etibarlılığı bazar iqtisadiyyatının normal fəaliyyəti, həmçinin investisiya, kredit və vergi qərarlarının düzgün qəbulu üçün vacib şərtdir; məlumatların qəsdən təhrif olunması isə iqtisadi münasibətlərdə etimadsızlıq yaradır. Maliyyə hesabatlarında saxtakarlıq – hesabat məlumatlarının qəsdən yanlış təqdim edilməsi, mühüm faktların gizlədilməsi və ya sənədlərin təhrif olunması yolu ilə istifadəçilərin yanıldılmasıdır (sadə riyazi səhv deyil, qəsdən törədilən qeyri-qanuni əməldir).

Gəlir, xərc və aktivlərin qəsdən yanlış göstərilməsi göstəriciləri süni şəkildə yaxşılaşdırmaq və ya vergi öhdəliklərini azaltmaq məqsədi daşıya bilər. Saxtakarlığın qarşısının alınmasında isə güclü daxili nəzarət sistemi, audit komitəsinin effektivliyi, müstəqil nəzarət orqanları və şəffaflıq mexanizmləri mühüm rol oynayır.

Bakı Biznes Universiteti, Magistrant, Bakı, Azərbaycan
E-poçt: aminqahramanov1@gmail.com

Saxtakarlıq bir neçə formada özünü göstərə bilər:
- Gəlirlərin süni şəkildə artırılması və ya xərclərin gizlədilməsi;
- Ehtiyatların, debitor borclarının və əsas vəsaitlərin dəyərinin düzgün qiymətləndirilməməsi;
- Öhdəliklərin balansdan kənar saxlanması;
- Uydurma müqavilələr, ödənişlər və ya təchizat əməliyyatları yaratmaq;
- Sənədlərdə tarix, məbləğ, tərəf və ya əməliyyatın məzmununu dəyişmək;
- Hesabatların tərtibində istifadə olunan uçot siyasətini məqsədyönlü şəkildə təhrif etmək.

Saxtakarlığın əsas şərtləri adətən üç elementdən ibarət olur: təzyiq, fürsət və məqsədin məqsəşuyğunluğu üzrə rasionalizasiya.

Təzyiq maliyyə göstəricilərinin yaxşılaşdırılması, kredit almaq, bonus qazanmaq və ya vergi yükünü azaltmaq ehtiyacından yaranır. Fürsət isə nəzarətin zəif olması, səlahiyyətlərin düzgün bölüşdürülməməsi və şəffaflığın azlığı ilə bağlıdır. Rasionalizasiya isə əməli həyata keçirən şəxsin öz hərəkətini müəyyən mənada "müvəqqəti", "zəruri" və ya "başqaları tərəfindən qəbul edilən" kimi əsaslandırmasından ibarətdir.

Maliyyə hesabatlarında saxtakarlığın ən geniş yayılmış formaları aşağıdakılardır:

1. Gəlirlərin saxtalaşdırılması: Mövcud olmayan satışların qeydə alınması və ya gələcək dövr gəlirlərinin cari dövrə keçirilməsi yolu ilə satışların süni artırılması.

2. Xərclərin və öhdəliklərin gizlədilməsi: Xərclərin sonrakı dövrlərə ötürülməsi və öhdəliklərin uçota alınmaması hesabına mənfəətin süni yüksəldilməsi.
3. Aktivlərin dəyərinin təhrif edilməsi: Ehtiyatların, debitor borclarının və əsas vəsaitlərin qəsdən yanlış qiymətləndirilməsi (məsələn, ümidsiz borclar üzrə ehtiyatların yaradılmaması).
4. Sənədlərin saxtalaşdırılması: Müqavilələrin, ödəniş və qəbul sənədlərinin, imzaların təhrif edilməsi (inventarizasiya və qarşılıqlı yoxlamalarla aşkarlanır).
5. Maliyyə nəticələrinin manipulyasiyası: Uçot siyasəti, amortizasiya və gəlirlərin tanınma qaydalarından sui-istifadə edərək hesabat istifadəçilərində yanlış təsəvvür yaradılması.

Maliyyə hesabatlarında saxtakarlığın yaranmasına təsir edən amillər həm daxili, həm də xarici xarakter daşıyır. Daxili amillərə müəssisənin idarəetmə strukturunun zəifliyi, daxili nəzarətin olmaması, işçilərin peşəkar hazırlığının aşağı olması və etik mühitin zəifliyi daxildir. Xarici amillər isə iqtisadi böhran, rəqabətin güclənməsi, kredit şərtlərinin ağırlaşması və vergi təzyiqi ilə əlaqədardır.

Əsas risk amilləri aşağıdakılardır:

- Rəhbərliyin maliyyə göstəricilərinə qarşı həddindən artıq təzyiq göstərməsi;
- Vəzifələrin bölüşdürülməsi prinsipinin pozulması;
- Səlahiyyətlərin bir neçə şəxsin əlində cəmləşməsi;
- Maliyyə əməliyyatlarının sənədləşdirilməsində qüsurlar;
- Daxili audit funksiyasının zəif olması və ya tam olmaması;
- Müstəqil auditorların fəaliyyətinə maneələrin yaradılması;
- Şəffaflığın və hesabatlılığın zəif olması;
- İşçilərin maliyyə məsələləri üzrə məlumatlılığının az olması.

Maliyyə nəzarəti prosesində müayinə, yoxlama, təftiş, monitorinq, müşahidə və təhlil kimi metodlar saxtakarlıq riskinin müəyyən edilməsində mühüm əhəmiyyət kəsb edir. Eyni zamanda, rəhbərliyin hesabat məlumatlarına müdaxilə etmək imkanının məhdudlaşdırılması saxtakarlıq ehtimalını əhəmiyyətli dərəcədə azaldır.

Maliyyə hesabatlarında saxtakarlığın aşkarlanması çoxistiqamətli prosesdir və həm ənənəvi, həm də müasir üsullara əsaslanır. Ən geniş istifadə olunan üsullardan biri analitik prosedurlardır. Bu prosedurlar hesabat göstəricilərinin dinamikasını, strukturlarını və qarşılıqlı əlaqələrini öyrənməklə qeyri-adi dəyişiklikləri müəyyən etməyə imkan verir. Məsələn, satış həcmi kəskin artırsa, debitor borcları və pul vəsaitlərinin hərəkəti buna uyğun artmırsa, bu, gəlirlərin süni şəkildə şişirdilməsi ehtimalını göstərə bilər. Eyni şəkildə, ehtiyatların artması satışların artması ilə uzlaşmırsa, malların real hərəkəti və ya qiymətləndirilməsi ilə bağlı problem ola bilər.

Audit prosedurları arasında aşağıdakılar xüsusi əhəmiyyət daşıyır:

- İlkin sənədlərin orijinallığının yoxlanması;
- Mühasibat uçotu qeydlərinin müqavilələr, ödəniş sənədləri və bank çıxarışları ilə müqayisəsi;
- Debitor və kreditor borclarının kənar təsdiqi;
- Ehtiyatların, kassa vəsaitlərinin və əsas vəsaitlərin inventarizasiyası;
- Hesabat göstəricilərinin əvvəlki dövrlər, plan göstəriciləri və sektor orta göstəriciləri ilə müqayisəsi;
- Qeyri-adi və ya böyük həcmli əməliyyatların ayrıca araşdırılması;
- Rəhbərlik və işçilərlə müsahibələrin aparılması.

Hesablama Palatasının yanaşmasında material ehtiyatlarının müşahidəsi, kənar təsdiq, təkrar hesablama və analitik əlaqələrin öyrənilməsi audit prosedurları kimi rəqəmlərin düzgünlüyü ilə yanaşı, əməliyyatların real iqtisadi məzmununu yoxlamağa imkan verir.

Saxtakarlığın qarşısının alınması yalnız auditə əsaslanan reaksiya deyil, fürsət yaratmamaq, şəffaflığı artırmaq və məsuliyyəti gücləndirən qabaqlayıcı idarəetmə sistemidir. Müstəqil audit hesabatların beynəlxalq standartlara uyğunluğunu qiymətləndirərək istifadəçilərə etibarlı rəy verir.

Vergi və dövlət audit qurumları kimi kənar nəzarət strukturları təftiş, yoxlama və inventarizasiya tədbirləri ilə əlavə zəmanət yaradır. Prosesdə insan amili (peşəkar etika, maliyyə savadlılığı, təlimlər) həlledici rol oynayır. Aşkarlamada isə analitik prosedurlar, sənədlərin müqayisəsi, inventarizasiya, kənar təsdiq və data analitikası mühüm vasitələrdir.

Beləliklə, maliyyə hesabatlarında saxtakarlığın qarşısının alınması üçün tək bir mexanizm kifayət etmir. Daxili nəzarət, audit, korporativ idarəetmə, hüquqi məsuliyyət və etik davranış mədəniyyəti bir-birini tamamlayan vahid sistem kimi qurulmalıdır. Bu yanaşma həm müəssisənin maliyyə etibarlılığını, həm də iqtisadiyyatda ümumi etimad mühitini gücləndirir.

Humanitar və İctimai Elmlər adlı Tezislər Toplusu / 22 Noyabr 2026 / 141-146
Collection of Theses on Humanitarian and Social Sciences / 22 November 2026 / 141-146
DOI: https://doi.org/10.36719/2706-6185/IV/HİETT/2026

Kiçik və orta sahibkarlıq subyektlərində daxili maliyyə nəzarətinin riskəsaslı təşkili və təkmilləşdirilməsi

Səbinə Xəlilova

Açar sözlər: *daxili maliyyə nəzarəti, maliyyə riskləri, likvidlik, pul axını, debitor borcları, risklərin idarə edilməsi*
Keywords: *internal financial control, financial risks, liquidity, cash flow, accounts receivable, risk management*

Kiçik və orta sahibkarlıq subyektləri iqtisadi fəallığın genişlənməsində, məşğulluğun təmin olunmasında və bazarda rəqabətin formalaşmasında mühüm yer tutur (Dünya Bankına əsasən, KOB-lar dünya müəssisələrinin təqribən 90%-ni və qlobal məşğulluğun yarıdan çoxunu təşkil edir). Lakin az sayda müştəridən asılılıq, məhdud maliyyə ehtiyatları və qərarların bir neçə şəxsdə cəmlənməsi onları gözlənilməz risklər qarşısında həssas edir.

Maliyyə riski müəssisənin məqsədlərinə çatmasına mane ola biləcək pul itkisi, öhdəliklərin icra edilməməsi və ya kənarlaşma ehtimalıdır. Gəlirlilik və ödəmə qabiliyyəti fərqli anlayışlar olduğu üçün mənfəətlə yanaşı, daxilolma müddəti, borc strukturu və nağd pul ehtiyatı da izlənməlidir ki, bu da daxili maliyyə nəzarətinin zəruriliyini yaradır.

Bakı Biznes Universiteti, Magistrant, Bakı, Azərbaycan
E-poçt: sabina.xalilova.22@gmail.com

KOB-larda daxili nəzarətin iqtisadi nəticələrinə dair tədqiqatlar və Beynəlxalq Mühasiblər Federasiyasının (IFAC) materialları riskəsaslı yanaşmanı və müəssisə ölçüsünə uyğun mühakiməni ön plana çıxarır. Hesabat barədə müstəqil rəy verən xarici auditdən fərqli olaraq, daxili nəzarət gündəlik idarəetmənin hissəsidir və ayrıca audit bölməsi olmadan da birbaşa sahibkar və ya menecer tərəfindən tətbiq edilə bilər.

Kiçik müəssisə fəaliyyətində nəzarət xərci ilə mümkün maliyyə itkisi arasında tarazlıq xüsusi əhəmiyyət daşıyır. Funksiyaların bir əməkdaşda cəmlənməsi ödənişlərin izsiz aparılmasına və uçotun gecikməsinə səbəb olduqda risk artır; odur ki, nəzarətin keyfiyyətini onun mürəkkəbliyi deyil, riskə münasibətdə dəqiqliyi və ardıcıllığı müəyyən edir.

Kiçik müəssisənin gəlir əldə etməsi onun hər gün ödəniş qabiliyyətinə malik olması anlamına gəlmir. Xammal, əməkhaqqı, icarə və vergi öhdəlikləri konkret tarixlərdə yerinə yetirilməlidir, satışdan əldə edilən məbləğ isə bəzən daha gec daxil olur. Bu səbəbdən ən sadə, lakin təsirli nəzarət alətlərindən biri həftələr üzrə tərtib olunan qısamüddətli pul axını planıdır. Plan gözlənilən daxilolmaları, təsdiqlənmiş və ehtimal olunan ödənişləri, minimum pul qalığını və mümkün kəsiri ayrıca göstərməlidir. Faktiki bank qalığı ilə uçot məlumatlarının müntəzəm uzlaşdırılması isə proqnozla yanaşı məlumatın etibarlılığını təmin edir.

Satışın artırılması məqsədilə müştəriyə uzun ödəmə müddəti vermək qısamüddətli dövrdə bazar payını genişləndirə, eyni zamanda pul dövriyyəsini zəiflədə bilər. Burada daxili nəzarət kredit limitlərinin təsdiqi, müqavilədə ödəniş şərtlərinin aydın yazılması, hesab-fakturaların vaxtında göndərilməsi və gecikmiş debitor borclarının yaşlandırma cədvəli ilə izlənməsindən ibarət

olmalıdır. Debitor borcunun ümumi məbləğindən əlavə onun hansı hissəsinin vaxtı keçmiş öhdəliklərdən ibarət olduğu müəyyənləşdirildikdə rəhbərlik satış həcmi ilə yığım keyfiyyətini fərqləndirə bilir. Təchizatçı ilə razılaşdırılmış qiymətin sonradan dəyişməsi, eyni hesabın təkrar ödənilməsi, faktiki təhvil alınmayan mala görə vəsait köçürülməsi və şəxsi maraqların alış qərarına təsir etməsi nəzarətsiz proseslərdə ortaya çıxa bilən risklərdir. Müəssisənin imkanına uyğun həll sifariş, təhvil sənədi və ödəniş sənədinin uyğunluğunun yoxlanmasıdır. Ödənişi hazırlayan əməkdaşın onu ayrıca təsdiqləməməsi daha sağlam təcrübədir. İşçi sayı kifayət etmirsə, kompensasiyaedici tədbir kimi sahibkarın həftəlik bank çıxarışlarını və seçilmiş əməliyyatları müstəqil nəzərdən keçirməsi tətbiq edilə bilər.

Ehtiyatların uçotunun natamam aparılması bir tərəfdən malların itkisini gizlədə, digər tərəfdən ehtiyacdan artıq alışa səbəb ola bilər. Bu risk xüsusilə topdansatış, pərakəndə ticarət və istehsal fəaliyyəti göstərən KOB-lar üçün əhəmiyyətlidir. Malların giriş-çıxışının tarix və məsul şəxs üzrə sənədləşdirilməsi, dövri sayımın aparılması, dövriyyəsi zəif olan ehtiyatların ayrılması və anbar nəticələrinin uçot qalığı ilə müqayisəsi nəzarətin əsas vasitələridir. Bahalı avtomatlaşdırma sistemi olmayan müəssisələrdə də standart elektron cədvəl və ardıcıl ilkin sənədlər bu vəzifəni qismən yerinə yetirə bilər.

Rəqəmsal ödənişlər və informasiya təhlükəsizliyi. Elektron bankçılıq və bulud mühasibat proqramları əməliyyat xərclərini azaltsa da, hesab girişlərinin paylaşılması, saxta ödəniş rekvizitləri və məlumatların itirilməsi kimi təhlükələr yaradır. Şirkətdə çoxfaktorlu identifikasiya, fərdi giriş hüquqları, ödəniş məlumatının müstəqil kanalla təsdiqi, ehtiyat nüsxələmə və istifadəçi səlahiyyətlərinin dövri yenilənməsi tətbiq edilməlidir.

Xüsusilə təchizatçının bank hesabı dəyişdikdə bu məlumatın yalnız e-poçt bildirişi əsasında qəbul edilməsi risklidir. Texniki nəzarət tədbirləri əməkdaşların sadə, lakin müntəzəm təlimi ilə tamamlanmalıdır.

Nəzarətin qabaqlayıcı xarakteri. Ənənəvi yanaşmada səhvin baş verdikdən sonra müəyyənləşdirilməsi nəzarətin əsas nəticəsi hesab edilir. Riskə əsaslanan yanaşma isə mümkün olduqda hadisə baş verməmişdən əvvəl onun qarşısının alınmasına üstünlük verir. Məsələn, təchizatçının bank məlumatının iki mənbə üzrə təsdiqi səhv köçürmədən əvvəl işləyir; ayın sonunda bank çıxarışının uzlaşdırılması isə artıq baş vermiş əməliyyatdakı uyğunsuzluğu aşkar edir. Hər iki vasitə lazımdır, lakin onların funksiyası fərqlidir. Beləliklə, məqsəd yalnız nəzarət aktı tərtib etmək yox, mümkün itkinin ehtimalını və təsirini azaltmaqdır.

Nəzarət prosedurlarının seçilməsi zamanı mütənasiblik prinsipi əsas götürülməlidir. Eyni məbləğli səhv köçürmə iri və kiçik müəssisənin maliyyə dayanıqlığına müxtəlif dərəcədə təsir edə bilər. Buna görə təsdiq limitləri, sayım tezliyi və hesabatların detallılığı konkret müəssisənin dövriyyəsinə, əməliyyat sayına və riskə dözümlülüyünə uyğun müəyyənləşdirilməlidir. Bunun əksinə olaraq, risk səviyyəsinə təsir etməyən əlavə imza mərhələləri vaxt itkisi yaradaraq işçiləri qeyri-rəsmi həll yollarına yönəldə bilər. Yaxşı nəzarət ölçülə bilən riski məhdudlaşdırmalı, lazımsız inzibati yükə çevrilməməlidir.

Məhdud resurslu şirkət üçün nəzarət sisteminin bir dəfəyə bütövlükdə yenidən qurulması real görünmür. Birinci mərhələdə bank və kassa qalığının gündəlik uyğunluğu, ödənişlərin səlahiyyətləndirilməsi və borcların vahid reyestri təmin oluna bilər. İkinci mərhələdə müqavilə limitləri, satınalma

sənədlərinin qarşılaşdırılması və inventarizasiya cədvəli tətbiq edilər. Üçüncü mərhələdə büdcə ilə faktiki nəticələrin aylıq müqayisəsi, göstəricilərin təhlili və risk reyestrinin dövri yenilənməsi təşkil olunar. Hər mərhələdə kim tərəfindən, hansı tezliklə və hansı sənədlə nəzarət aparılacağı əvvəlcədən müəyyənləşdirilməlidir.

Nəzarətin nəticələrini izləmək üçün yalnız pozuntu sayını deyil, əsas proseslərin keyfiyyətini də ölçmək mümkündür. Belə göstəricilərə gecikmiş debitor borclarının ümumi debitor portfelində payı, pul axını proqnozu ilə faktiki daxilolmalar arasındakı fərq, uçot və faktiki anbar qalıqları arasındakı uyğunsuzluq, təkrar ödənişlərin sayı və ödənişlərin təsdiq müddəti aid edilə bilər. Bu göstəricilərin dinamikası rəhbərə hansı nəzarətin fayda verdiyini, hansının isə yalnız sənədləşmə yükü yaratdığını anlamağa kömək edir. Lakin göstəricilər müəssisənin məqsədi və əməliyyat xüsusiyyətləri nəzərə alınmadan mexaniki müqayisə edilməməlidir.

Azərbaycan KOB-ları kontekstində tətbiq imkanları. Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 556 nömrəli qərarı sahibkarlıq subyektlərinin ölçüsünü işçi sayı və illik gəlir meyarları ilə müəyyən edir; kateqoriyanın seçilməsində göstəricilərdən daha yüksək olanı əsas götürülür. Bu təsnifat müəssisələrin idarəetmə resurslarının fərqliliyini nəzərə almağı zəruri edir. Eyni zamanda Dövlət Statistika Komitəsinin 2025-ci ildə dərc etdiyi "Azərbaycanda mikro, kiçik və orta sahibkarlıq" statistik məcmuəsi sahə üzrə rəsmi məlumat mənbəyi yaradır. Lakin burada təqdim edilən nəzəri nəticələr həmin məcmuənin mikro-məlumatlarının ekonometrik təhlilinə söykənmir. Ölkədə fəaliyyət göstərən kiçik müəssisələr üçün ilkin prioritet ayrıca bahalı nəzarət şöbəsi yaratmaqdan daha çox maliyyə məlumatının sistemliliyini təmin etmək ola bilər.

Faktiki mövcud resurslar şəraitində standart bank çıxarışları, elektron qaimələr, sadə büdcə faylları və müqavilələrin vahid reyestri risklərin görünməsinə imkan verən başlanğıc alətlərdir. Orta sahibkarlıq səviyyəsinə keçdikcə isə səlahiyyət limitlərinin yazılı təsdiqi, ayrı-ayrı funksiyalar üzrə məsuliyyət bölgüsü, analitik hesabatlılıq və müstəqil yoxlama elementlərinin genişləndirilməsi daha aktuallaşır. Belə differensial yanaşma beynəlxalq prinsiplərin yerli bazarın təşkilati imkanlarına uyğunlaşdırılmasına xidmət edir.

Müzakirə göstərir ki, daxili maliyyə nəzarətinin effektivliyi prosedurların sayından daha çox onların qarşılıqlı əlaqəsindən asılıdır. Məsələn, debitor borcları hesabatı hazırlanır, lakin satış meneceri gecikmələri nəzərə almadan eyni müştəriyə yeni kreditlə satış edirsə, məlumat idarəetmə qərarına çevrilmir. Eyni qaydada anbar qalığı uçotda düzgün göstərilsə də, fiziki sayım aparılmırsa, gözlənilməz itki gec aşkar edilə bilər. Buna görə hesabatın hazırlanması, məlumatın qiymətləndirilməsi və konkret qərarın icrası vahid nəzarət dövrü şəklində təşkil olunmalıdır.

Təklif edilən model KOB-ların müxtəlif sahələrdə və fərqli mülkiyyət formalarında fəaliyyət göstərməsini tam əvəz edə bilməz. İstehsal müəssisəsində anbar və xammal itkisi, xidmət müəssisəsində müqavilə icrası və əmək xərcləri, ticarət müəssisəsində isə debitor borcları daha mühüm risk mənbələri ola bilər. Bundan əlavə, mövcud tədqiqatların başqa ölkələrdə əldə edilmiş empirik nəticələrinin Azərbaycana birbaşa köçürülməsi doğru olmaz. Gələcək tədqiqatlarda müəssisələrin ölçüsü və fəaliyyət sahəsi üzrə seçmə formalaşdırılması, nəzarət tədbirlərinin tətbiqindən əvvəl və sonra maliyyə göstəricilərinin müqayisəsi elmi nəticələri gücləndirə bilər.

Humanitar və İctimai Elmlər adlı Tezislər Toplusu / 22 Noyabr 2026 / 147-151
Collection of Theses on Humanitarian and Social Sciences / 22 November 2026 / 147-151
DOI: https://doi.org/10.36719/2706-6185/IV/HİETT/2026

Maliyyə əməliyyatlarında ikiqat vergitutmanın aradan qaldırılması istiqamətləri

Rəvan Həsənov

Açar sözlər: *ikiqat vergitutma, maliyyə əməliyyatları, beynəlxalq vergi sazişləri, vergi rezidentliyi, vergi güzəştləri, vergi tənzimlənməsi*
Keywords: *double taxation, financial transactions, international tax treaties, tax residency, tax relief, tax regulation*

Müasir qlobal iqtisadi münasibətlər sistemində kapitalın beynəlxalq hərəkətinin intensivləşməsi və transsərhəd əməliyyatların genişlənməsi eyni gəlirin bir neçə ölkədə vergiyə cəlb edilməsi riskini artırdığından, ikiqat vergitutmanın aradan qaldırılması beynəlxalq vergi siyasətinin və investisiya mühitinin idarə edilməsində mühüm istiqamətə çevrilmişdir. İkiqat vergitutma eyni gəlirin və ya əmlakın iki və daha çox yurisdiksiyada vergiyə cəlb edilməsini ifadə edib, əsasən dövlətlərin rezidentlik (dünya üzrə gəlir) və gəlir mənbəyi prinsiplərini eyni vaxtda tətbiq etməsi nəticəsində yaranır. İkiqat vergitutmanın iqtisadi mahiyyəti müəssisələrin sərəncamındakı xalis resursları azaltmaqla investisiya layihələrinin səmərəliliyini zəiflətməsi və əməliyyat xərclərini artırması ilə xarakterizə olunur; buna görə də onun qarşısının alınması təkcə vergi yükünün azaldılması deyil, həm də beynəlxalq iqtisadi fəaliyyətin stimullaşdırılması baxımından vacibdir.

Bakı Biznes Universiteti, Magistrant, Bakı, Azərbaycan
E-poçt: ravanhasanov0720@gmail.com

İkiqat vergitutmanın yaranma səbəblərinin araşdırılması göstərir ki, bu problem, ilk növbədə, milli vergi sistemlərinin fərqli hüquqi prinsiplərə əsaslanmasından irəli gəlir. Dövlətlər öz fiskal suverenliklərini həyata keçirərkən vergi rezidentliyinin müəyyənləşdirilməsi, gəlirlərin mənbəyinin tanınması və vergitutma bazasının hesablanması üzrə müxtəlif qaydalar tətbiq edirlər. Bu fərqlər xüsusilə beynəlxalq kreditləşmə, investisiya fəaliyyəti, qiymətli kağızlarla əməliyyatlar, dividend ödənişləri, faiz gəlirləri və digər transsərhəd maliyyə münasibətlərində özünü göstərir.

Hüquqi və iqtisadi ikiqat vergitutma fərqli formalar üzrə təsnif edilir: hüquqi ikiqat vergitutma eyni vergi ödəyicisinin eyni gəlirinə görə bir neçə dövlət tərəfindən vergi tətbiq olunmasını, iqtisadi ikiqat vergitutma isə eyni gəlirin müxtəlif ödəyicilər səviyyəsində (məsələn, korporativ mənfəət və sonradan səhmdar dividendindən tutulan vergi) təkrar vergiyə cəlb edilməsini ifadə edir.

Bu fərqlərin müəyyənləşdirilməsi müvafiq mexanizmlərin seçilməsində vacibdir; belə ki, hüquqi ikiqat vergitutmanın qarşısı beynəlxalq sazişlər və vergilərin əvəzləşdirilməsi ilə alınır, iqtisadi ikiqat vergitutmanın yumşaldılması isə milli vergi mexanizmləri və xüsusi tənzimləmə tədbirləri tələb edir.

Maliyyə əməliyyatlarında bu problemin geniş yayıldığı əsas sahələrdən biri beynəlxalq investisiya fəaliyyətidir ki, burada investorların həm investisiya qoyulan, həm də rezidentlik ölkəsində vergi öhdəliyi ilə qarşılaşması xalis gəlirliliyə təsir göstərərək kapitalın hərəkətinə maneələr yaradır.

Bank sektorunda ikiqat vergitutma məsələləri xüsusilə transsərhəd kreditləşmə, beynəlxalq faiz ödənişləri, qiymətli

kağızlardan əldə edilən gəlirlər və xarici maliyyə institutları ilə aparılan əməliyyatlar zamanı aktuallıq qazanır. Bankların xarici ölkələrdə yerləşən tərəfdaşlardan faiz gəlirləri əldə etməsi və ya qeyri-rezident maliyyə institutlarına müəyyən ödənişlər həyata keçirməsi zamanı müxtəlif dövlətlərin vergitutma hüquqları arasında qarşılıqlı əlaqə yaranır. Bu səbəbdən bankların beynəlxalq maliyyə əməliyyatlarının planlaşdırılması zamanı müvafiq vergi sazişlərinin müddəaları və milli qanunvericiliyin tələbləri nəzərə alınmalıdır.

İkiqat vergitutmanın aradan qaldırılmasının əsas hüquqi mexanizmlərindən biri dövlətlər arasında bağlanan beynəlxalq vergi sazişləridir. Bu sazişlər vergitutma hüquqlarının iştirakçı dövlətlər arasında bölüşdürülməsini, müəyyən gəlir növləri üzrə vergi dərəcələrinin məhdudlaşdırılmasını və ikiqat vergitutmanın aradan qaldırılması üsullarını müəyyən edir. Beynəlxalq vergi sazişlərinin əsas məqsədi eyni gəlirin əsassız şəkildə təkrar vergiyə cəlb edilməsinin qarşısını almaqla yanaşı, vergidən yayınma və saziş müddəalarından sui-istifadə risklərini də məhdudlaşdırmaqdır.

Beynəlxalq təcrübədə ikiqat vergitutmanın aradan qaldırılması üzrə geniş istifadə olunan yanaşmalar İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının və Birləşmiş Millətlər Təşkilatının model vergi konvensiyalarında öz əksini tapır. Bu modellər dövlətlər arasında bağlanan ikitərəfli vergi sazişlərinin hazırlanması üçün metodoloji əsas rolunu oynayır. Bununla belə, konkret vergi münasibətlərinin tənzimlənməsi zamanı model konvensiyaların ümumi prinsipləri deyil, müvafiq dövlətlər arasında qüvvədə olan sazişin müddəaları tətbiq edilir.

Beynəlxalq vergi sazişləri çərçivəsində rezidentlik anlayışının müəyyənləşdirilməsi xüsusi əhəmiyyət daşıyır. Vergi

rezidentliyi şəxsin və ya müəssisənin hansı dövlətlə daha sıx vergi-hüquqi əlaqəyə malik olduğunu müəyyən edən əsas meyarlardan biridir. Rezidentlik statusunun düzgün müəyyənləşdirilməməsi eyni gəlir üzrə müxtəlif dövlətlərdə vergi öhdəliklərinin yaranmasına və vergi sazişlərində nəzərdə tutulan güzəştlərin tətbiqində çətinliklərə səbəb ola bilər.

Hüquqi şəxslərin vergi rezidentliyi müxtəlif ölkələrdə qeydiyyat yeri, faktiki idarəetmə yeri və digər qanunvericilik meyarları əsasında müəyyən edilə bilər. İki dövlətin eyni müəssisəni öz rezidenti hesab etməsi hallarında müvafiq vergi sazişinin müddəaları və səlahiyyətli orqanlar arasında razılaşdırma mexanizmləri mühüm rol oynayır. Bu səbəbdən beynəlxalq maliyyə əməliyyatları həyata keçirən müəssisələr rezidentlik statuslarını və tətbiq olunan vergi sazişlərinin şərtlərini əvvəlcədən qiymətləndirməlidirlər.

İkiqat vergitutmanın aradan qaldırılmasında əsas üsul xarici ölkədə ödənilmiş verginin rezidentlik ölkəsində hesablanan vergidən əvəzləşdirilməsidir (vergi krediti); bu mexanizm xarici mənbədən əldə edilən gəlir üzrə digər dövlətdə ödənilən məbləğin müəyyən hədlərdə rezidentlik ölkəsindəki vergi öhdəliyindən çıxılmasına imkan verir. Digər mühüm üsul isə müəyyən xarici mənbəli gəlirlərin rezidentlik ölkəsində vergitutma bazasından tam və ya qismən azad edilməsini nəzərdə tutan vergidən azadetmə metodudur.

Vergidən azadetmə və vergi əvəzləşdirməsi üsulları iqtisadi nəticələrinə görə fərqlənir: azadetmədə gəlir yenidən vergiyə cəlb olunmur, əvəzləşdirmədə isə gəlir bazaya daxil edilsə də, xaricdə ödənilən vergi hesablanan məbləğdən çıxılır (məsələn, 100 000 manat gəlirdən xaricdə 10 000, rezidentlikdə 20 000 manat vergi hesablandıqda, tam əvəzləşdirmə zamanı əlavə 10

000 manat ödənilməklə ümumi vergi yükü 20 000 manat təşkil edə bilər).

İkiqat vergitutmanın aradan qaldırılması mexanizmlərinin səmərəliliyi yalnız vergi dərəcələrinin azaldılması ilə müəyyən edilmir. Bu mexanizmlərin tətbiqi zamanı hüquqi müəyyənliyin təmin olunması, vergi prosedurlarının sadələşdirilməsi, sənədləşdirmə tələblərinin aydınlığı və vergi ödəyicilərinin məlumatlandırılması da mühüm əhəmiyyət daşıyır. Beynəlxalq maliyyə əməliyyatları həyata keçirən subyektlər üçün vergi nəticələrinin əvvəlcədən proqnozlaşdırılması investisiya və maliyyələşdirmə qərarlarının daha əsaslandırılmış şəkildə qəbul edilməsinə imkan verir.

Maliyyə əməliyyatlarında ikiqat vergitutmanın aradan qaldırılması istiqamətlərindən biri də beynəlxalq vergi sazişlərinin tətbiqi prosedurlarının təkmilləşdirilməsidir. Vergi sazişlərində nəzərdə tutulan güzəştlərin tətbiqi üçün rezidentlik sənədlərinin təqdim edilməsi, gəlirin faktiki sahibinin müəyyənləşdirilməsi və müvafiq digər şərtlərin yerinə yetirilməsi tələb oluna bilər. Bu prosedurların mürəkkəbliyi bəzi hallarda vergi ödəyicilərinin saziş üstünlüklərindən vaxtında istifadə etməsini çətinləşdirə bilər.

Vergi sazişlərinin tətbiqində inzibati prosedurların rəqəmsallaşdırılması və standartlaşdırılması bu problemlərin azaldılmasına kömək edə bilər. Elektron müraciət sistemlərinin inkişaf etdirilməsi, sənədlərin rəqəmsal formada təqdim edilməsi və müraciətlərin icra vəziyyətinin izlənilməsi vergi ödəyicilərinin inzibati xərclərini azalda və vergi orqanlarının fəaliyyətinin operativliyini yüksəldə bilər.

Humanitar və İctimai Elmlər adlı Tezislər Toplusu / 22 Noyabr 2026 / 152-156
Collection of Theses on Humanitarian and Social Sciences / 22 November 2026 / 152-156
DOI: https://doi.org/10.36719/2706-6185/IV/HİETT/2026

Bank sektorunda maliyyə əməliyyatlarına nəzarətin təkmilləşdirilməsi

Fuad Qarayev

Açar sözlər: *bank sektoru, maliyyə əməliyyatları, maliyyə nəzarəti, daxili audit, bank riskləri, rəqəmsal monitorinq*
Keywords: *banking sector, financial operations, financial control, internal audit, banking risks, digital monitoring*

Müasir iqtisadi inkişaf şəraitində bank sektoru maliyyə sisteminin əsas tərkib hissələrindən biri olduğundan bank sektorunda maliyyə əməliyyatlarına nəzarətin təkmilləşdirilməsi maliyyə idarəetməsinin prioritet istiqamətlərindən biri kimi çıxış edir. Bank sektorunda maliyyə əməliyyatlarına nəzarət kredit, depozit, hesablaşma, ödəniş, valyuta və investisiya əməliyyatlarının qanunvericiliyə, daxili sənədlərə və maliyyə intizamına uyğunluğunun qiymətləndirilməsini əhatə edən kompleks idarəetmə prosesi olub, şəffaflığı təmin etməyə, riskləri vaxtında müəyyənləşdirməyə və itkilərin qarşısını almağa xidmət edir. Maliyyə nəzarətinin iqtisadi mahiyyəti əməliyyatların yoxlanılması ilə yanaşı, bankın maliyyə fəaliyyətinin planlaşdırılması, risklərin proqnozlaşdırılması, qərarların əsaslandırılması və nəticələrin qiymətləndirilməsi funksiyalarını yerinə yetirərək strateji idarəetmənin ayrılmaz hissəsi olmaqdan ibarətdir.

Bakı Biznes Universiteti, Magistrant, Bakı, Azərbaycan
E-poçt: qarayevf938@gmail.com

Bank sektorunda maliyyə nəzarətinin aktuallığı maliyyə bazarlarında struktur dəyişiklikləri, rəqəmsal xidmətlərin genişlənməsi və əməliyyatların mürəkkəbləşməsi fonunda ənənəvi mexanizmlərin müasir texnoloji imkanlarla əlaqələndirilməsini zərurətə çevirir.

Azərbaycan Respublikasında bank sektorunun inkişafı, xidmətlərin rəqəmsallaşdırılması və korporativ idarəetmənin təkmilləşdirilməsi maliyyə əməliyyatlarına nəzarətin keyfiyyətinin artırılmasını tələb edir. Qanunvericilik və prudensial tənzimləmə tələblərinə uyğun olaraq aktiv-passivlərin idarə edilməsi, kapital adekvatlığı, likvidlik və əməliyyat risklərinin məhdudlaşdırılması nəzarətin əsas istiqamətləridir. Nəzarətin səmərəliliyi, ilk növbədə, bütün bölmələri əhatə edən, məlumatların etibarlılığını, aktivlərin qorunmasını və risklərin hədlər daxilində saxlanılmasını təmin edən daxili nəzarət sisteminin düzgün qurulmasından asılıdır.

Daxili nəzarət sisteminin əsas xüsusiyyətlərindən biri onun fasiləsiz xarakter daşımasıdır; gündəlik irihəcmli əməliyyatlar səbəbindən nəzarət yalnız dövri yoxlamalarla məhdudlaşmamalı, ilkin, cari və sonrakı nəzarət mexanizmləri qarşılıqlı əlaqədə işləməlidir.

İlkin nəzarət maliyyə əməliyyatlarının həyata keçirilməsindən əvvəl onların qanunvericiliyə, daxili prosedurlara və müəyyən edilmiş risk limitlərinə uyğunluğunun qiymətləndirilməsini nəzərdə tutur. Cari nəzarət əməliyyatların icrası zamanı yaranan uyğunsuzluqların operativ müəyyənləşdirilməsinə imkan verir. Sonrakı nəzarət isə həyata keçirilmiş əməliyyatların nəticələrinin təhlilini, mümkün pozuntuların aşkar edilməsini və gələcəkdə oxşar halların qarşısının alınması üçün tədbirlərin hazırlanmasını təmin edir.

Bankların maliyyə əməliyyatları arasında kredit əməliyyatları xüsusi yer tutur. Kredit portfeli bir çox kommersiya banklarının gəlir gətirən aktivlərinin əsas hissəsini təşkil etdiyindən kreditlərin verilməsi və geri qaytarılması prosesinə nəzarət bankın maliyyə dayanıqlılığına əhəmiyyətli təsir göstərir. Kredit əməliyyatlarına nəzarət borcalanların maliyyə vəziyyətinin qiymətləndirilməsini, kreditlərin məqsədli istifadəsinin izlənilməsini, təminatların dəyərinin müəyyənləşdirilməsini və kredit öhdəliklərinin vaxtında yerinə yetirilməsinin monitorinqini əhatə etməlidir.

Kredit nəzarətinin zəif təşkili problemli kreditlərin artmasına, ehtiyatların formalaşdırılması ilə bağlı xərclərin yüksəlməsinə və bankın gəlirliliyinin azalmasına səbəb ola bilər. Buna görə də kredit əməliyyatlarına nəzarətdə risk əsaslı yanaşmanın tətbiqi, borcalanların ödəmə qabiliyyətinin davamlı qiymətləndirilməsi və erkən xəbərdarlıq göstəricilərindən istifadə edilməsi məqsədəuyğundur. Bu yanaşma potensial kredit risklərinin vaxtında aşkar edilməsinə və onların maliyyə nəticələrinə mənfi təsirinin məhdudlaşdırılmasına şərait yaradır.

Depozit əməliyyatlarına nəzarət də bankların maliyyə resurslarının idarə edilməsində mühüm əhəmiyyət daşıyır; əsas resurs mənbəyi kimi bu əməliyyatların düzgün uçotu, faiz öhdəliklərinin dəqiq hesablanması və vəsaitlərin təhlükəsizliyi likvidlik risklərinin idarə edilməsinə və müştəri etimadının qorunmasına xidmət edir.

Ödəniş və hesablaşma əməliyyatlarına nəzarətin əhəmiyyəti rəqəmsal xidmətlərin inkişafı ilə daha da artır; elektron əməliyyatların sürəti və həcmi yüksəldikcə icazəsiz müdaxilələrin qarşısını almaq üçün avtomatlaşdırılmış

sistemlərin, çoxmərhələli autentifikasiyanın və real vaxt monitorinqinin tətbiqi zəruriləşir.

Maliyyə əməliyyatlarına nəzarətin təkmilləşdirilməsində risklərin idarə edilməsi mexanizmlərinin inkişaf etdirilməsi mühüm yer tutur; kredit, bazar, likvidlik, əməliyyat və reputasiya riskləri qarşılıqlı əlaqədə olduğundan nəzarət sistemi onların kompleks şəkildə qiymətləndirilməsinə əsaslanmalıdır.

Risk əsaslı maliyyə nəzarətinin mahiyyəti nəzarət tədbirlərinin risk səviyyəsinə uyğun təşkilindən ibarətdir; yüksək riskli əməliyyatlarda nəzarətin intensivləşdirilməsi, aşağı riskli əməliyyatlarda isə standartlaşdırılmış avtomatlaşdırılmış prosedurların tətbiqi resursların səmərəli bölgüsünə və xərclərin optimallaşdırılmasına imkan verir.

Banklarda maliyyə nəzarətinin səmərəliliyinə təsir göstərən əsas amillərdən biri də daxili audit sisteminin fəaliyyətidir. Daxili audit maliyyə əməliyyatlarının düzgünlüyünün, daxili nəzarət mexanizmlərinin etibarlılığının və risklərin idarə edilməsi prosedurlarının effektivliyinin müstəqil qiymətləndirilməsini həyata keçirir. Daxili auditin fəaliyyəti yalnız mövcud çatışmazlıqların aşkar edilməsinə deyil, həm də bankın idarəetmə sisteminin təkmilləşdirilməsinə yönəldilməlidir.

Müasir bank idarəetməsində daxili auditin risk əsaslı planlaşdırılması mühüm əhəmiyyət daşıyır. Audit yoxlamalarının tezliyi və əhatə dairəsi bank əməliyyatlarının risk səviyyəsi, maliyyə əhəmiyyəti və əvvəlki yoxlamaların nəticələri əsasında müəyyən edilməlidir. Bu yanaşma audit resurslarından daha məqsədyönlü istifadə edilməsinə və yüksək riskli fəaliyyət istiqamətlərinin daha dərindən qiymətləndirilməsinə imkan verir.

Banklarda daxili nəzarətin təşkilində üç xətt modelinin tətbiqi də əhəmiyyətli hesab olunur. Bu modelə əsasən birinci xətt əməliyyat bölmələrinin gündəlik risklərin idarə edilməsinə və nəzarət tədbirlərinin həyata keçirilməsinə görə məsuliyyətini əhatə edir. İkinci xətt risklərin idarə edilməsi və uyğunluq funksiyaları vasitəsilə nəzarət mexanizmlərinin dəstəklənməsini və monitorinqini təmin edir. Üçüncü xətt isə daxili audit vasitəsilə idarəetmə və nəzarət sistemlərinin müstəqil qiymətləndirilməsini həyata keçirir.

Maliyyə əməliyyatlarına nəzarətin təkmilləşdirilməsində informasiya texnologiyalarının tətbiqi xüsusi əhəmiyyət daşıyır; rəqəmsallaşma böyük həcmdə məlumatların qısa müddətdə emal edilməsinə və ənənəvi üsullarla aşkarlanması çətin olan risklərin müəyyənləşdirilməsinə şərait yaradır. Avtomatlaşdırılmış monitorinq sistemləri əməliyyatların parametrlər əsasında yoxlanılmasını, qeyri-adi halların seçilməsini təmin etməklə riskləri azaldır və insan səhvlərini məhdudlaşdırır.

Süni intellekt və böyük verilənlərin təhlili texnologiyaları isə maliyyə nəzarətində yeni imkanlar yaradaraq müştəri davranışlarındakı qeyri-adi dəyişiklikləri və potensial dələduzluq risklərini erkən mərhələdə aşkarlamağa imkan verir; baxmayaraq ki, avtomatlaşdırılmış qərarların etibarlılığı məlumatların keyfiyyətindən, alqoritmlərin düzgünlüyündən və insan nəzarətindən bilavasitə asılıdır.

Maliyyə nəzarətinin rəqəmsallaşdırılması zamanı informasiya təhlükəsizliyinin təmin edilməsi xüsusi diqqət tələb edir. Bankların informasiya sistemlərinə icazəsiz müdaxilə, müştəri məlumatlarının sızması, proqram təminatında yaranan nasazlıqlar və kiberdələduzluq halları ciddi maliyyə və reputasiya itkilərinə səbəb ola bilər.

Humanitar və İctimai Elmlər adlı Tezislər Toplusu / 22 Noyabr 2026 / 157-161
Collection of Theses on Humanitarian and Social Sciences / 22 November 2026 / 157-161
DOI: https://doi.org/10.36719/2706-6185/IV/HİETT/2026

Bank sektorunda səmərəli vergi planlaşdırılması və onun maliyyə nəticələrinə təsiri

Əli Hüseynov

Açar sözlər: *vergi planlaşdırması, vergi optimallaşdırması, vergi yükü, bank sektoru, maliyyə göstəriciləri, gəlirlilik*
Keywords: *Tax planning, tax optimization, tax burden, banking industry, financial performance, profitability*

Müasir iqtisadi münasibətlər sistemində bank sektoru maliyyə resurslarının səfərbər olunması, bölüşdürülməsi və investisiya fəallığının stimullaşdırılmasında mühüm institusional rol oynayır; bu baxımdan maliyyə dayanıqlılığını və rəqabət qabiliyyətini gücləndirmək üçün vergi planlaşdırılması bankların maliyyə strategiyasının vacib tərkib hissəsi kimi çıxış edir. Vergi planlaşdırılması bankların mövcud qanunvericiliyə riayət etməklə vergi öhdəliklərini əvvəlcədən müəyyənləşdirməsini və nəzərdə tutulan imkanlardan səmərəli istifadə etməsini əhatə edən kompleks idarəetmə prosesi olub, öhdəliklərin süni azaldılmasına deyil, vergi yükünün qanuni və iqtisadi cəhətdən əsaslandırılmış idarə edilməsinə yönəlir. Vergi planlaşdırılması müəssisələrin maliyyə idarəetmə sistemində öhdəliklərin proqnozlaşdırılması və optimallaşdırılması tədbirləri məcmusudur; bank sektorunda isə müxtəlif maliyyə əməliyyatları, fərqli gəlir mənbələri və prudensial tənzimləmə mexanizmləri səbəbindən bu proses daha mürəkkəb xarakter daşıyır.

Bakı Biznes Universiteti, Magistrant, Bakı, Azərbaycan
E-poçt: alihuseynovalii636@gmail.com

Bankların vergi planlaşdırılması sistemi yalnız cari vergi ödənişlərinin hesablanması ilə məhdudlaşmır. Bu sistem gələcək maliyyə nəticələrinin proqnozlaşdırılmasını, vergi risklərinin qiymətləndirilməsini, investisiya qərarlarının vergi nəticələrinin müəyyənləşdirilməsini və kapitaldan istifadənin səmərəliliyinin artırılmasını da əhatə edir.

Vergi planlaşdırılmasının iqtisadi mahiyyəti bankın maliyyə maraqları ilə dövlətin fiskal maraqları arasında qanunvericilik çərçivəsində tarazlığın təmin edilməsində ifadə olunur; dövlətin büdcə gəlirlərini formalaşdırması ilə bankların resurslardan səmərəli istifadə etmək hədəfinin uzlaşdırılması vergi intizamına əsaslanan mexanizmlərin yaradılmasını tələb edir.

Vergi planlaşdırılması ilə vergidən yayınma anlayışları arasında mühüm fərq mövcuddur: planlaşdırma qanunvericiliklə verilən imkanlar daxilində öhdəliklərin idarə edilməsidirsə, vergidən yayınma gəlirlərin gizlədilməsi və əməliyyatların təhrif edilməsi kimi qanunsuz üsullarla öhdəliklərin icra edilməməsidir.

Bu fərqin nəzərə alınması bank sektoru üçün xüsusilə vacibdir, çünki bank fəaliyyətində şəffaflıq, etibarlılıq və reputasiya maliyyə nəticələrinə birbaşa təsir göstərən əsas şərtlərdir.

Vergi planlaşdırılması bankın ümumi maliyyə strategiyasına inteqrasiya olunduqda daha yüksək səmərəlilik əldə edilir; bu zaman kredit və investisiya siyasəti, aktiv-passivlərin idarə olunması, kapital strukturu və əməliyyat xərcləri vergi nəticələri nəzərə alınmaqla qiymətləndirilir.

Bankların maliyyə nəticələri onların gəlirlərinin, xərclərinin, aktivlərinin, öhdəliklərinin və kapitalının qarşılıqlı əlaqəsi əsasında formalaşır. Vergi öhdəlikləri isə bu göstəricilərə

müxtəlif istiqamətlərdə təsir göstərir. Buna görə də vergi planlaşdırılmasının səmərəliliyinin qiymətləndirilməsi zamanı yalnız ödənilən vergilərin məbləği deyil, həmin ödənişlərin bankın ümumi maliyyə vəziyyətinə təsiri də nəzərə alınmalıdır.

Vergi planlaşdırılmasının likvidliyə təsiri də xüsusi əhəmiyyət daşıyır; vergi ödənişlərinin əvvəlcədən proqnozlaşdırılması pul vəsaitlərinə tələbatın düzgün müəyyənləşdirilməsinə və gözlənilməz maliyyə çatışmazlıqlarının qarşısının alınmasına kömək edir. Bununla yanaşı, vergi planlaşdırılması bankların investisiya qərarlarının (yeni filialların açılması, İT və rəqəmsal xidmətlərin tətbiqi, əsas vəsaitlərin yenilənməsi) iqtisadi əsaslandırılmasına da təsir göstərərək ümumi maliyyə səmərəliliyinin daha dəqiq qiymətləndirilməsinə imkan verir.

Bankların maliyyə fəaliyyətində vergi riskləri qanunvericiliyin düzgün tətbiq edilməməsi, vergi bazasının yanlış müəyyənləşdirilməsi və ya dəyişikliklərin vaxtında nəzərə alınmaması nəticəsində meydana çıxa bilər.

Banklarda vergi risklərinin əsas mənbələrindən biri mühasibat standartlarına əsaslanan maliyyə uçotu ilə qanunvericilik qaydaları ilə tənzimlənən vergi uçotu arasındakı fərqlərdir (gəlir-xərc tanınması, amortizasiya, ehtiyatların yaradılması). Xüsusilə kreditlər üzrə gözlənilən kredit zərərlərinin maliyyə hesabatlarında tanınması ilə vergi məqsədləri üçün nəzərə alınması arasında fərqlər mövcud olduğundan, banklar bu uyğunsuzluqları sistemli şəkildə qiymətləndirməlidirlər.

Vergi risklərinin idarə edilməsi üçün banklarda əməliyyatların düzgün sənədləşdirilməsini, hesabatların yoxlanılmasını və uyğunsuzluqların erkən aşkarlanmasını təmin edən effektiv daxili nəzarət mexanizmlərinin yaradılması zəruridir.

Daxili audit sisteminin vergi planlaşdırılması prosesinə inteqrasiyası da mühüm əhəmiyyət daşıyır. Daxili audit vergi prosedurlarının qanunvericiliyə uyğunluğunu qiymətləndirməklə yanaşı, mövcud nəzarət mexanizmlərinin səmərəliliyini müəyyənləşdirir və onların təkmilləşdirilməsi üzrə tövsiyələr hazırlayır.

Vergi risklərinin idarə edilməsində informasiya texnologiyalarının tətbiqi xüsusi perspektivlər yaradır. Müasir bank informasiya sistemləri vergi öhdəliklərinin avtomatik hesablanmasına, əməliyyat məlumatlarının sistemləşdirilməsinə və hesabatların hazırlanmasına imkan verir. Bu isə insan amilindən irəli gələn səhvlərin azalmasına və vergi uçotunun etibarlılığının yüksəlməsinə şərait yaradır.

Vergi uçotunun rəqəmsallaşdırılması bankların müxtəlif struktur bölmələri arasında məlumat mübadiləsini də sürətləndirir. Mühasibat, maliyyə planlaşdırılması, risklərin idarə edilməsi və daxili audit bölmələri arasında vahid informasiya mühitinin formalaşdırılması vergi qərarlarının daha operativ və əsaslandırılmış şəkildə qəbul edilməsinə kömək edir. Bununla yanaşı, rəqəmsal sistemlərin tətbiqi məlumat təhlükəsizliyi, informasiya keyfiyyəti və texnoloji asılılıqla bağlı yeni risklər də yaradır. Buna görə də avtomatlaşdırma tədbirləri müvafiq informasiya təhlükəsizliyi mexanizmləri və daxili nəzarət prosedurları ilə müşayiət olunmalıdır. Bank sektorunda vergi planlaşdırılmasının səmərəliliyinin artırılması vergi strategiyasının formalaşdırılmasını, maliyyə qərarlarının vergi nəticələrinin qiymətləndirilməsini, daxili nəzarətin gücləndirilməsini və rəqəmsal texnologiyaların tətbiqini əhatə edən kompleks yanaşma tələb edir. İlk növbədə, vergi planlaşdırılması bankların uzunmüddətli inkişaf strategiyalarına inteqrasiya olunmalı, gələcək öhdəliklərin proqnozlaşdırılması,

investisiya layihələrinin vergi nəticələrinin qiymətləndirilməsi və müxtəlif maliyyə ssenarilərinin müqayisəsi həyata keçirilməlidir. Bu məqsədlə banklarda vergi qərarlarının qəbul edilməsi, məsuliyyət bölgüsü, hesabatlılıq və nəzarət mexanizmlərini müəyyənləşdirən xüsusi daxili prosedurların hazırlanması məqsədəuyğundur.

İkinci mühüm istiqamət vergi uçotu və hesabat prosedurlarının rəqəmsallaşdırılmasıdır. Avtomatlaşdırılmış informasiya sistemləri vasitəsilə məlumatların emalı və monitorinqi əməliyyat xərclərinin azalmasına, hesabatların dəqiqliyinin isə yüksəlməsinə şərait yaradır.

Üçüncü istiqamət vergi planlaşdırılmasında insan kapitalının rolunun gücləndirilməsi, yəni mühasibat, maliyyə və vergi əməkdaşlarının peşəkar biliklərinin artırılması və onların qanunvericilik yenilikləri ilə beynəlxalq hesabat standartları barədə müntəzəm məlumatlandırılmasıdır.

Dördüncü istiqamət vergi qanunvericiliyindəki normativ hüquqi dəyişikliklərin sistemli monitorinqinin aparılması, onların maliyyə fəaliyyətinə təsirinin qiymətləndirilməsi və daxili prosedurlara vaxtında inteqrasiya olunması üçün xüsusi nəzarət mexanizminin yaradılmasıdır.

Beşinci istiqamət beynəlxalq bank təcrübəsində vergi risklərinin idarə edilməsi, korporativ vergi şəffaflığı və maliyyə hesabatlarının uyğunlaşdırılması yanaşmalarının öyrənilməsidir. Bununla belə, beynəlxalq təcrübənin tətbiqi zamanı Azərbaycan Respublikasının vergi qanunvericiliyinin xüsusiyyətləri, bank sektorunun institusional quruluşu və milli maliyyə bazarının inkişaf səviyyəsi mütləq nəzərə alınmalıdır.

Humanitar və İctimai Elmlər adlı Tezislər Toplusu / 22 Noyabr 2026 / 162-166
Collection of Theses on Humanitarian and Social Sciences / 22 November 2026 / 162-166
DOI: https://doi.org/10.36719/2706-6185/IV/HİETT/2026

Azərbaycan və Türkiyədə ibtidai təhsil məzmununun müasir inkişaf istiqamətləri

Nurgül Kərimli

Açar sözlər: *ibtidai təhsil, təhsil məzmunu, milli kurikulum, sərişdə əsaslı yanaşma, rəqəmsallaşma, təlim nəticələri*
Keywords: *primary education, educational content, national curriculum, competency-based approach, digitalization, learning outcomes*

Müasir dövrdə cəmiyyətdə baş verən sosial, texnoloji və mədəni dəyişikliklər ibtidai təhsilin məzmununun davamlı təkmilləşdirilməsini zəruri edir. İbtidai təhsil mərhələsi şagirdlərdə fundamental bilik və bacarıqların, müstəqil öyrənmə vərdişlərinin, ünsiyyət və əməkdaşlıq sərişdələrinin formalaşmasında mühüm rol oynayır. Buna görə də müasir təhsil məzmunu yalnız biliklərin mənimsənilməsinə deyil, onların praktik tətbiqinə, yaradıcı və tənqidi təfəkkürün inkişafına, milli və ümumbəşəri dəyərlərin mənimsənilməsinə istiqamətlənməlidir. Azərbaycan və Türkiyədə ibtidai təhsilin məzmununun yenilənməsi dövlət təhsil standartlarının, milli kurikulumların və müasir pedaqoji yanaşmaların təkmilləşdirilməsi ilə əlaqədardır.

Bakı Slavyan Universiteti, Magistrant, Bakı, Azərbaycan
E-poçt: kerimli.nurgul.sh@bsu-uni.edu.az

Azərbaycanda ümumi təhsilin dövlət standartları təlim nəticələrinin müəyyənləşdirilməsi, məzmunun təşkili və şagird nailiyyətlərinin qiymətləndirilməsi üçün normativ əsas yaradır (Azərbaycan Respublikasında ümumi təhsilin dövlət standartlarının təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı, 2020). Türkiyədə isə Türkiye Yüzyılı Maarif Modeli təhsilalanın çoxşaxəli inkişafını, bilik və bacarıqların dəyərlərlə əlaqələndirilməsini və səriştə əsaslı təlimin gücləndirilməsini nəzərdə tutur (Millî Eğitim Bakanlığı, 2024).

Azərbaycan və Türkiyədə ibtidai təhsil məzmununun müasir inkişaf istiqamətlərindən biri nəticəyönümlü və səriştə əsaslı yanaşmanın gücləndirilməsidir. Bu yanaşma təlim prosesinin əvvəlcədən müəyyən edilmiş nəticələr əsasında təşkilini, şagirdlərin əldə etdikləri bilikləri praktik situasiyalarda tətbiq etməsini və fərdi inkişafının dəstəklənməsini nəzərdə tutur. Azərbaycan Respublikasının ümumi təhsil üzrə dövlət standartlarında təlim nəticələrinin müəyyənləşdirilməsi və şagirdlərin bilik və bacarıqlarının inkişafı əsas istiqamətlərdəndir (Azərbaycan Respublikasında ümumi təhsilin dövlət standartlarının təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı, 2020). Türkiyənin yeni təhsil modelində də fənn biliklərinin bacarıqlarla əlaqələndirilməsi və təlim nəticələrinin şagirdin hərtərəfli inkişafına xidmət etməsi ön plana çəkilir (Millî Eğitim Bakanlığı, 2024).

Digər mühüm istiqamət təhsil məzmununun həyatla əlaqələndirilməsi və fənlərarası inteqrasiyanın genişləndirilməsidir. Müasir ibtidai təhsildə şagirdlərin ayrı-ayrı fənlər üzrə bilikləri mənimsəməsi ilə yanaşı, həmin biliklərdən real problemlərin həllində istifadə etməsi də vacibdir. Bunun

üçün layihə əsaslı təlim, praktik tapşırıqlar, tədqiqat xarakterli fəaliyyətlər və gündəlik həyat situasiyalarına əsaslanan çalışmaların tətbiqi məqsədəuyğundur. Bu metodlar şagirdlərdə məntiqi təfəkkür, yaradıcılıq, problem həll etmə və əməkdaşlıq bacarıqlarının inkişafına şərait yaradır.

Rəqəmsallaşma və rəqəmsal savadlılığın inkişafı da ibtidai təhsil məzmununun yenilənməsində əhəmiyyətli yer tutur. Rəqəmsal resursların dərs prosesinə inteqrasiyası öyrənməni daha interaktiv və fərdi ehtiyaclara uyğun təşkil etməyə imkan verir. Bununla yanaşı, şagirdlərdə rəqəmsal təhlükəsizlik, şəxsi məlumatların qorunması, informasiyanın etibarlılığının qiymətləndirilməsi və texnologiyalardan məsuliyyətli istifadə bacarıqlarının formalaşdırılması vacibdir. Rəqəmsal vasitələr təlimin məqsədinə uyğun seçilməli, müəllimlə şagird arasında canlı pedaqoji ünsiyyəti və praktik fəaliyyəti əvəz etməməlidir.

İbtidai təhsilin müasir inkişaf istiqamətlərindən biri də şəxsiyyətyönümlü və inklüziv təlimin genişləndirilməsidir. Şagirdlərin öyrənmə tempi, maraqları, qabiliyyətləri və fərdi ehtiyacları fərqləndiyindən təlim məzmunu və tapşırıqların mürəkkəblik səviyyəsi bu xüsusiyyətlərə uyğunlaşdırılmalıdır. Diferensiallaşdırılmış tapşırıqlar, formativ qiymətləndirmə və fərdi geribildirim hər bir şagirdin təlimdə iştirakını və inkişafını dəstəkləyən vasitələrdir. Bu istiqamətdə müəllimlərin metodik hazırlığının gücləndirilməsi və təlim materiallarının müxtəlif ehtiyaclara uyğun hazırlanması xüsusi əhəmiyyət daşıyır.

Azərbaycan və Türkiyədə təhsil məzmununun inkişafında milli-mənəvi dəyərlərlə ümumbəşəri dəyərlərin əlaqələndirilməsi də mühüm istiqamətdir. İbtidai təhsil şagirdlərdə milli kimlik, vətənə bağlılıq, tarixi və mədəni irsə hörmət, eyni zamanda insan hüquqlarına, mədəni müxtəlifliyə və digər xalqların dəyərlərinə

hörmət kimi keyfiyyətləri formalaşdırmalıdır. Türkiyənin Türkiye Yüzyılı Maarif Modeli bilik, bacarıq və dəyərlərin əlaqəli inkişafını nəzərdə tutur (Millî Eğitim Bakanlığı, 2024). Azərbaycanda da ümumi təhsilin dövlət standartları təlimin məzmununda milli və ümumbəşəri dəyərlərin nəzərə alınması üçün əsas yaradır (Ümumi təhsil haqqında Azərbaycan Respublikasının Qanunu, 2019).

Beləliklə, hər iki ölkədə ibtidai təhsilin məzmununun inkişafı nəticəyönümlülüyün gücləndirilməsi, rəqəmsal və həyati bacarıqların formalaşdırılması, inklüzivliyin təmin olunması və milli dəyərlərin qorunması ilə əlaqəlidir. Bu istiqamətlərin səmərəli həyata keçirilməsi təlim nəticələri, tədris metodları və qiymətləndirmə vasitələri arasında uyğunluğun təmin edilməsini tələb edir.

Azərbaycan və Türkiyədə ibtidai təhsil məzmununun müasir inkişaf istiqamətləri şagirdlərin hərtərəfli inkişafına və dəyişən cəmiyyətin tələblərinə uyğun səriştələr qazanmasına yönəlir. Nəticəyönümlü təlim, fənlərarası inteqrasiya, rəqəmsal savadlılıq, inklüziv təhsil və milli dəyərlərin mənimsədilməsi bu prosesin əsas komponentləridir. Təhsil məzmununun davamlı təkmilləşdirilməsi üçün kurikulumların müasir tələblərə uyğun yenilənməsi, müəllimlərin peşəkar inkişafının dəstəklənməsi və qiymətləndirmənin şagirdin fərdi irəliləyişini əks etdirməsi vacibdir. Hər iki ölkənin təcrübəsinin müqayisəli öyrənilməsi ibtidai təhsilin keyfiyyətinin yüksəldilməsi üçün faydalı yanaşmaların müəyyənləşdirilməsinə imkan verir.

Ədəbiyyat

Azərbaycan Respublikasında ümumi təhsilin dövlət standartlarının təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (№ 361). (2020, 29 sentyabr). e-Qanun. https://e-qanun.az/framework/46002

Ümumi təhsil haqqında Azərbaycan Respublikasının Qanunu (№ 1545-VQ). (2019, 29 mart). Azərbaycan Respublikası Prezidentinin Rəsmi İnternet Saytı. https://president.az/az/articles/view/33288

Millî Eğitim Bakanlığı. (2024). *Türkiye Yüzyılı Maarif Modeli öğretim programları ortak metni*. T.C. Millî Eğitim Bakanlığı. https://tymm.meb.gov.tr/

Humanitar və İctimai Elmlər adlı Tezislər Toplusu / 22 Noyabr 2026 / 167-172
Collection of Theses on Humanitarian and Social Sciences / 22 November 2026 / 167-172
DOI: https://doi.org/10.36719/2706-6185/IV/HİETT/2026

Vergi öhdəliklərinin icrasına nəzarətin təkmilləşdirilməsi

Faiq Ağazadə

Açar sözlər: *vergi öhdəlikləri, vergi nəzarəti, vergi intizamı, vergi inzibatçılığı, rəqəmsal monitorinq, vergi riskləri*
Keywords: *tax obligations, tax control, tax compliance, tax administration, digital monitoring, tax risks*

Müasir iqtisadi sistemdə vergi öhdəliklərinin vaxtında və tam yerinə yetirilməsi dövlətin maliyyə dayanıqlılığının və büdcə gəlirlərinin formalaşmasında mühüm rol oynayır; bu baxımdan nəzarətin təkmilləşdirilməsi təkcə fiskal maraqların qorunması deyil, həm də iqtisadi şəffaflığın, maliyyə intizamının və ədalətli rəqabət mühitinin təmin edilməsi üçün xüsusi aktuallıq kəsb edir. Vergi öhdəliklərinin icrasına nəzarət mükəlləfiyyətlərin düzgün və vaxtında yerinə yetirilməsinin yoxlanılması, uyğunsuzluqların aradan qaldırılması məqsədilə həyata keçirilən təşkilati, hüquqi və iqtisadi tədbirlər məcmusu olub, uçotun aparılmasını, bəyannamələrin qiymətləndirilməsini, vergi bazasının müəyyənləşdirilməsini, ödənişlərə nəzarəti və vergi risklərinin idarə edilməsini əhatə edir. Vergi nəzarətinin iqtisadi mahiyyəti dövlətin fiskal maraqları ilə vergi ödəyicilərinin qanuni iqtisadi mənafeləri arasında tarazlığın təmin olunmasında ifadə edilir.

Bakı Biznes Universiteti, Magistrant, Bakı Azərbaycan
E-poçt: agazadefaiq8@gmail.com

Dövlət vergi daxilolmalarının sabitliyini və büdcə öhdəliklərinin maliyyələşdirilməsini təmin etməyə çalışdığı halda, vergi ödəyiciləri öz fəaliyyətlərinin rentabelliyini qorumaqda və vergi öhdəliklərini qanunvericiliyə uyğun şəkildə optimallaşdırmaqda maraqlıdırlar. Bu maraqların uzlaşdırılması vergi nəzarətinin şəffaf, obyektiv və risk əsaslı prinsiplər üzərində qurulmasını tələb edir.

Vergi öhdəliklərinə nəzarətin səmərəliliyi təkcə tətbiq olunan sanksiyalarla deyil, pozuntuların qabaqcadan qarşısının alınması, könüllü vergi intizamının gücləndirilməsi və qarşılıqlı etimadın yaradılması ilə qiymətləndirilməlidir.

Nəzarət sisteminin təkmilləşdirilməsi inzibatçılığın inkişafını tələb edir; elektron ticarət və rəqəmsal ödənişlərin genişlənməsi ənənəvi yoxlama üsulları ilə yanaşı yeni mexanizmlərin tətbiqini zəruri edir. Əsas istiqamətlərdən biri olan vergi ödəyicilərinin uçotunun düzgün təşkili (qeydiyyat, rejimlər, məlumat bazası) risklərin qiymətləndirilməsinə və tədbirlərin məqsədyönlü planlaşdırılmasına imkan yaradır.

Vergi bəyannamələrinin düzgünlüyünə nəzarət isə vergi bazasının əsaslandırılmış şəkildə müəyyənləşdirilməsi və büdcəyə daxilolmaların dəqiq hesablanması baxımından mühüm yer tutur.

Vergi bəyannamələrinə nəzarətin təkmilləşdirilməsi müxtəlif informasiya mənbələrindən əldə edilən məlumatların qarşılıqlı müqayisəsini və avtomatlaşdırılmış yoxlama mexanizmlərinin tətbiqini nəzərdə tutur. Elektron qaimə-fakturalar, elektron kassa məlumatları, qanunvericiliklə əldə edilməsinə icazə verilən bank və ödəniş məlumatları, gömrük məlumatları və digər informasiya mənbələri arasında uyğunluğun qiymətləndirilməsi

potensial vergi risklərinin müəyyənləşdirilməsinə kömək edə bilər.

Vergi öhdəliklərinin icrasına nəzarətin mühüm istiqamətlərindən biri də hesablanmış vergilərin vaxtında ödənilməsinin təmin edilməsidir. Vergi borclarının yaranması dövlət büdcəsinə daxilolmaların proqnozlaşdırılmasını çətinləşdirə və fiskal idarəetmənin səmərəliliyinə mənfi təsir göstərə bilər. Buna görə də vergi ödənişlərinin monitorinqi, ödəniş intizamının qiymətləndirilməsi və gecikmələrin səbəblərinin müəyyənləşdirilməsi vergi nəzarəti sisteminin əsas vəzifələrindən biri hesab edilməlidir.

Vergi nəzarətinin səmərəliliyinin yüksəldilməsində risk əsaslı yanaşmanın tətbiqi xüsusi əhəmiyyət daşıyır. Bu yanaşmanın mahiyyəti vergi ödəyicilərinin və onların əməliyyatlarının risk səviyyəsinə uyğun qiymətləndirilməsi, nəzarət resurslarının daha yüksək riskli istiqamətlərə yönəldilməsi və aşağı riskli vergi ödəyicilərinə münasibətdə inzibati yükün azaldılmasından ibarətdir. Risk əsaslı vergi nəzarəti yoxlamaların məqsədyönlülüyünü artırmaqla yanaşı, vergi inzibatçılığına çəkilən xərclərin optimallaşdırılmasına da imkan yaradır.

Vergi risklərinin müəyyənləşdirilməsi zamanı vergi ödəyicisinin fəaliyyət sahəsi, əməliyyatlarının həcmi, vergi ödənişlərinin dinamikası, bəyannamələrdəki uyğunsuzluqlar, əvvəlki dövrlərdə aşkar edilmiş pozuntular və digər obyektiv göstəricilər nəzərə alına bilər. Bununla belə, risk göstəricilərinin mövcudluğu avtomatik olaraq vergi qanunvericiliyinin pozulması kimi qiymətləndirilməməlidir. Risk qiymətləndirilməsi yalnız əlavə araşdırmaya ehtiyacın müəyyənləşdirilməsi üçün analitik vasitə kimi istifadə olunmalıdır.

Vergi nəzarətinin təkmilləşdirilməsində rəqəmsal texnologiyaların tətbiqi mühüm istiqamətlərdən biridir. Elektron vergi inzibatçılığı vergi ödəyicilərinin qeydiyyatı, bəyannamələrin təqdim edilməsi, ödənişlərin həyata keçirilməsi və vergi məlumatlarının emalı proseslərini sadələşdirir. Rəqəmsallaşdırma vergi orqanları ilə vergi ödəyiciləri arasında informasiya mübadiləsini sürətləndirməklə yanaşı, nəzarət tədbirlərinin operativliyini və şəffaflığını artırır.

Elektron bəyannamə sistemləri vergi məlumatlarının standartlaşdırılmış formada təqdim edilməsini və avtomatik yoxlanılmasını təmin edir. Bu sistemlər vasitəsilə hesablama səhvlərinin, məlumat uyğunsuzluqlarının və müəyyən edilmiş formal tələblərə əməl edilməməsi hallarının vaxtında aşkarlanması mümkündür. Nəticədə vergi ödəyicilərinin hesabatların hazırlanmasına sərf etdikləri vaxt azala, vergi orqanlarının məlumatların emalına çəkdiyi inzibati xərclər isə optimallaşdırıla bilər.

Elektron qaimə-faktura və elektron kassa sistemləri vergi nəzarətinin informasiya imkanlarını genişləndirən mühüm vasitələrdir. Bu sistemlər təsərrüfat əməliyyatlarının sənədləşdirilməsini, satış dövriyyəsinin izlənilməsini və müvafiq vergi məlumatlarının qarşılıqlı yoxlanılmasını asanlaşdırır. Bununla belə, elektron məlumatların mövcudluğu bütün vergi risklərinin avtomatik aradan qalxması demək deyildir. Məlumatların düzgünlüyü, əməliyyatların iqtisadi mahiyyəti və qanunvericiliyin tətbiqi ilə bağlı məsələlər ayrıca qiymətləndirilməlidir.

Müasir vergi nəzarətində böyük verilənlərin təhlili və süni intellekt texnologiyalarından istifadə imkanları da genişlənir. Bu texnologiyalar müxtəlif mənbələrdən əldə edilən məlumatların

sistemləşdirilməsinə, qeyri-adi əməliyyatların müəyyənləşdirilməsinə və potensial vergi risklərinin erkən mərhələdə aşkarlanmasına kömək edə bilər. Xüsusilə çoxsaylı təsərrüfat əməliyyatlarının həyata keçirildiyi sahələrdə avtomatlaşdırılmış analitik sistemlərin tətbiqi nəzarət tədbirlərinin məqsədyönlülüyünü yüksəldə bilər.

Süni intellekt əsaslı nəzarət sistemlərinin tətbiqi zamanı alqoritmlərin şəffaflığı, məlumatların etibarlılığı, yanlış risk qiymətləndirmələrinin qarşısının alınması və vergi ödəyicilərinin hüquqlarının qorunması xüsusi əhəmiyyət daşıyır. Avtomatlaşdırılmış sistemlər vergi orqanlarının qərarvermə prosesini dəstəkləməli, hüquqi nəticələr doğuran qərarlar isə qanunvericiliyin tələblərinə və obyektiv qiymətləndirmə prinsiplərinə əsaslanmalıdır.

Vergi öhdəliklərinin icrasına nəzarətin digər mühüm istiqaməti vergi ödəyicilərinin könüllü uyğunluq səviyyəsinin yüksəldilməsidir; bu davranış vergi sisteminə inam, qanunvericiliyin aydınlığı, şəffaf inzibatçılıq və əlçatan xidmətlər əsasında məcburi tədbirlərdən asılı olmayaraq öhdəliklərin vaxtında icrasını ifadə edir.

Vergi ödəyicilərinin məlumatlandırılması və maarifləndirilməsi (qanunvericilik yeniliklərinin çatdırılması, elektron xidmətlərin izahı və metodiki dəstək) səhvlərin azalmasına və könüllü intizamın güclənməsinə şərait yaradır.

Vergi orqanları ilə ödəyicilər arasında qarşılıqlı əməkdaşlıq mexanizmlərinin inkişafı sualların operativ cavablandırılması və uyğunsuzluqların erkən mərhələdə aradan qaldırılması hesabına nəzarətin səmərəliliyini artırır.

Vergi nəzarətinin təşkilində mühüm məsələlərdən biri də yoxlamaların keyfiyyətinin artırılmasıdır ki, bunun səmərəliliyi yoxlamaların sayının çoxluğu ilə deyil, risklərin düzgün müəyyənləşdirilməsi, əsaslandırılması və obyektiv qiymətləndirilməsi ilə təmin olunur.

Humanitar və İctimai Elmlər adlı Tezislər Toplusu / 22 Noyabr 2026 / 173-177
Collection of Theses on Humanitarian and Social Sciences / 22 November 2026 / 173-177
DOI: https://doi.org/10.36719/2706-6185/IV/HİETT/2026

Ali təhsildə formativ qiymətləndirmədə süni intellektdən istifadə imkanları

Nəzrin Əliyeva

Açar sözlər: *süni intellekt, ali təhsil, formativ qiymətləndirmə, Sİ əsaslı qiymətləndirmə, fərdiləşmiş təlim*
Keywords: *artificial intelligence, higher education, formative assessment, AI-based assessment, personalized learning*

Ali təhsildə formativ qiymətləndirmə yalnız tələbənin nə qədər bilik əldə etdiyini ölçməklə məhdudlaşmır. Eyni zamanda, tələbənin mövzunu necə mənimsədiyini, hansı mərhələdə çətinlik çəkdiyini və inkişafı üçün nələrə ehtiyac duyduğunu müəyyən etmək də vacibdir. Formativ qiymətləndirmə məhz bu məqsədə xidmət edir. Burada əsas diqqət yekun nəticədən daha çox, tələbənin öyrənmə prosesində göstərdiyi irəliləyişin izlənməsinə yönəlir. Bu prosesdə geribildirim mühüm rol oynayır. Müəllimin verdiyi geribildirim tələbəyə səhvlərini və onların səbəblərini anlamağa, növbəti mərhələdə isə həmin səhvləri aradan qaldırmağa kömək edir. Praktikada isə formativ qiymətləndirmənin həyata keçirilməsi zamanı müəyyən çətinliklər yaranır. Tələbə sayı çox olduqda onların tapşırıqlarını ətraflı yoxlamaq, hər birinə fərdi geribildirim vermək və inkişafını davamlı izləmək müəllimdən xeyli vaxt tələb edir. Bundan başqa, tələbələrin bilik səviyyəsi və öyrənmə sürəti fərqli olduğu üçün hamıya eyni geribildirim verməsi düzgün yanaşma deyil.

Bakı Slayvan Universiteti, Magistrant, Bakı, Azərbaycan
E-poçt: naazryn24@gmail.com

Süni intellekt (Sİ) texnologiyalarından istifadə bu prosesdə müəllimin işini asandlaşdırır. Məsələn, süni intellekt vasitəsilə tələbələrin tapşırıqlarını təhlil etmək, çətinlik çəkdikləri mövzuları müəyyənləşdirmək və fərdi geribildirim hazırlamaq mümkündür. Lakin burada əsas məqsəd müəllimi əvəz etmək deyil, onun iş yükünü azaltmaq və formativ qiymətləndirməni daha səmərəli təşkil etməkdir. Bununla belə, süni intellektin təqdim etdiyi məlumatların düzgünlüyü yoxlanılmalı və bu proses müəllimin nəzarəti altında aparılmalıdır (Almasov, 2025, s. 6-7).

Süni intellektin formativ qiymətləndirmədə istifadə imkanlarından biri tələbəyə operativ geribildirim verilməsidir. Süni intellekt əsaslı sistemlər tələbənin cavablarını təhlil edərək yol verdiyi səhvləri müəyyənləşdirir. Bu zaman tələbə hazır cavabı almaq əvəzinə, öz səhvləri üzərində düşünməyə və onları müstəqil şəkildə düzəltməyə yönləndirilir. Belə yanaşma tələbənin mövzunu daha yaxşı mənimsəməsinə,eyni zamanda müstəqil öyrənmə bacarıqlarının inkişafına şərait yaradır.

Süni intellektdən tələbənin bilik səviyyəsinə uyğun tapşırıqların seçilməsində də istifadə olunur. Bu zaman tələbənin əvvəlki cavabları və çətinlik çəkdiyi mövzular nəzərə alınır. Məsələn, mövzunu mənimsəməkdə çətinlik çəkən tələbəyə əlavə izahlar və sadə çalışmalar təqdim edilir. Mövzunu yaxşı mənimsəyən tələbə üçün isə daha mürəkkəb tapşırıqlar seçilir. Beləliklə, tələbələrin fərdi öyrənmə ehtiyaclarını nəzərə almaq mümkün olur.

Süni intellektin digər istifadə istiqaməti tələbələrin inkişafının izlənməsidir. Tələbələrin nəticələrini təhlili hansı mövzuların əlavə izaha ehtiyac duyduğunu müəyyənləşdirməyə şərait yaradır. Müəllim bu məlumatlardan istifadə edərək növbəti

dərsləri planlaşdıra və çətinlik çəkən tələbələrə fərdi dəstək göstərir. Bununla belə, süni intellektin təqdim etdiyi nəticələr müəllimin müşahidələri ilə birlikdə qiymətləndirilməlidir. Çünki tələbənin inkişafını düzgün qiymətləndirmək üçün yalnız süni intellektin verdiyi məlumatlara əsaslanmaq kifayət deyil (Holmes et al., 2019, p. 102).

Azərbaycanda da süni intellektin tədris və qiymətləndirmədə istifadə ilə bağlı müəyyən addımlar atılır. Müəllimlər üçün təlimlər keçirilir və süni intellektdən istifadə qaydaları hazırlanır. Bu təşəbbüslərdə tapşırıqların hazırlanması, formativ qiymətləndirmə və tələbələrə geribildirim verilməsi kimi məsələlərə diqqət yetirilir (Kazımzadə, 2026). Lakin süni intellektin Azərbaycan dilində hazırladığı izahların aydınlığı və terminlərin düzgünlüyü də yoxlanılmalıdır. Verilən tövsiyələrin fənnin məqsədlərinə və tələbənin bilik səviyyəsinə uyğun olması vacibdir. Buna görə də süni intellektin hazırladığı geribildirim tələbəyə təqdim edilməzdən əvvəl müəllim tərəfindən nəzərdən keçirilməlidir.

Süni intellektin ali təhsildə tətbiqi zamanı texniki imkanlar, müəllimlərin bu texnologiyadan istifadə bacarıqları və tələbə məlumatlarının qorunması nəzərə alınmalıdır. Tələbələrin şəxsi məlumatlarının təhlükəsizliyi üçün yalnız zəruri məlumatlardan istifadə olunmalıdır. Həmçinin məlumatlara kimin çıxış edə biləcəyi və onların necə saxlanılacağı əvvəlcədən müəyyənləşdirilməlidir. Müəllimlərin süni intellektdən düzgün istifadə etməsi və sistemin hazırladığı nəticələrin yoxlanılması da vacibdir (Miao və Holmes, 2023). Bu şərtlərə əməl edildikdə süni intellektin formativ qiymətləndirmədə nə dərəcədə faydalı olduğunu tələbələrin irəliləyişini izləməklə müəyyən etmək mümkündür.

Ali təhsildə formativ qiymətləndirməni daha səmərəli üçün süni intellektdən müəllim nəzarəti altında istifadə olunması təklif edilir. Bu yanaşmada müxtəlif fənlər üzrə yazılı tapşırıqların qiymətləndirilməsində tətbiq oluna bilər. Bunun üçün müəllim əvvəlcə tapşırığın məqsədini və qiymətləndirmə meyarlarını müəyyən edir. Daha sonra tələbələrin təqdim etdiyi işlər həmin meyarlar əsasında süni intellekt vasitəsilə ilkin təhlil olunur.

Süni intellekt tapşırıqlardakı mümkün səhvləri və çatışmazlıqları müəyyənləşdirərək ilkin geribildirim hazırlayır. Müəllim bu geribildirimi nəzərdən keçirir, lazım gəldikdə düzəlişlər edir və tələbəyə təqdim edir. Tələbə aldığı tövsiyələr əsasında işini yenidən nəzərdən keçirir və səhvlərini düzəldir. Daha sonra müəllim tələbənin ilkin və düzəldilmiş işlərini müqayisə edir. Bu müqayisə tələbənin hansı məsələlərdə irəlilədiyini və hansı mövzularda əlavə dəstəyə ehtiyac duyduğu müəyyənləşdirilir.

Bu yanaşmada tələbənin yalnız yekun nəticəsi deyil, tapşırıq üzərində işləmə prosesi də nəzərə alınır. Müəllim tələbədən etdiyi düzəlişlərin səbəblərini izah etməsini istəyə bilər. Bu, tələbənin öz səhvlərini nə dərəcədə anladığını müəyyən etməyə imkan verir. Təklif olunan yanaşmanın faydalılığını yoxlamaq üçün onun real tədris prosesində sınaqdan keçirilməsi və tələbələrin ilkin və son işlərinin müqayisə edilməsi məqsədəuyğundur.

Aparılan nəzəri təhlil göstərir ki, süni intellekt ali təhsildə formativ qiymətləndirmənin daha səmərəli təşkilində faydalı vasitədir. Bu texnologiyadan istifadə müəllimin qiymətləndirməyə sərf etdiyi vaxtı azaltmağa, tələbələrin fərdi öyrənmə ehtiyaclarını nəzərə almağa və vaxtında geribildirim verilməsi baxımından müəyyən üstünlüklər yaradır. Eyni

zamanda tələbələrin öz səhvləri üzərində düşünməsinə və müstəqil öyrənmə bacarıqlarının inkişafını dəstəkləyir. Lakin süni intellektdən səmərəli istifadə etmək üçün onun təqdim etdiyi məlumatların müəllim tərəfindən yoxlanılması vacibdir.

Azərbaycan ali təhsil müəssisələrində süni intellektin tətbiqi zamanı bu texnologiyadan istifadə bacarıqlarının artırılması, Azərbaycan dilində hazırlanan məlumatların düzgünlüyü və tələbələrin şəxsi məlumatlarının qorunması xüsusi əhəmiyyət daşıyır. Tezisdə təklif olunan praktik yanaşma süni intellektdən müəllim nəzarəti altında istifadəyə əsaslanır. Bu yanaşmanın real tədris prosesində sınaqdan keçirilməsi faydalılığının qiymətləndirilməsi üçün əhəmiyyətlidir. Beləliklə, süni intellekt formativ qiymətləndirmədə müəllimi əvəz edən deyil, onun fəaliyyətini dəstəkləyən vasitə kimi istifadə olunmalıdır.

Ədəbiyyat

Almasov, N. (2025). Süni intellektin təhsil sistemində avtomatlaşdırılmış və obyektiv qiymətləndirmədə rolu. *İpək yolu*, (2), 5–11.

Holmes, W., Bialik, M., & Fadel, C. (2019). *Artificial intelligence in education: Promises and implications for teaching and learning*. Center for Curriculum Redesign.

Kazımzadə, M. (2026, 10 iyun). Süni intellekt dövründə klassik testlər və esse öz effektivliyini tamamilə itirir – ADPU-nun prorektoru. *Azərbaycan müəllimi*.

Miao, F., & Holmes, W. (2023). *Guidance for generative AI in education and research*. UNESCO Publishing.

Humanitar və İctimai Elmlər adlı Tezislər Toplusu / 22 Noyabr 2026 / 178-181
Collection of Theses on Humanitarian and Social Sciences / 22 November 2026 / 178-181
DOI: https://doi.org/10.36719/2706-6185/IV/HİETT/2026

Oyun əsaslı öyrənmənin XXI əsr bacarıqlarının inkişafında rolu

Gülay Ələkbərova

Açar sözlər: *oyun əsaslı öyrənmə, XXI əsr bacarıqları, tənqidi düşünmə, yaradıcılıq, əməkdaşlıq, kommunikasiya, rəqəmsal savadlılıq*
Keywords: *game-based learning, 21st-century skills, critical thinking, creativity, collaboration, communication, digital literacy*

Müasir təhsilin əsas məqsədi yalnız şagirdlərə bilik ötürmək deyil, onların əldə etdikləri biliyi müxtəlif situasiyalarda praktik şəkildə tətbiq etməsidir. İnformasiya texnologiyalarının inkişafı və əmək bazarının dəyişməsi fonunda XXI əsr bacarıqlarının formalaşdırılması xüsusi əhəmiyyət daşımağa başladı. Oyun prosesində müxtəlif strategiyalar quran və problemlər həll edən şagirdlər passiv məlumat qəbulundan daha çox fəaliyyət və tətbiq üzərində çalışmağa başladılar. Oyun əsaslı öyrənmə şagird yönümlü təlim yanaşmalarından biri olmaqla, şagirdlərin fəal iştirkını təşviq edir (Azərbaycan Respublikasının Təhsil İnstitutu, 2023). Oyun əsaslı öyrənmənin XXI əsr bacarıqlarının inkişafındakı əsas istiqamətlərdən biri tənqidi düşünmə və problem həlletmə bacarıqlarıdır. Tənqidi düşünmə şagirdin məlumatı təhlil edərək sübutları qiymətləndirməsi və əsaslandırılmış məlumatı qəbul edə bilməsidir.

Bakı Slavyan Universiteti, Magistrant, Bakı, Azərbaycan
E-poçt: gulayalakbarova3@gmail.com

Oyun mühitində şagird qarşısına çıxan problemi həll etmək üçün müxtəlif strategiyalar haqqında düşünməli və qəbul etdiyi qərarları qiymətləndirməlidir. Mao və həmkarlarının meta-analizinin nəticələri oyun əsaslı öyrənmənin tənqidi düşünməyə təsirini daha konkret statistik nəticələrlə ortaya qoyur. Aparılan 20 empirik araşdırma nəticəsində rol oyunlarının təsiri daha yüksək olmuş və tənqidi düşünməyə təsiri (g=0.863) daha yüksək olduğu müəyyən edilmişdir (Mao et al., 2022, p. 12).

Yaradıcılıq da XXI əsr bacarıqlarının mühüm komponentlərindən biridir. Yaradıcılıq yeni ideyaların irəli sürülməsi, alternativ həll yollarının tapılması və mövcud biliklərin yeni situasiyalarda tətbiqi ilə əlaqələndirilir. Çenq və Uezerli tərəfindən 2025-ci ildə keçirilən meta-analizdə 7797 iştirakçı iştirak etmişdir. Araşdırmalar nəticəsində öyrənilmişdir ki, oyunların yaradıcılıq üzərində təsiri az olsa da, müsbət (g=0.37) olmuşdur (Cheng & Weatherly, 2025, p. 12).

Oyun əsaslı öyrənmə şagirdlərdə əməkdaşlıq və kommunikasiya bacarıqlarının formalaşmasına şərait yaradır. Komanda əsaslı oyunlarda şagirdlər ümumi məqsədə çatmaq üçün rollları bölüşür, məlumat mübadiləsi aparır və bir-birlərinin fikirlərini dinləyirlər. Bu fəaliyyət şagirdlərə öz fikirlərini ifadə etməklə yanaşı, digər insanların mövqelərini də dəyərləndirməyi öyrədir. Eyni zamanda, oyun zamanı ortaya çıxan problemlərin həlli alternativ yanaşmaların araşdırılmasını, yaradıcı ideyaların irəli sürülməsini və qərarların məntiqi əsaslarla qiymətləndirilməsini tələb edir. Deməli, oyun əsaslı öyrənmə şagirdlərin yalnız akademik biliklərini deyil, həm də müxtəlif situasiyalarda tətbiq edə biləcəkləri sosial və koqnitiv bacarıqların inkişafına töhfə verir.

Cəfərovanın tədqiqatında XXI əsr bacarıqlarının məktəbəqədər təhsil proqramına inteqrasiyası araşdırılmış, tənqidi düşünmə,

yaradıcılıq, əməkdaşlıq və rəqəmsal savadlılıq kimi bacarıqlar vurğulanmışdır. Müəllif oyun əsaslı təlim və layihə əsaslı öyrənmə bu bacarıqların inkişafına xidmət edən əsas yanaşmalar kimi tədqim edir və xüsusilə oyun əsaslı təlimin şagirdin təşəbbüsünü və marağını ön plana çıxardığını qeyd edir (Cəfərova, 2025, s. 11).

Bununla yanaşı, oyun əsaslı öyrənmənin müəyyən məhdudiyyətləri vardır. Hər oyun təlim məqsədinə uyğun deyil və oyunun əyləncəli təbiəti hər zaman öyrənmə məqsədlərinə tam çatmağa imkan yaratmır. Vaxt məhdudiyyəti, texniki imkanların çatışmazlığı və müəllimin hazırlıq səviyyəsi bu yanaşmanın tətbiqini çətinləşdirir. Bundan əlavə, rəqabət hər şagird üçün eyni səviyyədə motivasiyaedici olmaya bilər. Buna görə oyunların seçimi şagirdlərin yaş səviyyəsi, fənn, təlim məqsədləri və sinif xüsusiyyətlərini nəzərə almaqla aparılmalıdır.

Nəticə olaraq, XXI əsr bacarıqlarının inkişafı üçün oyun əsaslı təlim əhəmiyyətli pedaqoji imkanlara malikdir. Oyun mühitinin XXI əsr bacarıqlarının formalaşmasında rolu onun şagirdi passiv bilik qəbul edən tərəfdən fəal öyrənənə çevrilməsi ilə izah olunur. Oyun prosesində qarşıya çıxan problemlərin həlli, seçimlərin edilməsi və müxtəlif strategiyaların sınanası şagirdlərin düşünmə və qərarvermə bacarıqlarını inkişaf etdirir. Bu yanaşmanın müəyyən məhdudiyyətləri olmasına baxmayaraq, oyun əsaslı öyrənmə düzgün planlaşdırıldıqda və təlim məqsədlərinə uyğun tətbiq edildikdə şagirdlərin XXI əsr bacarıqlarının inkişafına əhəmiyyətli töhfə verə bilər.

Ədəbiyyat

Azərbaycan Respublikasının Təhsil İnstitutu. (2023, 20 sentyabr). *Pərvinə Qədimova – Oyun əsaslı öyrənmənin şagirdlərin sosial-emosional inkişafında rolu*. YouTube. https://youtu.be/AKLG7QaM0-g

Cəfərova, L. (2025). XXI əsr bacarıqlarının məktəbəqədər təhsil proqramına inkişafyönlü inteqrasiyası. *Azərbaycan məktəbi*, (3), 9–18.

Cheng, C., & Weatherly, K. I. C. H. (2025). Navigating the double-edged sword: A meta-analysis of the effects of digital games on 21st century skills. *Educational Research Review*, *48*, Article 100710. https://doi.org/10.1016/j.edurev.2025.100710

Mao, W., Cui, Y., Chiu, M. M., & Lei, H. (2022). Effects of game-based learning on students' critical thinking: A meta-analysis. *Journal of Educational Computing Research*, *60*(3), 668–693. https://doi.org/10.1177/07356331211007098

Humanitar və İctimai Elmlər adlı Tezislər Toplusu / 22 Noyabr 2026 / 182-186
Collection of Theses on Humanitarian and Social Sciences / 22 November 2026 / 182-186
DOI: https://doi.org/10.36719/2706-6185/IV/HİETT/2026

Xarici dövlət borcunun idarə edilməsində beynəlxalq modellər

İsrafil İsmayilov

Açar sözlər: *xarici dövlət borcu, beynəlxalq borc modelləri, borc dayanıqlılığı, fiskal risklər, borc strategiyası*
Keywords: *external public debt, international debt models, debt sustainability, fiscal risks, debt management strategy*

Xarici dövlət borcu dövlətin qeyri-rezident kreditorlar qarşısında beynəlxalq maliyyə təşkilatları, xarici dövlətlər və kapital bazarları vasitəsilə formalaşan öhdəliklərinin məcmusu olub, əsas meyar kimi kreditorun rezidentlik statusuna əsaslanır (valyuta növündən asılı olmayaraq qeyri-rezidentlərin milli valyutadakı istiqrazlara sahibliyi də xarici borc sayılır). Dövlət borcunun idarə edilməsi yalnız vəsaitlərin cəlbi və qaytarılması ilə məhdudlaşmayıb, strategiyanın hazırlanması, portfel strukturunun optimallaşdırılması və risklərin qiymətləndirilməsi yolu ilə orta və uzunmüddətli dövrdə maliyyələşdirmə ehtiyaclarının minimum xərc və məqbul risklə təmin olunmasına yönəlir; bu zaman valyuta tərkibi, faiz dərəcələri, ödəmə müddətləri və yenidən maliyyələşdirmə imkanları nəzərə alınmalıdır.

Bakı Biznes Universiteti, Magistrant, Bakı, Azərbaycan
E-poçt: israfil044a@gmail.com

Beynəlxalq praktikada xarici dövlət borcunun idarə edilməsinin bütün ölkələr üçün universal vahid modeli mövcud deyildir və yanaşmalar iqtisadi inkişaf səviyyəsi, maliyyə bazarları və institusional keyfiyyətdən asılı olaraq fərqlənir; bununla belə, beynəlxalq təcrübədə qarşılıqlı əlaqədə tətbiq olunan institusional-mərkəzləşdirilmiş, bazaryönümlü, fiskal qaydalara əsaslanan, riskəsaslı strateji və borc dayanıqlılığına istiqamətlənmiş idarəetmə modelləri fərqləndirilir.

Xarici dövlət borcunun idarə edilməsində geniş istifadə olunan yanaşmalardan biri mərkəzləşdirilmiş institusional modeldir. Bu modelin əsas xüsusiyyəti dövlət borcunun planlaşdırılması, cəlb edilməsi, uçotu, monitorinqi və risklərinin qiymətləndirilməsi funksiyalarının vahid ixtisaslaşmış qurumda və ya əlaqələndirilmiş idarəetmə sistemində cəmləşdirilməsidir. Mərkəzləşdirilmiş idarəetmə dövlətin müxtəlif qurumları arasında məlumat mübadiləsini gücləndirir, borclanma qərarlarının vahid strategiyaya uyğun qəbul edilməsini təmin edir və dövlət maliyyəsi üzərində nəzarətin səmərəliliyini artırır. Bu modeldə borc portfelinin idarə edilməsi peşəkar maliyyə menecmenti prinsiplərinə əsaslanır.

Mərkəzləşdirilmiş modelin mühüm nümunələrindən biri İsveçin dövlət borcunun idarə edilməsi sistemidir. İsveçdə dövlət borcunun idarə olunmasında ixtisaslaşmış dövlət qurumu olan Milli Borc İdarəsi mühüm rol oynayır. Bu qurum dövlətin borclanma əməliyyatlarını həyata keçirir, borc portfelinin idarə olunmasını təşkil edir və müəyyən edilmiş risk məhdudiyyətləri çərçivəsində maliyyələşdirmə qərarları qəbul edir. İsveç təcrübəsində dövlət borcunun idarə edilməsi ilə fiskal siyasət arasında funksional əlaqə saxlanılır, lakin gündəlik borclanma əməliyyatlarının peşəkar əsaslarla təşkili xüsusi əhəmiyyət daşıyır. Bu yanaşma borclanma qərarlarının qısamüddətli siyasi

təsirlərdən müəyyən dərəcədə qorunmasına və maliyyə bazarlarında dövlətin etibarlı borcalan kimi mövqeyinin möhkəmləndirilməsinə şərait yaradır.

Beynəlxalq təcrübədə diqqət çəkən digər yanaşma bazaryönümlü dövlət borcu idarəetmə modelidir; inkişaf etmiş maliyyə bazarlarında tətbiq olunan bu model borclanma ehtiyaclarının qiymətli kağızlar bazarı (müntəzəm istiqraz emissiyası, likvidliyin artırılması və investorlarla kommunikasiya) vasitəsilə qarşılanmasına üstünlük verərək milli maliyyə bazarlarının inkişafını dəstəkləyir.

Böyük Britaniya təcrübəsində investorlarla sistemli münasibətlər və müxtəlif müddətli alətlər vasitəsilə mənbələrin şaxələndirilməsi və borclanma xərclərinin optimallaşdırılması təmin edilir; lakin bu prinsipin effektivliyi maliyyə bazarlarının dərinliyindən, investor etimadından və dövlətin kredit qabiliyyətindən bilavasitə asılıdır.

Xarici dövlət borcunun idarə edilməsində fiskal qaydalara əsaslanan model borc artımını büdcə kəsiri, borcun ÜDM-ə nisbəti və struktur balans kimi məhdudiyyətlərlə əlaqələndirərək həddindən artıq borclanmanın qarşısını almağa və uzunmüddətli maliyyə dayanıqlılığını qorumağa xidmət edir.

Almaniyanın fiskal idarəetmə təcrübəsində struktur büdcə kəsirinə konstitusion məhdudiyyətlər (fövqəladə hallar üçün istisnalarla) tətbiq olunur ki, bu da proqnozlaşdırılan mühit yaratsa da, böhranlar zamanı çevikliyi qorumaq üçün fiskal intizamla makroiqtisadi çeviklik arasında tarazlıq tələb edir.

Avropa İttifaqında tətbiq olunan fiskal nəzarət mexanizmləri borcun ÜDM-ə nisbəti üzrə 60%, büdcə kəsiri üzrə 3% istinad

göstəricilərinə əsaslanmaqla yanaşı, ölkələrin fərdi borc vəziyyətini, orta müddətli xərclər trayektoriyasını və iqtisadi artım potensialını da qiymətləndirir. Xarici dövlət borcunun idarə edilməsində beynəlxalq maliyyə təşkilatlarının formalaşdırdığı metodoloji yanaşmalar xüsusi əhəmiyyət daşıyır. Beynəlxalq Valyuta Fondu və Dünya Bankı tərəfindən inkişaf etdirilmiş dövlət borcunun idarə edilməsinə dair prinsiplər borc portfelinin xərc və risk xüsusiyyətlərinin kompleks qiymətləndirilməsini nəzərdə tutur. Bu yanaşmalar çərçivəsində dövlətin borclanma strategiyası makroiqtisadi siyasət, fiskal proqnozlaşdırma və maliyyə bazarlarının inkişafı ilə əlaqələndirilir. Əsas diqqət borc öhdəliklərinin vaxtında yerinə yetirilməsinə, borclanma risklərinin idarə edilməsinə və dövlətin maliyyə dayanıqlılığının qorunmasına yönəldilir.

Güzəştli xarici kreditlərdən istifadə modeli xüsusilə aşağı və orta gəlirli ölkələrdə tətbiq edilir. Bu model beynəlxalq maliyyə institutları və inkişaf tərəfdaşları tərəfindən təqdim edilən nisbətən aşağı faizli, uzunmüddətli və güzəşt dövrü nəzərdə tutan kreditlərin cəlb edilməsinə əsaslanır. Belə kreditlər kommersiya borclanması ilə müqayisədə borca xidmət yükünü azalda və dövlətin inkişaf layihələrini daha əlverişli şərtlərlə maliyyələşdirməsinə imkan yarada bilər. Bununla belə, güzəştli kreditlərin də gələcək ödəniş öhdəlikləri yaratdığı nəzərə alınmalıdır. Xarici dövlət borcunun idarə edilməsində layihəyönümlü yanaşmaya əsasən xarici borc vəsaitlərinin cəlb edilməsi konkret investisiya layihələrinin sosial-iqtisadi nəticələri ilə əlaqələndirilir. İnfrastruktur, energetika, nəqliyyat, su təchizatı, təhsil və səhiyyə sahələrinə yönəldilən investisiyalar uzunmüddətli iqtisadi artım üçün əlverişli şərait yarada bilər. Lakin belə layihələrin hər biri birbaşa maliyyə gəliri formalaşdırmadığından onların qiymətləndirilməsi zamanı

həm iqtisadi, həm də sosial səmərəlilik göstəricilərindən istifadə edilməlidir. Borclanma hesabına maliyyələşdirilən layihələrin seçilməsində xərc-fayda təhlili, alternativ investisiya imkanlarının müqayisəsi və fiskal öhdəliklərin qiymətləndirilməsi mühüm rol oynayır.

Yaponiya dövlət borcunun böyük hissəsini milli valyutada və əsasən daxili istiqraz bazarı vasitəsilə maliyyələşdirir. Bu xüsusiyyət ölkənin borc portfelinin xarici valyuta riskinə məruz qalmasını məhdudlaşdırır. Eyni zamanda inkişaf etmiş maliyyə bazarı, geniş investor bazası və dövlət istiqrazları üzrə formalaşmış bazar infrastrukturu borclanma əməliyyatlarının həyata keçirilməsini dəstəkləyir. Bununla belə, yüksək borc səviyyəsi faiz dərəcələrinin dəyişməsi və uzunmüddətli fiskal dayanıqlılıq baxımından riskləri tam aradan qaldırmır. Yaponiya nümunəsi göstərir ki, borcun idarə edilməsində yalnız ümumi məbləğ deyil, borcun hansı valyutada, hansı investorlar tərəfindən və hansı müddətlərə maliyyələşdirilməsi də həlledici əhəmiyyət daşıyır.

Norveçdə neft gəlirlərinin idarə edilməsi, dövlət maliyyə aktivlərinin formalaşdırılması və büdcə siyasətinin uzunmüddətli qaydalar əsasında həyata keçirilməsi dövlətin maliyyə dayanıqlılığını dəstəkləyən amillərdəndir. Ölkənin təcrübəsi göstərir ki, dövlətin maliyyə mövqeyinin qiymətləndirilməsində yalnız borc öhdəliklərinin deyil, maliyyə aktivlərinin də nəzərə alınması vacibdir. Dövlətin əhəmiyyətli maliyyə ehtiyatlarına malik olması xarici iqtisadi şokların təsirini yumşalda və maliyyələşdirmə ehtiyaclarının idarə edilməsində əlavə imkanlar yarada bilər. Bununla yanaşı, Norveç modeli birbaşa xarici dövlət borcunun idarə edilməsi modeli kimi deyil, borc dayanıqlılığını dəstəkləyən fiskal və aktiv idarəetməsi təcrübəsi kimi qiymətləndirilməlidir.

İÇİNDƏKİLƏR
CONTENTS

Elnarə Məmmədova, İradə İmanova
Rəqəmsal inkişafın Azərbaycan dilinə təsiri 5
Maya Qasımova
Savad təlimi dövründə şagirdlərin oxu prosesində müşahidə olunan qüsurlar 10
Yeganə Qəhrəmanova
Süni intellekt və Azərbaycan dili: generativ AI-nin dil norması və müasir kommunikasiya proseslərinə təsiri 16
Günel Allahverdiyeva
İngilis dilinin tədrisində əyanilik prinsipinin pedaqoji əhəmiyyəti 21
Elnara Mamedova, Mehdi Rizazada
Forming Motivation Towards Physical Education Classes Among Primary School-aged Children 25
Nazilə Rəsulova
İnklüziv təhsildə təlimin təşkili formaları və metodları 30
Nabat Əhmədova
Qiymətləndirmə prosesinin planlaşdırılması meyarları 34
Zərifə Zeynalova
Azərbaycan natiqlik sənəti 38
Sevda Ağayeva
Müasir təhsil sistemində distant təhsilin rolu və imkanları 43
Rufat Gadimov, Khanlar Gojayev
The Role of Adaptive Physical Education in Physical Development and Health Preservation 47
Nəzrin Hacıyeva
İnteraktiv üsullarla ana dili dərslərində mənəvi tərbiyənin qurulması 52
Fatma Əliyeva
Pedaqoji fəaliyyətdə ünsiyyətin rolu və psixoloji çətinliklərin aradan qaldırılması 57

Balish Mirzayeva
Global Trends in the Development of Modern Sports Facilities 61
Nigar Qasımova
Riyazi dilçiliyin əsas istiqamətləri 66
Turkan Həsənova
Şahmat təliminin ibtidai sinif şagirdlərinin intellektual inkişafında rolu 72
Jalə Məmmədova
Uşaqların davranış problemlərində ailə və təhsil mühitinin rolu 78
Kənan Xudaverdiyev
Satış əməliyyatlarının riskə əsaslanan auditi: avtomobil ticarəti müəssisəsi nümunəsində BAS 315 və BAS 240 tələblərinin tətbiqi 83
Aişə İbrahimova
İnformasiya kommunikasiya texnologiyalarının təlim prosesinin səmərəliliyinə təsiri 88
Eldar Javanshirov
Pedagogical Foundations of the Military-oriented Organization of Physical Education in General Education Schools 92
Şəmsəddin Abbasov
Əlilliyi olan uşaqların ailələrinə sosial xidmətlərin göstərilməsi: problemlər və inkişaf istiqamətləri 98
Arzu Huseynli
The Role of Autonomy and Goal-Setting in l2 Motivation ... 103
Asif Huseynov
The Role of Traditional Games of Turkic Peoples in Enhancing the Physical Fitness of Youth 106
Səbinə İsmayılova
Tələbələrin mənəvi inkişafında milli dəyərlərin yeri 111

Kənan Yusubov
Müasir dövrdə bank əməliyyatlarının tənzimlənməsi və icrası sisteminin təkmilləşdirilməsi 115
Murad Nəsirli
Korporativ maliyyə risklərinin idarə edilməsində müasir yanaşmalar və onların müəssisə fəaliyyətinə tətbiqi 120
Rövşən Həbibov
Müəssisələrdə pul axınlarının rəqəmsal idarə edilməsi və maliyyə dayanıqlığının gücləndirilməsi 126
Cahid Yusibzadə
Dövlət maliyyə nəzarətinin səmərəliliyinin artırılmasında normativ dəyişikliklər və rəqəmsal mexanizmlər 131
Amin Qəhrəmanov
Maliyyə hesabatlarında saxtakarlıq hallarının aşkarlanması və qarşısının alınması mexanizmləri 136
Səbinə Xəlilova
Kiçik və orta sahibkarlıq subyektlərində daxili maliyyə nəzarətinin riskəsaslı təşkili və təkmilləşdirilməsi .. 141
Rəvan Həsənov
Maliyyə əməliyyatlarında ikiqat vergitutmanın aradan qaldırılması istiqamətləri 147
Fuad Qarayev
Bank sektorunda maliyyə əməliyyatlarına nəzarətin təkmilləşdirilməsi 152
Əli Hüseynov
Bank sektorunda səmərəli vergi planlaşdırılması və onun maliyyə nəticələrinə təsiri 157
Nurgül Kərimli
Azərbaycan və Türkiyədə ibtidai təhsil məzmununun müasir inkişaf istiqamətləri 162
Faiq Ağazadə
Vergi öhdəliklərinin icrasına nəzarətin təkmilləşdirilməsi 167

Nəzrin Əliyeva
Ali təhsildə formativ qiymətləndirmədə süni intellektdən istifadə imkanları 173
Gülay Ələkbərova
Oyun əsaslı öyrənmənin XXI əsr bacarıqlarının inkişafında rolu 178
İsrafil İsmayilov
Xarici dövlət borcunun idarə edilməsində beynəlxalq modellər 182

Redaksiyanın ünvanı
AZ1073,
A.M.Şərifzadə 19, Yasamal r-nu,
Bakı, Azərbaycan
Tel.: +994 99 804 67 68
+994 99 808 67 68
e-poçt: tezis.elm@gmail.com

Editorial address
AZ1073,
19 A.M.Sharifzade St., Yasamal Dist.,
Baku, Azerbaijan
Phone: +994 99 804 67 68
+994 99 808 67 68
e-mail: tezis.elm@gmail.com

İmzalandı: 16.11.2026
Onlayn çap: 22.11.2026
H/n həcmi: 6 ç.v.
Sifariş: 250

aem.az saytında çap edilmişdir.
Ünvan: A.M.Şərifzadə 19, Yasamal r-nu,
Bakı, Azərbaycan
Tel.: +994 50 209 59 68
e-poçt: info@aem.az

Signed: 16.11.2026
Online publication: 22.11.2026
Stock issuance: 6 p.s.
Order: 250

It has been published on aem.az
Address: 19 A.M.Sharifzade St.,
Yasamal Dist., Baku, Azerbaijan
Phone: +994 50 209 59 68
e-mail: info@aem.az